Xalqın qəzeti!

# Xalq qəzeti

№ 77 (31046) 5 may 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan və Ermənistan 9 aydır sülh şəraitində yaşayır

## Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxış edib




**Mayın 4-də Ermənistanın paytaxtı İrəvan şəhərində "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə videobağlantı formatında çıxış edib.**

### Prezident İlham Əliyevin çıxışı

– Sabahınız xeyir və Bakıdan salamlar. Əvvəlcə mən "Avropa Siyasi Birliyi"nin Zirvə görüşündə çıxış üçün etdiyi dəvətə görə Prezident Koştaya təşəkkürümü bildirmək istəyirəm.

Prezident Koştanın Azərbaycana iki aydan az vaxt əvvəl etdiyi səfəri zamanı biz Zirvə görüşündə iştirakımı müzakirə etdik və razılaşdıq ki, mən tədbirə videobağlantı formatında qoşulacağam. Mən, həmçinin auditoriyanı məlumatlandırmaq istərdim ki, bir il öncə Tiranaya səfərim zamanı Prezident Koşta və Prezident Fon der Lyayen Zirvə görüşünün 2026-cı ilin mayında Ermənistanda təşkil olunması ideyasına rəyimi soruşdular. Mən dəstəklədim. Öz növbəmdə mən tarazlı yanaşmanın saxlanılması üçün növbəti Zirvə görüşlərindən birinin Azərbaycanda keçirilməsi təklifi ilə çıxış etdim. Təklif qəbul olundu. Beləliklə, mən "Avropa Siyasi Birliyi"nin üzvlərini 2028-ci ilin mayında Azərbaycanda keçiriləcək Zirvə görüşünə dəvət edirəm. Yeri gəlmişkən, Ermənistan, həmçinin namizədliyimizi dəstəklədi. Bu, Azərbaycan ilə Ermənistan arasında sülhün real olmasının aydın göstəricisidir. Biz cəmi doqquz aydır ki, sülh şəraitindəyik və sülhdə yaşamağı öyrənirik.

Ötən ilin avqustunda Vaşinqtonda, Ağ Evdə Ermənistan və Azərbaycan liderləri Birgə Bəyannamə imzaladılar. Prezident Tramp, artıq qeyd edildiyi kimi, həmçinin şahid kimi imza atdı. Ermənistanın və Azərbaycanın xarici işlər nazirləri sülh sazişinin mətnini parafladılar. Bizim üçün və əminəm ki, ermənistanlı həmkarlarımız üçün sülh qurulub. Sülhün əldə olunması faktı əsasında Azərbaycan 1990-cı illərin əvvəlindən Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdı. İndiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb. Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı - benzin və dizeli Ermənistana təchiz etməyə başladıq.

*(ardı 2-ci səhifədə)*

## Qazançı kilsəsi ruslarındır, yoxsa ermənilərin?

**Əsrlər boyu Şuşa xanlığının siyasi mərkəzi olmuş Şuşa şəhəri öz memarlıq strukturunda rəngarəngliyi qoruyub saxlayıb. Qala-şəhərin küçələrində gəzərkən tarixən Azərbaycan xalqına məxsus məscidlər, xanlıq dövrünün vüqarlı sarayları, məşhur mədrəsə və yaşayış binalarının izləri ilə addımbaşı qarşılaşmaq mümkündür.**



Şuşanı unikal edən cəhətlərdən biri də onun müxtəlif dini və mədəni qatları özündə birləşdirməsidir. Zamanla burada fərqli dini icmaların abidələri ucaldılıb. Onlar şəhərin ümumi memarlıq mənzərəsinə özünəməxsus rəng qatıb. XIX əsrdə inşa edilmiş Qazançı kilsəsi də bu zəngin tarixin bir parçasıdır.

**(ardı 7-ci səhifəfə)**

## Azərbaycan dövlətinin müstəqil siyasəti xalqımıza uğurlar qazandırıb

Səhifə ⇨ 8

## Mənzil kirayəsi bazarında şəffaflaşma niyə ləng gedir?

Səhifə ⇨ 10

## Hörmüz blokadasından Avropaya dəyən zərbə




Səhifə ⇨ 9

## Bakı–İrəvan marşrutunda "yaşıl" işıq



Səhifə ⇨ 9

## "Güzəştlər müqabilində sülh strategiyasının mövcudluq hüququ var"

Səhifə ⇨ 6

## Azərbaycan–Ermənistan sülhü: praktiki fayda naminə prinsipiallıq




Səhifə ⇨ 5

## Fransada siyasi kompasın oxunun yönü dəyişir



Səhifə ⇨ 5

## Avropapərəstlik və suverenlik dilemması



Səhifə ⇨ 6

## İrəvanda "Avropa zirvəsi"



Səhifə ⇨ 7

## Karapetyan seçkilərə də qazanc gözü ilə baxır



Səhifə ⇨ 7

## Xəzərin mavi yanacaq xəzinəsi



Səhifə ⇨ 9

## Həssaslıq, mərhəmət mənəvi məlhəmdir



Səhifə ⇨ 11

# Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısında videobağlantı formatında çıxış edib

**(əvvəli 1-ci səhifədə)**




Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsullarımız Ermənistana ixrac edilib.

Sülh sahəsində digər nailiyyət bağlantılardır. "Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu" Azərbaycanı öz eksklavı Naxçıvanla birləşdirəcək və bununla yanaşı, o, Orta Dəhlizin bir hissəsinə çevriləcək. Həm Ermənistan, həm Azərbaycan sülhün əyani nəticələrini artıq görürlər. Bu fürsətdən istifadə edərək, mən Ermənistan-Azərbaycan sülh prosesində tutduğu mövqeyə görə Avropa Komissiyasına təşəkkürümü bildirmək istəyirəm.

Lakin əfsuslar olsun ki, heç də bütün Avropa təsisatları eyni yanaşmanı sərgiləmir. Onlardan biri Avropa Parlamenti, digəri isə Avropa Şurası Parlament Assambleyasıdır (AŞPA). Azərbaycan 2001-ci ilin yanvarından Avropa Şurasının üzvüdür. Yeri gəlmişkən, mən o vaxt parlament üzvü və Azərbaycanın nümayəndə heyətinin rəhbəri kimi AŞPA-nın fəal üzvlərindən biri idim. Nümayəndə heyətimizə 2024-cü ilin yanvarına qədər Avropa Şurasında heç zaman məhdudiyyətlər tətbiq edilməmişdi. 2023-cü ilin sentyabrında Azərbaycan Qarabağda separatçılığa son qoydu. Biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 30 il kağız üzərində qalan 4 qətnaməsini özümüz icra etdik. Dörd ay sonra AŞPA nümayəndə heyətimizə sanksiyalar tətbiq etdi. Əfsuslar olsun ki, ikili standartlar bu gün sanki AŞPA-nın iş təlimatıdır. Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkənin ərazi bütövlüyü qədər eyni dəyərə malikdir. Bu məsələdə ikili standartlar qəbuledilməzdir.

İndi isə Avropa Parlamentini götürək. Bu qurum sülh prosesinə dəstək vermək əvəzinə ona qarşı sabotajla məşğul olur. İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı ilin aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir. Ən sonuncusu cəmi dörd gün əvvəl - bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib. Cavab olaraq Azərbaycan parlamenti mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin işində iştirakına son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılmasına aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul edib. Nəzərə alsaq ki, "Avropa Siyasi Birliyi"nin Zirvə görüşlərində biz öz fikirlərimizlə və narahatlıq doğuran məsələlərlə açıq şəkildə mübadilə edirik, mən, sadəcə, bu halda baş verənlər barədə həmkarlarımızı məlumatlandırmaq istədim ki, son qərarla bağlı səhv informasiya və manipulyasiya olmasın.

Yekun olaraq mən Baş nazir Paşinyanı "Avropa Siyasi Birliyi"nin Zirvə görüşünün Ermənistanda keçirilməsi ilə bağlı təbrik etmək istəyirəm. Bildirirəm ki, prosesə mane olmaq istəyən tərəflərin bütün səylərinə baxmayaraq, Azərbaycan sülh gündəliyinə sadiqdir və ermənistanlı həmkarımın şərhləri bunu aydın şəkildə göstərir. Mən Zirvə görüşünə uğurlar arzu edirəm. Sağ olun.

*

Tədbirdə Ermənistanın Baş naziri Nikol Paşinyan çıxış edərək, indi Azərbaycanla sülhə nail olunduğunu, artıq iki ildir heç bir tərəfdə tələfat olmadığını və bu dövrün müstəqilliyimizdən bəri yaşadığımız misilsiz illər olduğunu bildirdi. Qeyd etdi ki, indi iki ölkə arasında sülhü gücləndirmək və institusionallaşdırmaq məqsədilə tərəflər sıx şəkildə çalışırlar. Ermənistanın Baş naziri ilk dəfədir ki, Azərbaycan Prezidentinin onlayn formatda olsa da belə Ermənistanda keçirilən tədbirdə iştirak etdiyini xüsusi vurğuladı və ümidvar olduğunu bildirdi ki, 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin 10-cu toplantısında iştirak etmək üçün Azərbaycana səfər imkanı olacaq. Nikol Paşinyan Ermənistanın və Azərbaycanın "Avropa Siyasi Birliyi"nin toplantısını qəbul etmək üçün bir-birinin namizədliyini qarşılıqlı şəkildə dəstəklədiklərini də vurğuladı.

Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta tədbir iştirakçılarına və videokonfrans vasitəsilə toplantıya qoşulan Prezident İlham Əliyevə təşəkkürünü ifadə etdi. Bildirdi ki, bu toplantı tarixi səciyyə daşıyır, çünki onun keçirilməsi Ermənistan və Azərbaycan arasında razılaşma sayəsində mümkün olub. Bu razılaşma Avropada bir sülh hekayəsidir, eskalasiyanın və müharibənin hökmranlıq etdiyi bir dünyada alqışlanmalıdır.

Ukrayna Prezidenti Volodimir Zelenski isə çıxışına mühüm mesajla başladı. "Biz Ermənistana və Azərbaycana yalnız sülh - dayanıqlı, hərtərəfli, uzunmüddətli sülh arzulayırıq. Biz bunu, Baş nazir, sizə, Prezident Əliyevə və hər iki ölkənin xalqlarına arzulayırıq", - deyə o xüsusi vurğuladı.

Kanadanın Baş naziri Mark Karni də Ermənistan ilə Azərbaycan arasında sülh istiqamətində əldə olunmuş tərəqqiyə görə təbriklərə qoşulduğunu bəyan etdi və Prezident İlham Əliyevi salamladı.

# Prezident İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri mətbuata bəyanatlarla çıxış ediblər

**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni mətbuata bəyanatlarla çıxış ediblər. Əvvəlcə dövlətimizin başçısı bəyanatla çıxış etdi.**



## Prezident İlham Əliyevin bəyanatı

– Hörmətli xanım Baş nazir.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

İlk növbədə, xanım Baş nazir, Sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram, Azərbaycana xoş gəlmisiniz. Əminəm ki, Sizin səfəriniz Azərbaycan–İtaliya dostluq əlaqələrinin inkişafına növbəti töhfə olacaqdır.

Bizim ölkələrimiz strateji tərəfdaşdırlar, 2014-cü və 2020-ci illərdə strateji tərəfdaşlığa dair iki bəyannamə imzalanmışdır. Bizim münasibətlərimizin əsasını təşkil edən bu iki sənəd və sənədlərdə təsbit edilmiş məsələlər bu gün həyatda da öz əksini tapır. Sizin bu gün Azərbaycanda olmağınız bir daha Azərbaycan-İtaliya əlaqələrinin nə qədər dərinməzmunlu olmasından xəbər verir. Hər kəs bilir ki, Siz bu gün Ermənistanda idiniz. Ermənistanda öz proqramınızı bitirib Azərbaycana gəlmək bizim üçün xüsusi məna daşıyır, çox böyük rəmzi məna daşıyır, eyni zamanda, Azərbaycana göstərilən hörmətin və xoş münasibətin bariz təzahürüdür.

Bildiyiniz kimi, bizim siyasi əlaqələrimiz ən yüksək səviyyədədir. Eyni zamanda, ticarət əlaqələrimiz də çox yaxşı vəziyyətdədir. İtaliya Azərbaycanın bir nömrəli ticarət tərəfdaşıdır. Keçən il bizim ticarət dövriyyəmiz təxminən 12 milyard dollar təşkil etmişdir. Təbii ki, əlaqələrimizin əsas istiqamətlərindən biri energetika sahəsində tərəfdaşlıqdır. Burada da biz uzun illər ərzində etibarlı tərəfdaşlar kimi bir-birimizi dəstəkləyirik. Azərbaycan İtaliyanın neft təchizatında ikinci yerdədir, qaz təchizatında da ikinci yerdədir. Bizim üçün İtaliya bazarı həm neft, həm qaz üzrə birinci dərəcəli əhəmiyyət daşıyır. Keçən il Azərbaycan 25 milyard kubmetr təbii qaz ixrac edib, onun 9,5 milyardı İtaliya bazarına ixrac olunmuşdur. Bu gün söhbətlər və danışıqlar əsnasında biz bu həcmi artırmaq üçün müzakirələr aparmışıq. Bunun üçün təbii ki, Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP layihəsinin genişləndirilməsi lazımdır. Artıq müəyyən dərəcədə genişləndirilib, amma bu proses davam etdirilməlidir.

Bizim yeni əməkdaşlıq sahəmiz olan hərbi-texniki əməkdaşlıq ümidvericidir. Bu gün bu barədə də danışıldı. Birgə layihələrin həyata keçirilməsi, birgə istehsalın təşkil edilməsi, İtaliya texnologiyalarının Azərbaycan maliyyə vəsaitinin birləşməsi ilə əlaqədar konkret fikirlərimiz var. Bu barədə də geniş danışılıb.

İtaliya bazarı bizim üçün çox maraqlıdır. İtaliya iqtisadiyyatı xanım Baş nazirin rəhbərliyi ilə uğurla inkişaf edir. Azərbaycan Dövlət Neft Fondu son bir neçə il ərzində İtaliya iqtisadiyyatına təxminən 3 milyard dollar sərmayə qoyub. Bu sərmayələrin yeni layihələrə cəlb edilməsi məsələləri də müzakirə olunmuşdur.

Əlbəttə ki, İtaliya şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətinin çox böyük tarixi var. Hazırda İtaliyanın 130-a yaxın şirkəti Azərbaycanda fəaliyyət göstərir. İstəyirəm ki, onların sayı daha da çox olsun. O cümlədən işğaldan azad edilmiş Qarabağda və Şərqi Zəngəzurda İtaliya şirkətləri 23 layihə həyata keçirib və həyata keçirir. Xarici ölkələrin şirkətlərinə baxdıqda bu layihələrin icrasında İtaliya yenə qabaqcıl yerlərdədir. Təbii ki, bütün bu biznes, kommersiya, ticarət əlaqələri, şirkətlərin birgə fəaliyyəti və digər məsələlərlə yanaşı, biz bəlkə də ən vacib sahəni də unutmamışıq, o da təhsil sahəsidir. Keçən il Bakıda böyük təntənə ilə İtaliya-Azərbaycan Universiteti açılmışdır. Azərbaycanda təhsilin inkişafına bu universitetin çox böyük təsiri və töhfəsi olacaq. Bizə verilən məlumata görə, artıq 500-dən çox tələbə orada təhsil alır və gələcəkdə onlar həm peşəkar mütəxəssislər, həm də ki, Azərbaycanın İtaliyada və İtaliyanın Azərbaycanda təbii elçiləri olacaqlar. Beləliklə, bizim dostluğumuz bundan sonra inamla davam etdiriləcəkdir.

Hörmətli xanım Baş nazir və nümayəndə heyətinin üzvləri, sizi Azərbaycanda bir daha səmimiyyətlə salamlayıram. Ölkəmizə xoş gəlmisiniz.

*

Sonra İtaliya Nazirlər Şurasının sədri bəyanatla çıxış etdi.

***(ardı 3-cü səhifədə)***

# İtaliya Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycana işgüzar səfəri

## *Prezident İlham Əliyevin İtaliya Nazirlər Şurasının sədri ilə təkbətək görüşü*



**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə təkbətək görüşü keçirilib.**

# Azərbaycan–İtaliya heyətlərinin geniş tərkibdə görüşü



**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloni ilə geniş tərkibdə görüşü olub. Görüşdə çıxış edən Prezident İlham Əliyev dedi:**

– Xanım Baş nazir, nümayəndə heyətinin üzvləri, bir daha xoş gəlmisiniz. Bizim müxtəlif aspektlər üzrə mükəmməl danışıqlarımız oldu. İndi danışıqlarımızı geniş tərkibdə davam etdirəcəyik. Əvvəlcə bizimlə bir yerdə olduğunuz üçün Sizə bir daha təşəkkür edirəm. Bu səhər, hətta dünəndən bəri necə məşğul olduğunuzu bilirəm. Ermənistandan gələrək bizi ziyarət etməyiniz çox rəmzi məna daşıyır. Bu, bir daha Azərbaycana dost münasibətin olduğunu göstərir. Bizim də İtaliyaya eyni münasibətimiz var. Sizin bugünkü səfəriniz strateji münasibətlərimizin inkişafında çox həlledici olacaq. Bir daha xoş gəlmisiniz.

İtaliya Nazirlər Şurasının sədri **Ciorcia Meloni** çıxış edərək dedi:

– Çox sağ olun, hörmətli Prezident. Burada olmaq mənim üçün şərəfdir və məndə məmnunluq hissi doğurur. Hesab edirəm ki, buraya gəlmək vacib idi, çünki Azərbaycan İtaliya üçün çox vacib tərəfdaşdır. Lakin buna baxmayaraq, mənə məlum oldu ki, 2013-cü ildən bəri İtaliyanın Baş naziri buraya səfər etməyib. Bu da mənə kifayət qədər qəribə görünür. Ona görə hesab edirəm ki, bu səfəri etmək həqiqətən vacib idi, çünki bizim əməkdaşlığımız həqiqətən də çox genişdir. Biz bir çox strateji sahələr üzrə əməkdaşlıq edirik, - əlbəttə ki, enerji, infrastruktur, bağlantı və mədəniyyət.

İtaliya Respublikası Prezidentinin Azərbaycana səfəri həm də bizim mədəni əlaqələrimizin və universitetlə bağlı aparılmış işin nümayiş etdirilməsi nöqteyi-nəzərindən əlamətdar bir hadisə idi. Lakin hesab edirəm ki, biz həmişə birlikdə daha çox iş görə bilərik. Fikrimizcə, Azərbaycan bizim beynəlxalq müstəvidə çətin vəziyyətdə olmağımıza baxmayaraq, strateji tərəfdaşımızdır. Eyni zamanda, Azərbaycan körpü rolunu oynayır. Biz bu körpünün rolunu elan etmək istəyirik. Bu körpü buradan Aralıq dənizi regionuna qədər çox uzun bir körpü ola bilər.

# Prezident İlham Əliyevin adından İtaliya Nazirlər Şurası sədrinin şərəfinə işçi şam yeməyi verilib



**Mayın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin şərəfinə işçi şam yeməyi verilib.**

# Prezident İlham Əliyev və İtaliya Nazirlər Şurasının sədri mətbuata bəyanatlarla çıxış ediblər

(əvvəli 2-ci səhifədə)

## Nazirlər Şurasının sədri Ciorcia Meloninin bəyanatı



– Çox sağ olun, cənab Prezident.

Hamınıza “Axşamınız xeyir olsun” deyirəm.

Bu gün burada – Bakıda olmaqdan çox məmnunam. Təbii ki, bir daha cənab Prezident Əliyevə və bütün hökumətə bizə göstərilmiş çox səmimi qəbula, həmçinin bu gün ərzində apardığımız çox məhsuldar dialoqa görə təşəkkürümü bildirmək istəyirəm.

Bu gün ölkələrimiz arasında münasibətlərə gəldikdə, bu, siyasi baxımdan mənim üçün əhəmiyyətlidir. Çünki İtaliyanın Baş nazirinin Azərbaycana rəsmi səfərindən 13 il ötür. Düşünürəm ki, yaranmış bu qədər uzunmüddətli boşluğu doldurmalı idik. Bu, özünü nəinki ölkələrimizi bir-birinə bağlayan dostluq münasibətlərində, həmçinin İtaliya və Azərbaycan arasında çox mühüm əməkdaşlıqda göstərir. Bununla belə əlaqələrdə keyfiyyətcə böyük sıçrayış olub. Beləliklə, təbii ki, apardığımız çox geniş söhbətə görə təşəkkür edirəm. Söhbətimiz əsasında daimi siyasi əlaqələndirmə yolu ilə əməkdaşlığımızı transformasiya etmək üzərində razılığa gəldik. Buradan gələcəyə aid prioritetləri birgə təyin edəcəyik. Düşünürəm ki, indi yaşadığımız mürəkkəb beynəlxalq müstəvidə bu, çox əhəmiyyətli seçimdir. Bununla belə, ətrafımızda olan qeyri-sabitlik artır və aramızdakı aydın məsələlərin həlli daha böyük əhəmiyyət kəsb etməyə başlayır. Həmin aydın olan məsələlərdən biri təbii ki, İtaliya ilə Azərbaycan arasındakı münasibətlərdir.

Birmənalı olaraq, əməkdaşlığımızı hər zaman səciyyələndirən sahələrdən biri enerji sahəsidir. İtaliyaya qaz və neftin ixracı Ukraynaya qarşı Rusiyanın təcavüzkar müharibəsi başladıqdan sonra şərəflə təmsil etdiyim ölkənin enerji təhlükəsizliyində müəyyənedici amil rolunu oynayır. Bu əlaqələrin möhkəmləndirilməsi barədə aydın şəkildə söhbət apardıq. Biz nəinki təchizat həcmləri, xüsusilə bütün sahələr üzrə sənaye tərəfdaşlığının keyfiyyəti üzərində çalışmalıyıq. Bilirik ki, enerji və bağlantılar eyni medalın iki üzüdür. İstərdik ki, Azərbaycan Avropa ilə Asiya arasında fundamental qovşaq rolunu möhkəmləndirsin. İtaliya bu baxımdan Avropa bazarına imtiyazlı giriş qapısı rolunu hər zaman oynamağa hazırdır. Aydındır ki, bu cür plan sərmayələri, uzunmüddətli proqramları, ölkələrimizdə istehsal və sənaye sistemlərimizin ən münasib imkanlarının bir araya gətirilməsini tələb edir. Bu səbəbdən biz 2026-cı ilin ikinci yarısında burada, Bakıda biznes-forum təşkil etməyi planlaşdırmışıq ki, siyasi əməkdaşlığımızı müəssisələrimiz, işçilərimiz üçün konkret fürsətlərə çevirək.

Mən Prezidentlə razıyam ki, bütün bunlar istər son illərdə gözəçarpan Azərbaycan sərmayələrinin İtaliyaya yatırılmasında, istərsə də Azərbaycan tərəfi üçün İtaliyanın genişmiqyaslı sərmayələrinin ayrılmasında görünür. Cənab Prezident, söhbətlərimizdə qeyd etdiyimiz kimi, təsdiqləyə bilərəm ki, strateji planların, inkişaf planlarının, 360 dərəcəlik müasirləşmədə nəinki ikitərəfli qaydada, o cümlədən üçüncü ölkələrdə birgə işin icrasında çox böyük marağı olan çoxsaylı İtaliya müəssisələri var. Çünki energetika əməkdaşlığımızın yeganə sahəsi deyil. Bir çox digər sahələr var.

Həlledici digər sahə müdafiə və təhlükəsizlik sahəsidir. Bu sahədə, aerokosmik sənaye, dəniz təhlükəsizliyi, mühüm infrastrukturun mühafizəsi, üstün texnologiyalar kimi sahələrdə İtaliyanın ən kamil nəticələrini dəyərləndirərək əməkdaşlığı dərinləşdirmək istəyirik. Biz elə bir model təklif edirik ki, sənaye sistemləri arasında əməkdaşlıq nəticəsində biliklərlə mübadilə, birgə inkişaf, regional sabitliyə töhfə verə biləcək gələcək perspektivli sahələr və nəhayət, sənaye sistemlərimizi birləşdirən amillər olsun.

Bununla belə, dostluğumuz münasibətlərimizdə, cəmiyyətlərimiz arasında əlaqələrdə, mədəni bağlantılarda dərin köklər salıb. Burada, Bakıda respublika Prezidenti Mattarellanın iştirakı ilə Azərbaycan Diplomatik Akademiyasının nəzdində açılmış universitet İtaliyanın beş nüfuzlu universiteti ilə əməkdaşlıqdan formalaşmışdır. Yekun nəticədə bütün bunlar mədəniyyət, gələcək nəsillər, xalqlarımız arasında əlaqələr, bu gün həm mədəniyyət, həm ərzaq təhlükəsizliyi sahələrində əldə etdiyimiz razılaşmalar ümumi məramımızın rəmzi anlarıdır. Bütün bunlar eyni istiqamətdə inkişaf edir.

Təbii ki, Prezident Əliyevlə İranla bağlı böhrandan tutmuş bölgəmizdə baş verən və hamımıza aid olan hadisələrə qədər əsas beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi apardıq. Aydın şəkildə, mənim üçün İranla ümumi sərhədi olan, İranla uzun ümumi tarixə malik ölkənin Prezidentinin fikrini dinləmək çox maraqlı oldu. Bir daha arzu edirik ki, bu böhran mümkün qədər ən qısa müddətdə aradan qalxsın. Bu məqsədə xidmət edən hər hansı təşəbbüsə dəstək verməyə, bölgədə sabitliyin qurulmasına öz sadiqliyimizi bir daha vurğuladım. Mən, həmçinin Azərbaycana, Prezidentə və Azərbaycanın bütün hakimiyyət orqanlarına İranda təhlükə ilə üzləşən, ölkəni tərk etməyə məcbur olan çoxsaylı italyan vətəndaşların təxliyə olunmasında İtaliya üçün lazımi əməliyyatları həyata keçirdiyinə təşəkkürümü bildirmək istəyirəm. Sizin tərəf bu işdə tam tədbirləri gördü və daha dəqiq desək, Sizə təşəkkür edirəm ki, Tehrandakı səfirliyimizin müvəqqəti olaraq Bakıya köçürülməsinə, təhlükəsizlik şəraitində səmərəli şəkildə işləməsinə dəstək verdiniz. Bu, dostluğumuzu nümayiş etdirən digər elementdir.

Biz Azərbaycan ilə Avropa İttifaqı arasında dialoqun gücləndirilməsinin vacibliyini qeyd etdik. Enerji və daşımalar birmənalı olaraq iki sahədir ki, Avropa daha vacib rol oynaya bilər və oynamalıdır. Beləliklə, sərmayələrə dəstək, enerji şəbəkələrinə, beynəlxalq daşımalar marşrutlarına Azərbaycanın daha böyük inteqrasiyası təmin edilə bilər.

Ermənistanla münasibətlər mövzusunu müzakirə etdik. Mən Birləşmiş Ştatların verdiyi təkan sayəsində tarixi mərhələni əks etdirən normallaşma yolunda İtaliyanın tam dəstəyini bir daha vurğuladım. Düşünürəm ki, 2026-cı il bu baxımdan mühüm ilə çevrilə bilər, çünki çox vacibdir ki, bu dinamik regionun bütün potensialı istifadə edilsin. Həmçinin Ukraynada ədalətli və dayanıqlı sülhə yönəlmiş diplomatik səylər də öz nəticəsini verməlidir. Çünki ölkələrimiz çox dəstək göstərib, Ukrayna xalqının yanında olub.

Bir sözlə, iş əsnasında bizi birləşdirən çoxsaylı mövzular var. Söylədiyim kimi, bu işləri birgə icra edə bilərik. Yekun olaraq bir daha bildirirəm ki, biz aydın məsələlərin az sayda olduğu dövrdə yaşayırıq və tam təbiidir ki, bu kimi hallar az olanda biz bir-birimizə daha çox bağlanmalıyıq. Məhz bu səbəbdən İtaliya Azərbaycanla həyata keçirdiyi mühüm tərəfdaşlığı uzunmüddətli tərəfdaşlıq kimi görür və bundan sonra da uzunmüddətli olmasını istəyir.

Cənab Prezident, səmimi qəbula və bizimlə apardığınız çox maraqlı söhbətə görə bir daha təşəkkür edirəm.

## Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə”də və 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 1 iyul tarixli 463 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 7, maddə 626 (Cild I); 2024, № 5 (I kitab), maddə 516) ilə təsdiq edilmiş “Hüquqi aktların Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi qaydaları haqqında Əsasnamə”nin 3.10-cu və 3.11-ci bəndlərinin birinci cümlələrində “yeddi” sözü “on beş” sözləri ilə əvəz edilsin.

**2** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 10, maddə 1376 (Cild I) ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə”nin 5.5-ci bəndində “7 (yeddi)” sözləri “15 (on beş)” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 may 2026-cı il**

## Azərbaycan xalçaçılarının “Tərəqqi” medalı ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda xalçaçılıq sənətinin inkişafında səmərəli fəaliyyətlərinə görə aşağıdakı şəxslər “Tərəqqi” medalı ilə təltif edilsinlər:

Ağalıyeva Neva Şahpələng qızı
Babayeva Aidə Elman qızı
Babayeva Ceyhunə Zakir qızı
Eyyubova Raya Şahvələd qızı
Əbilova Nazilə Əlisəfa qızı
Əhmədova Şəfiqə Məzəddin qızı
Əkbərova İradə Xanağa qızı
Ələkbərova Vüsalə Mərifət qızı
Əsgərova Kəmalə Sərdar qızı
Həsənova Xaliqə Yelmar qızı
Hüseynova Dilşad Mahmud qızı
Qənbərova Nargilə Əliağa qızı
Qurbanova Sədaqət Əmir qızı
Nəsirova Jalə Abduləli qızı
Nuriyev Əlisafa İdris oğlu
Özbəkova Gülgəz Mətləbulla qızı
Rəhimova Nailə Allahverdi qızı
Şahmuradova Alisa Sadıq qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 4 may 2026-cı il**

## Parlamentlərarası İttifaqın Baş katibi: Azərbaycan PAİ-də öz fəaliyyəti ilə diqqəti cəlb edir



**Mayın 4-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın (PAİ) Baş katibi Martin Çunqonqla görüşüb.**

Görüşdə S.Qafarova PAİ-nin Milli Məclislə uğurlu əməkdaşlıq etdiyini, xüsusilə 2021-ci ildən etibarən Azərbaycan parlamenti deputatlarının PAİ-də daha da fəallaşdıqlarını və bu qurumda rəhbər vəzifələrdə təmsil olunduqlarını diqqətə çatdırıb. O, Milli Məclisin Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə əməkdaşlığından və Baş katib Martin Çunqonqun bu əməkdaşlığa dəstək verməsindən razılıqla danışıb. Sahibə Qafarova həm qarşılıqlı əməkdaşlığın inkişafı baxımdan, həm də Azərbaycan və Ermənistan parlament sədrlərinin görüşlərinin təşkilində göstərdiyi səylərə görə PAİ-nin Baş katibinə minnətdarlığını bildirib.

PAİ-nin insanların bir-birini dinləyə biləcəyi və dialoq qurduğu çox mühüm bir platforma olduğunu deyən Milli Məclisin Sədri Prezident İlham Əliyevin PAİ ilə əlaqələrin inkişafına verdiyi dəstəyin və göstərdiyi diqqətin mühüm əhəmiyyət daşıdığını vurğulayıb.

PAİ-nin Baş katibi Martin Çunqonq onun bu quruma rəhbərlik etdiyi dövrdə PAİ-Azərbaycan əlaqələrinin transformasiya olunduğunu diqqətə çatdırıb. Bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan PAİ ilə əlaqələrin inkişaf etdirilməsinə həmişə sadiq olub. O deyib ki, bu gün Azərbaycan bu qurumda öz fəaliyyəti ilə diqqəti cəlb edir.

Qeyd olunub ki, iki ölkə arasında sülh prosesi çərçivəsində Azərbaycan və Ermənistan parlamentləri arasında dialoqun yaradılmasına nail olunması PAİ-nin əsas məqsədi olan sülhə xidmət edir. Qonaq Prezident İlham Əliyevin PAİ ilə əməkdaşlığa verdiyi mühüm dəstəyə görə təşəkkürünü bildirib və diqqətə çatdırıb ki, onun bu səfəri Azərbaycanın bu quruma etimadının və inamının bir göstəricisidir.

Söhbət zamanı Baş katib Azərbaycanda COP29 çərçivəsində keçirilmiş Parlament konfransında əldə edilmiş uğurları yüksək qiymətləndirib. Bildirib ki, bu uğurlar sayəsində bütün dünya parlamentlərin səfərbərlik gücünün şahidi oldu.

Görüşün sonunda parlamentlər arasında konstruktiv dialoqun və səmərəli əməkdaşlığın inkişafında göstərdiyi xidmətlərə, Azərbaycan Milli Məclisi ilə Parlamentlərarası İttifaq arasında ikitərəfli və çoxtərəfli əlaqələrin möhkəmlənməsinə və genişlənməsinə verdiyi töhfələrə görə PAİ-nin Baş katibi Martin Çunqonq Milli Məclisin Fəxri Medalı ilə təltif edilib.

## İtaliya Nazirlər Şurası sədrinin Azərbaycana işgüzar səfəri başa çatıb



**İtaliya Respublikası Nazirlər Şurasının sədri Ciorcia Meloninin Azərbaycan Respublikasına işgüzar səfəri mayın 4-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

İtaliyanın Nazirlər Şurasının sədri Ciorcia Melonini Azərbaycanın Baş nazirinin müavini Samir Şərifov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

***AZƏRTAC***

## Polşa Respublikasının Prezidenti Zati-aliləri cənab Karol Navrotskiyə

**Hörmətli cənab Prezident!**

3 May – Konstitusiya Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Polşa arasında əlaqələr dərin tarixi köklərə və xoş ənənələrə əsaslanır. Biz böyük potensiala malik dövlətlərarası əlaqələrimizin və səmərəli əməkdaşlığımızın inkişafına xüsusi əhəmiyyət veririk.

İnanıram ki, ölkələrimiz arasında dostluq münasibətlərinin genişlənməsi, strateji tərəfdaşlığımızın möhkəmlənməsi, qarşılıqlı fəaliyyətimizin həm ikitərəfli əsasda, həm də Avropa İttifaqı çərçivəsində inkişafı yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Polşa xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

Hörmətlə,

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 aprel 2026-cı il**

## Konstitusiya Məhkəməsi Plenumunun iclası

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

Məhkəmə iclasında Bakı Apellyasiya Məhkəməsinin müraciəti əsasında Azərbaycan Respublikası Konstitusiyasının 28-ci və 60-cı maddələri baxımından Cinayət-Prosessual Məcəllənin 148.6-cı və 447.2-ci maddələrinin əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb.

Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim X.Vəliyevin məruzəsini, maraqlı subyektlər Bakı Apellyasiya Məhkəməsinin müraciətini və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Azərbaycan Respublikasının Prokurorluğu, Sumqayıt Apellyasiya Məhkəməsi, Daxili İşlər Nazirliyi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi, Vəkillər Kollegiyası tərəfindən təqdim edilmiş mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin hüquq fakültəsinin cinayət prosesi kafedrasının müdiri, hüquq elmləri doktoru, professor F.Abbasovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Azərbaycan Respublikası Konstitusiyasının 28-ci maddəsində nəzərdə tutulmuş azadlıq hüququnun təminatı baxımından, habelə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində ifadə edilmiş hüquqi mövqelərə əsasən Cinayət-Prosessual Məcəllənin 447.2-ci maddəsində məhkəmə tərəfindən həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı müraciətlərə baxılması üçün müəyyən edilmiş 24 saat əlavə müddət olmamaqla, həmin Məcəllənin 148.6-cı maddəsinə uyğun olaraq şübhəli şəxs qismində tutulma üçün müəyyən edilmiş 48 saatlıq müddətlə ehtiva olunur.

Azərbaycan Respublikası Konstitusiyasının 60-cı maddəsinə uyğun olaraq, istintaq orqanları və məhkəmələr tərəfindən həbs qətimkan tədbirinin seçilməsi ilə bağlı məsələnin obyektiv və hərtərəfli araşdırılması üçün onlar arasında 48 saatlıq müddət çərçivəsində ağlabatan vaxt bölgüsünün müəyyənləşdirilməsi və bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsi Milli Məclisə tövsiyə edilib.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Mehriban Əliyeva bədii gimnastika üzrə Avropa kubokunu izləyib






**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyeva və ailə üzvləri, Olimpiya və ikiqat dünya çempionu Alina Kabaeva mayın 3-də Milli Gimnastika Arenasında keçirilən bədii gimnastika üzrə Avropa kubokunu izləyiblər.**

# Parlamentlərarası İttifaqın Baş katibi Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



**Ölkəmizdə səfərdə olan Parlamentlərarası İttifaqın Baş katibi Martin Çunqonq mayın 4-də Fəxri xiyabanı ziyarət edib.**

Baş katib Martin Çunqonq xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini ehtiramla anıb, məzarı önünə tər çiçəklər düzüb.

# ICESCO-nun qərargahında "Natəvan Mədəni İrs Mükafatı"nın ilk qaliblərinin təltif edilməsi mərasimi olub

**Mayın 4-də Mərakeşdə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş qərargahında keçirilən "İslam dünyasında münaqişə və münaqişədənsonrakı dövrdə mədəni irsin idarə edilməsi" mövzusunda beynəlxalq konfrans çərçivəsində Heydər Əliyev Fondunun və ICESCO-nun birgə təsis etdiyi "Natəvan Mədəni İrs Mükafatı"nın ("Natavan Heritage Excellence Award") ilk təqdimat mərasimi olub.**




2025-ci ildə təsis olunan və Azərbaycanın görkəmli şairəsi, Qarabağ xanının qızı Xurşidbanu Natəvanın şərəfinə adlandırılan mükafat maddi irsin qorunması və idarə edilməsi sahəsində qabaqcıl təcrübəni bölüşmək, təşviq etmək baxımından əhəmiyyət daşıyır. "Natəvan Mədəni İrs Mükafatı" ölkəmizin milli dəyərlərinin qorunmasını, humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirməklə yanaşı, Azərbaycanın ədəbi-mədəni irsinin təbliğində də xüsusi rol oynayır. Heydər Əliyev Fondu və ICESCO tərəfindən təqdim edilən bu mükafat, həmçinin azərbaycanlı şairənin xatirəsinə ehtiram olmaqla, Qarabağın zəngin mədəni irsini yaşadır.

Təqdimat mərasimində ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik, Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, İordaniya şahzadəsi, Petra Milli İnam Fondunun prezidenti, Beynəlxalq Abidələr və Tarixi Yerlər Şurasının vitse-prezidenti Dana Firas iştirak ediblər.

İki ildən bir təqdim ediləcək "Natəvan Mədəni İrs Mükafatı" iki kateqoriyada - fərdi və layihə kateqoriyalarında qaliblərə verilir. Şərtlərə görə, layihə ICESCO-ya üzv ölkələrdən birində reallaşmalı, maddi-mədəni irsin qorunmasına və bərpasına yönəlməlidir.

Bu dəfə mükafata ICESCO-ya üzv ölkələrdən çoxsaylı müraciətlər daxil olmuş və onlardan 54-ü baxılmaq üçün qəbul edilmişdi. Beynəlxalq münsiflər heyətinin qərarı ilə "Layihə kateqoriyası" üzrə "Hebron/Əl-Xəlil Köhnə Şəhər Dükanlarının Bərpası: irsin qorunması və yerli iqtisadiyyatın canlandırılması üçün inteqrə olunmuş model" layihəsi üzrə Hebron Reabilitasiya Komitəsi (Fələstin) seçilib. Hebron/Əl-Xəlil köhnə şəhəri, o cümlədən İbrahim məscidi 2017-ci ildə UNESCO-nun Təhlükə Altında Olan Dünya İrs Siyahısına daxil edilib. Həmçinin 2020-ci ildə ICESCO-nun İslam Dünyası İrs Siyahısına salınıb və 2027-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunub.

"Fərdi müraciət" üzrə isə İraq vətəndaşı Əyyub Thanun Yunis Əl-Faris qalib olub. Mosul İrs Fondunun təsisçisi və prezidenti olan Əyyub Thanun Yunis Əl-Faris İslam dünyasında ən çox zərər görmüş şəhər irsi mühitlərindən birində "irsin davamlılığı"nın nümunəsini göstərir. O, "Böhran dövründə mədəni irs üçün ilkin yardım" və "Dünya İrsi Gənc Peşəkarlar Proqramı" üzrə ixtisaslaşmış təlimlər keçib, UNESCO-nun Mosul təşəbbüsü üzrə səfiridir. Gənc mütəxəssis kimi onun bütün səyləri münaqişədənsonrakı çoxmillətli mühitdə kimliyin və sosial birliyin bərpasına yönəlib.

"İslam dünyasında münaqişə və münaqişədənsonrakı dövrdə mədəni irsin idarə edilməsi" mövzusunda beynəlxalq konfransda çıxış edən Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Azərbaycan ilə ICESCO arasında əlaqələr, o cümlədən 2024-cü ildə Şuşada Heydər Əliyev Fondu ilə ICESCO arasında imzalanan Anlaşma Memorandumu çərçivəsində əməkdaşlıq layihələri barədə danışıb.





O, multikulturalizm və tolerantlıq modeli ilə dünyada tanınan ölkəmizin mədəniyyət beşiyi olan Şuşa şəhərinin 2024-cü il üzrə ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" seçildiyini, bunun ardından isə 2025-ci ildə ICESCO çərçivəsində "Natəvan Mədəni İrs Mükafatı"nın təsis olunmasının xüsusi əhəmiyyətini qeyd edib. ICESCO ilə səmərəli əməkdaşlıqda Azərbaycan Prezidenti İlham Əliyevin və ICESCO-nun xoşməramlı səfiri qismində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın səylərinin bilavasitə rol oynadığı qeyd olunub.

Çıxış zamanı müasir dünyada baş verən çoxsaylı münaqişələr fövqündə İslam aləmində mədəni irsin qorunmasının və gələcək nəsillərə ötürülməsinin vacibliyinə toxunulub, bu istiqamətdə Heydər Əliyev Fondunun Azərbaycanda və digər ölkələrdə həyata keçirdiyi layihələr barədə iştirakçılara məlumat verilib. Erməni işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzur regionlarında dağıdılmış mədəni irs nümunələrinin bərpası istiqamətində Azərbaycan dövləti, o cümlədən Heydər Əliyev Fondu tərəfindən bərpa edilən tarixi abidələr, məscidlər barədə məlumat verilib.

Qeyd edilib ki, həyata keçirilən layihələr yalnız ölkə daxilini əhatə etmir. Fond beynəlxalq miqyasda, eləcə də Afrika qitəsində fəal iştirak edir. Xüsusilə ICESCO ilə əməkdaşlıq çərçivəsində Burkina-Fasoda və digər ölkələrdə təhsil sahəsində müxtəlif layihələr uğurla icra olunub.

Vurğulanıb ki, Azərbaycanın görkəmli şəxsiyyətlərindən olan Xurşidbanu Natəvanın adını daşıyan mükafat mədəni irsin qorunmasında seçilən şəxslərə verilir. Xurşidbanu Natəvan öz həyatını Qarabağın çiçəklənməsinə həsr edib. O, yalnız poeziya və ədəbiyyat sahələrində deyil, həm də cəmiyyətin inkişafında mühüm rol oynayıb, xeyriyyəçilik fəaliyyəti ilə yadda qalıb.

Tədbir zamanı Heydər Əliyev Fondu tərəfindən şairə Xurşidbanu Natəvana həsr olunan Azərbaycan xalçası ICESCO qərargahına hədiyyə edilib.

"Natəvan Mədəni İrs Mükafatı"nın münsiflər heyətində təmsil olunan İordaniya şahzadəsi Dana Firas mükafatın, xüsusilə münaqişələr zamanı mədəni irs abidələrinin dağılma təhlükəsi ilə üzləşdiyi dövrdə əhəmiyyətini vurğulayıb. O, bir sıra məkanlarda, o cümlədən Hələb, Mosul, Tumbuktuda mədəni və tarixi irsin qorunmasında bir sıra uğurlu layihələrin və təşəbbüslərin həyata keçirildiyini diqqətə çatdırıb. Bu kontekstdə "Natəvan Mədəni İrs Mükafatı"nın təcrübə mübadiləsi, savadlılığın artırılması, İslam dünyasında uğurlu təşəbbüslərin təbliği baxımdan vaxtında irəli sürülmüş təşəbbüs olduğu qeyd edilib.

ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malik çıxışında bildirib ki, İslam dünyasının müxtəlif bölgələrində baş verən münaqişələr nəticəsində yüzlərlə milli irs nümunəsi ya zərər görüb, ya da tamamilə məhv edilib. O qeyd edib ki, Dünya İrs Siyahısına daxil olan 27-dən çox abidə hazırda ciddi təhlükə altındadır.

ICESCO-nun mədəni irsin qorunması və bərpası istiqamətində həyata keçirdiyi tədbirlərdən danışan Baş direktor vurğulayıb ki, işğal dövründə Azərbaycanın Qarabağ bölgəsinə, o cümlədən Şuşa şəhərinə dəymiş ziyanın qiymətləndirilməsi məqsədilə xüsusi missiya göndərilib. Missiya çərçivəsində 120-dən çox tarixi və mədəni irs abidəsinə baxış keçirilib, onların qorunması və bərpası üçün hərtərəfli fəaliyyət planı hazırlanıb.

Bildirilib ki, təşkilat tərəfindən Suriya ərazisində də mədəni irs nümunələrinin mövcud vəziyyətini müəyyənləşdirmək məqsədilə yaxın vaxtlarda analoji missiyanın həyata keçirilməsi planlaşdırılır.

Sonda Səlim əl-Malik qeyd edib ki, ICESCO Azərbaycanla, eləcə də Heydər Əliyev Fondu ilə əməkdaşlığa böyük önəm verir. O, Heydər Əliyev Fondunun Azərbaycanda mədəniyyət sahəsində mühüm və genişmiqyaslı layihələr həyata keçirməsinə də toxunub.

Konfransda çıxış edən Fələstin Dövlətinin turizm naziri Hani Al-Hayik Hebron şəhərinin bərpası üzrə layihənin qalib seçilməsi və bununla da bu layihəyə dəstək göstərilməsinə görə təşəkkürünü bildirib.

"Natəvan Mədəni İrs Mükafatı"nin ilk mükafatçıları təqdim olunan layihələrə göstərilən diqqətə və belə bir beynəlxalq mükafata layiq görülmələrinə görə ICESCO-ya və Heydər Əliyev Fonduna təşəkkür ediblər.

Daha sonra qonaqlar ICESCO nəzdində təşkil edilmiş Sultan Qabus Kitabxanası və münaqişə zonalarında bərpa layihələri üzrə ən yaxşı təcrübələrə həsr olunmuş fotosərgi ilə tanış olublar. Sərgidə 30 ilə yaxın erməni işğalı altında olan ərazilərimizdə dağıdılmış tarixi-mədəni, dini abidələrin bərpası üzrə görülmüş işlər, bu istiqamətdə Heydər Əliyev Fondunun Qarabağda həyata keçirdiyi layihələrə dair fotolar yer alıb.

Konfrans çərçivəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Malikin görüşü keçirilib. Görüş zamanı Azərbaycan və digər ölkələrdə gələcək birgə layihələr müzakirə olunub.

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 103 illiyi ilə əlaqədar Bakıda klassik musiqi konserti



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 103 illiyi ilə əlaqədar Bakı Şəhər İcra Hakimiyyəti və "Regional İnkişaf" İctimai Birliyinin birgə təşkilatçılığı ilə metronun "Gənclik" stansiyasının yaxınlığındakı istirahət parkında açıq havada Ulu öndərin əziz xatirəsinə həsr edilən "Bir ömrün simfoniyası" adlı klassik musiqi konserti keçirilib.**

Paytaxt sakinləri və qonaqların iştirakı ilə keçirilən konsertdə Mustafa Mehmandarovun rəhbəri və baş dirijoru olduğu "Archi" Kamera Orkestrinin ifasında musiqi əsərləri səsləndirilib.

Konsert zamanı səhnədə ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən video-fotomateriallar nümayiş etdirilib, onun sevdiyi klassik mahnılar səsləndirilib.

*XQ*



# Azərbaycan-Ermənistan sülhü: praktiki fayda naminə prinsipiallıq

*Prezident İlham Əliyevin “Avropa Siyasi Birliyi”nin VIII Zirvə toplantısına ünvanladığı mesajlar*

**“Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısı Azərbaycan ilə Ermənistan arasında sülh razılaşması sayəsində mümkün olub”. Bu fikri Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta dünən sözügedən toplantıdakı çıxışı zamanı səsləndirib.**



A.Koşta onu da bildirib ki, Bakı–İrəvan sülh prosesi və Ermənistan–Türkiyə münasibətlərində əldə olunan irəliləyiş sayəsində Cənubi Qafqaz transformativ mərhələyə qədəm qoyur. “Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısına videobağlantı formatında qatılan Prezident İlham Əliyevin də üzərində dayandığı başlıca məqam məhz sülh idi. Dövlətimizin başçısının çıxışı, eyni zamanda, sülhə qarşı çıxanlara da tutarlı mesaj kimi qiymətləndirilə bilər.

Bəli, Prezident İlham Əliyev barış mühitini yaşadığımız Cənubi Qafqaz coğrafiyasının mühüm nailiyyəti və müəyyən mənada, bənzərsiz tapıntısı kimi səciyyələndirib. “Biz cəmi doqquz aydır ki, sülh şəraitində yaşayırıq və sülh şəraitində yaşamağı öyrənirik”, – deyən dövlətimizin başçısı ötən ilin avqustunda Vaşinqtonda Ermənistan və Azərbaycan liderlərinin Birgə Bəyannamə imzalamalarından sonra ölkəmizin 1990-cı illərin əvvəllərində Ermənistana tətbiq edilən bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırdığını vurğulayıb.

Hesab edirik ki, bu vurğulanma Azərbaycan liderinin “sülhün praktiki faydası” tezisinə tam adekvatdır. Ancaq “sülhün digər nailiyyəti bağlantıdır”. Söhbət Birgə Bəyannamədə əksini tapmış Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutundan və ya qısaca, TRIPP-dən gedir. O marşrut ki, Prezident İlham Əliyevin də dediyi kimi, “Azərbaycanı onun eksklavı Naxçıvanla birləşdirəcək və bu yol Orta Dəhlizin bir hissəsi olacaq”. O marşrut ki, barəsində söz açdığımız praktiki faydanı indikindən qat-qat yüksək səviyyəyə qaldıracağı şübhəsizdir.

Ümumən, Prezident İlham Əliyevin şəxsində Azərbaycan dövləti sülh mövzusuna həmişə praqmatik və rasional yanaşıb. Bu yanaşmada Cənubi Qafqazın, bütövlükdə, regionun vahid orqanizm obrazı canlanıb. O obraz ki, münaqişə və konfliktlərdən uzaq durulmasını və əməkdaşlığı rəhbər tutmaqdadır. Görünür, elə buna görə də ölkəmiz 2020-ci ildə – 44 günlük müharibə başa çatar-çatmaz Ermənistana barış əlini uzatdı.

Ancaq qarşı tərəfin Azərbaycanın uzatdığı barış əlini sıxması 5 il çəkdi və durumun belə alınması Ermənistanın, həmçinin, onun xaricdəki havadarlarının “əməyinin” nəticəsidir. Sözümüz ondadır ki, sülh özünün praktiki mərhələsinə daha tez qədəm qoya bilərdi. Elə dövlətimizin başçısının da üzərində dayandığı məqam budur. Ona görə də ölkəmizin liderinin məlum Zirvə toplantısındakı çıxışı həm də keçmişin dərslərindən nəticə çıxarılmasına çağırış ruhlu mesaj kimi də dəyərləndirilməlidir. Bu mənada, Azərbaycan rəhbərinin səsləndirdiyi digər fikirlər də var.

Diqqət yetirək, Prezident İlham Əliyev 2023-cü ilin sentyabrında Azərbaycanın Qarabağda separatizmə son qoymasından, ölkəmizin BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi və 30 il kağız üzərində qalmış 4 qətnaməsini həyata keçirməsindən söz açıb. “Bundan dörd ay sonra AŞPA nümayəndə heyətimizə qarşı sanksiyalar tətbiq etdi”, - deyən dövlətimizin başçısı sözügedən qurumun ikili standartlar siyasətini özünün iş üsuluna çevirdiyini önə çəkib və bəyan edib: “Azərbaycanın ərazi bütövlüyü istənilən digər ölkəninki ilə eyni dəyərə malikdir və bu məsələdə ikili standartlar qəbuledilməzdir”.

Bəli, ötən müddətdə regional sülhü, o cümlədən onun praktiki mərhələyə qədəm qoymasını ləngidən bir çox hadisə və proseslərə şahidlik etdik. Bu səbəbdən Prezident İlham Əliyevin AŞPA xüsusundakı ittihamında “köhnə qitə”nin digər strukturlarının da payının olduğunu bildirməliyik. O strukturlar ki, Avropa Parlamentinin timsalında bu gün də Azərbaycan-Ermənistan sülh prosesinə maneçilik yaratmağa, münaqişə ovqatı formalaşdırmağa, rəsmi İrəvanın gündəmində olmayan Qarabağ ermənilərinin qayıdışı kimi sərsəmliyi qabartmağa, beləliklə, ölkəmizin konstitusion quruluşunu şübhələndirməyə cəhd göstərirlər.

Yəni AŞPA yarıtmazlıq meydanında tək deyil. Prezident İlham Əliyevin də vurğuladığı məhz budur: “İndi isə Avropa Parlamentini götürək. Bu qurum sülh prosesinə dəstək vermək əvəzinə ona qarşı sabotajla məşğul olur. İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı il aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir. Ən sonuncusu cəmi dörd gün əvvəl - bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib”.

Ümumən, Prezident İlham Əliyevin “Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısında səsləndirdiyi fikirlər Cənubi Qafqazda sülhü qorumaq naminə son dərəcə ciddi müqavimət formalaşdırır. Onu da nəzərə alaq ki, bu Zirvə toplantısı müstəqillik illərində Azərbaycan liderinin Ermənistanda keçirilmiş tədbirlərdə ilk iştirakı kimi tarixə düşəcək. Deməli, sülh və barış naminə ilklərə imza atmaq zamanıdır. Üstəlik, 2028-ci ilin mayında “Avropa Siyasi Birliyi”nin növbəti Zirvə toplantısının Azərbaycanda keçirilməsi qərara alınıb. O qərar ki, onun verilməsinə Ermənistan da dəstəyini göstərib. Yeri gəlmişkən, Baş nazir Nikol Paşinyan ev sahibi kimi dünənki çıxışında Bakıda iki il sonra təşkili planlaşdırılmış tədbirə qatılmaq niyyətini açıqlayıb.

Sonda onu da bildirək ki, “Avropa Siyasi Birliyi”nin İrəvanda keçirilən 8-ci Zirvə toplantısı zamanı səslənmiş fikirlər Cənubi Qafqazda sülhün real müstəviyə daxil olduğunun göstəricisidir. Elə Prezident Əliyevin vurğuladığı kimi: “Avropa Siyasi Birliyi”nin üzvlərini 2028-ci ilin mayında Azərbaycanda keçiriləcək Zirvə görüşünə dəvət edirəm. Yeri gəlmişkən, Ermənistan, həmçinin namizədliyimizi dəstəklədi. Bu, Azərbaycan ilə Ermənistan arasında sülhün real olmasının aydın göstəricisidir”.

Sonda bir məqamın da üzərində dayanaraq deyək ki, hazırda Ermənistan iqtidarı sülh prinsipiallığı nümayiş etdirməkdədir. Baş nazir Paşinyan və komandası həm barış yolunda ardıcıllıq göstərir, həm də prosesə qarşı çıxan daxildəki müxaliflərin ictimai rəydə çaşqınlıq yaratmaq cəhdlərinə sinə gərir. Ermənistanın hökumət rəhbərini “Avropa Siyasi Birliyi”nin Zirvə görüşünün İrəvanda keçirilməsi ilə bağlı təbrik edən Prezident İlham Əliyev isə böyük nikbinlik və əminliklə vurğulayır: “Bildirirəm ki, prosesə mane olmaq istəyən tərəflərin bütün səylərinə baxmayaraq, Azərbaycan sülh gündəliyinə sadiqdir və ermənistanlı həmkarımın şərhləri bunu aydın şəkildə göstərir”.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Fransada siyasi kompasın oxunun yönü dəyişir

*NATO ilə münasibətlər yenidən nəzərdən keçirilir*

**Yeni seçki dövrünün astanasında olan Fransa siyasi səhnəsi növbəti dəfə ideoloji toqquşmaların mərkəzinə çevrilib. Jan-Lük Melanşon bu günlərdə Fransa prezidentliyinə dördüncü dəfə namizədliyini elan edərək, gələn il bu postda müddəti başa çatan Emmanuel Makronu əvəz etmək uğrunda yarışa qoşulduğunu rəsmən təsdiqləyib. 74 yaşlı solçu siyasətçi Fransanın “TF1” kanalına müsahibəsində özünü “gərgin bir dövr”lə üzləşmək üçün ən uyğun namizəd kimi təqdim edib və buna səbəb kimi geosiyasi, iqtisadi və ekoloji riskləri göstərib.**

Melanşonun siyasi xətti Fransada klassik mərkəz-sol modelindən uzaqlaşaraq daha radikal sosial-iqtisadi yanaşmaları təmsil edir. O, vaxtilə Sosialist Partiyası daxilində fəaliyyət göstərsə də, sonradan buradan ayrılaraq kəskin sosial ədalət və dövlət müdaxiləsi ideyalarını ön plana çıxardı. Sözügedən dəyişiklik Melanşonu tərəfdarları üçün prinsipial liderə, rəqibləri üçün isə sistemə qarşı riskli fiqura çevirdi. Onun 2022-ci ildə Marin Le Pen ilə rəqabətdə üçüncü yeri tutması və sol elektoratın əsas dayağına çevrilməsi göstərdi ki, Fransa cəmiyyətində sosial narazılıq və dəyişiklik istəyi kifayət qədər dərin kök salıb.



Onu da bildirək ki, solçuların hakimiyyətə gəlməsi ehtimalı Avropanın ümumi siyasi arxitekturasında mühüm dəyişikliklər vəd edir. İlk növbədə, iqtisadi siyasətdə dövlətin rolunun genişlənməsi gözlənilir. Məsələn, Melanşonun proqramında sosial bərabərsizliyin azaldılması əsas prioritet kimi təqdim olunur. Bu çərçivədə yüksək gəlirli təbəqələr üçün vergi yükünün artırılması, böyük mirasların məhdudlaşdırılması və sosial xərclərin genişləndirilməsi kimi addımlar nəzərdə tutulur. Yəni bəhs etdiyimiz yanaşma klassik liberal iqtisadi modeldən uzaqlaşaraq daha çox dövlətin tənzimləyici və paylayıcı roluna əsaslanan sosial modelə keçidi ifadə edir. Belə iqtisadi kursun reallaşmaması, şübhəsiz ki, müəyyən sosial rahatlıq yarada bilər. Bu zaman dövlət xərclərinin sürətli artımı büdcə kəsirinin dərinləşməsinə, Aİ-nin fiskal qaydaları ilə ziddiyyətlərin yaranmasına gətirib çıxaracaq. Belə olan halda, Fransa ilə Brüssel arasında yeni gərginlik mərhələsinin başlanması ehtimalı yüksəkdir.

Yeri gəlmişkən, Melanşonun ən mübahisəli təkliflərindən biri Fransanın NATO-dan çıxarılması ideyasıdır. Bu baş verərsə, Fransa xarici siyasətində radikal dönüş yarana, ölkənin ABŞ-la münasibətləri korlana, Avropa daxilində təhlükəsizlik balansı dəyişə bilər. Melanşonun yanaşması Fransada müxtəlif yanaşmaları üzə çıxarıb. Bəziləri NATO-dan çıxmağı strateji müstəqilliyin gücləndirilməsi kimi qiymətləndirirlər. Elələri də var ki, bunu təhlükəsizlik boşluğu yarada biləcək riskli eksperiment kimi görür. Qısası, sol hökumət hakimiyyətə gəldiyi təqdirdə Aİ daxilində yeni siyasi dinamikanın formalaşması ehtimalı yüksəkdir.

Diqqət edilməli digər məqam Melanşonun Avropa siyasətinə yanaşmasının daha çox milli suverenliyin qorunmasına və Brüsselin iqtisadi diktəsinə qarşı olmasıdır. Bu isə Avropa inteqrasiyasının gələcəyi ilə bağlı mübahisələrə yol aça bilər. Sosial siyasət sahəsində isə dəyişikliklər daha dərindən hiss oluna bilər. Məsələn, pensiya yaşının yenidən 60-a endirilməsi ideyası geniş ictimai dəstək qazana biləcək addım kimi görünür. Qərar xüsusilə ağır əmək şəraitində çalışan təbəqələr üçün sosial ədalətin bərpası kimi təqdim olunur. Lakin demoqrafik reallıqlar, əhalinin yaşlanması və işləyənlərin sayının azalması bu modelin davamlılığı ilə bağlı ciddi suallar yaradır. Pensiya sisteminin maliyyələşdirilməsi üçün əlavə resursların tapılması hökumət üçün əsas problemlərdən birinə çevrilə bilər.

Yuxarıda qeyd etdiyimiz amillər göstərir ki, Fransada sol qüvvələrin hakimiyyətə yiyələnməsi ölkənin iqtisadi, sosial və geosiyasi istiqamətinin yenidən müəyyənləşdirilməsi anlamına gələ. Dəyişikliklərin bəziləri sosial ədalətin gücləndirilməsi və dövlətin vətəndaş qarşısında məsuliyyətinin artırılması baxımından müsbət nəticələr vəd etsə də, digər tərəfdən maliyyə sabitliyi, beynəlxalq münasibətlər və təhlükəsizlik sahəsində yeni risklər yarada bilər. Xülasə, Melanşonun namizədliyini Fransada və Avropada ideoloji balansın gələcəyini müəyyən edəcək mühüm sınaq kimi qiymətləndirmək olar.

Jan-Lük Melanşonun seçkidə qalib gəlmək ehtimalı yüksəkdir. Çünki Emmanuel Makronun nüfuzu son illər əhəmiyyətli dərəcədə zəifləyib. Mövcud zəifliyi dərindən analiz etdikdə cəmiyyətlə hakimiyyət arasında formalaşmış etimad böhranı aydın görünür. Makronun hakimiyyəti dövründə həyata keçirilən iqtisadi və sosial islahatlar, xüsusilə pensiya yaşının artırılması ilə bağlı qərarlar geniş ictimai narazılığa səbəb olmuşdu. Küçə etirazları, həmkarlar ittifaqlarının təzyiqi və müxtəlif sosial qrupların narahatlığı nəticəsində prezidentin “islahatçı lider” imici tədricən “elitaya yaxın, xalqdan uzaq siyasətçi” obrazı ilə əvəz olunmağa başladı. Məhz bu boşluqda Melanşon kimi fiqurların önə çıxması qaçılmazdır.

Sonda fransız ədəbiyyatının böyük nümayəndəsi Viktor Hüqonun fikri vəziyyətin mahiyyətini daha dəqiq ifadə edir: “Heç nə zamanından əvvəl gələn ideya qədər güclü deyil”. Bu gün Fransada yüksələn sosial ədalət tələbi və siyasi alternativ axtarışı da məhz yeni ideyanın əlamətlərini xatırladır. Seçkinin nəticəsi nə olursa-olsun, artıq dəyişimin özü qaçılmaz reallığa çevrilib.

***Nəzrin ELDARQIZI***
***XQ***

*Ekspert rəyi*



**Yeganə HACIYEVA,**
**politoloq**

Jan-Lük Melanşonun 2027-ci ildə prezidentliyə namizədliyini elan etməsi Fransada ideoloji qütbləşmənin daha da sərtləşəcəyini göstərir. Çünki o, həm də mövcud Avropa təhlükəsizlik arxitekturasına, neoliberal iqtisadi modelə və klassik Avro-atlantik yönümlü siyasətə ən sərt etiraz edən fiqurlardan biridir. Bu səbəbdən onun güclənməsi bütövlükdə Avropada siyasi balans baxımından diqqətlə izlənilir.

Fransada radikal və ya sərt sol ritorikanın güclənməsi ilk növbədə sosial bərabərlik, dövlət müdaxiləsinin artması, miqrant hüquqları və sosial təminatların genişləndirilməsi kimi xəttin önə çıxmasına səbəb ola bilər. Bu isə bir tərəfdən sosial narazılıqları yumşaltmaq potensialı daşısa da, digər tərəfdən iqtisadi yükün artması, biznes mühitinin təzyiq altında qalması və təhlükəsizlik məsələlərində daha yumşaq yanaşma riskini yaradır. Fransa kimi nüvə dövləti və Avropanın əsas təhlükəsizlik aktorlarından birində ideoloji romantizmin dövlət təhlükəsizlik instinktini zəiflətməsi Avropa üçün strateji risk hesab olunur.

Melanşonun siyasi xəttində NATO-ya skeptik yanaşma, ABŞ təsirindən uzaqlaşma və “strateji avtonomiya” ideyasının sərt formada müdafiəsi diqqət çəkir. Bu xətt güclənərsə, transatlantik birlikdə çatlar yarana, xüsusilə Ukrayna müharibəsi fonunda təhlükəsizlik koordinasiyası mürəkkəbləşə bilər. Çünki Avropada sol populizmin bir hissəsi müdafiə xərclərinin artırılmasına və sərt təhlükəsizlik siyasətinə ehtiyatla yanaşır. Digər mühüm məsələ miqrasiya və milli-dini identiklik siyasətidir. Sol qüvvələrin güclənməsi adətən daha açıq miqrasiya siyasəti ilə müşayiət olunur. Bu isə artıq sosial gərginlik, paralel icmalar və radikallaşma problemi yaşayan Avropa şəhərlərində yeni təhlükəsizlik və inteqrasiya problemləri yarada bilər.

Hazırki mübarizə daha çox “qlobalist-humanist model” ilə “milli təhlükəsizlik və suverenlik modeli” arasında gedir. Melanşon kimi fiqurların güclənməsi isə mövcud ideoloji qarşıdurmanı daha da dərinləşdirə bilər.

# Avropapərəstlik və suverenlik dilemması

## *İrəvanda keçirilən "Avropa Siyasi Birliyi"nin VIII sammiti geosiyasi araşdırma testidir*

**"Avropa Siyasi Birliyi"nin VIII, Ermənistan–Aİ I sammiti İrəvanın xarici siyasət kursunda baş verən transformasiyanın simvolik kulminasiya nöqtəsi kimi qiymətləndirilə bilər. Son illər rəsmi İrəvan "çoxtərəfli balanslaşdırma" xəttindən tədricən daha aydın Avropayönümlü diskursa keçid edir. Bu keçid daxili legitimlik mexanizmlərinin yenidən qurulması cəhdidir. Hakimiyyət Avropa ilə yaxınlaşmanı islahatların lokomotivi və təhlükəsizlik təminatının alternativ modeli kimi təqdim edir.**



Burada diqqətçəkən əsas məqam "simvolik inteqrasiya" ilə "funksional inteqrasiya" arasındakı fərqdir. Sammitlər, yüksək səviyyəli görüşlər və siyasi bəyanatlar simvolik inteqrasiyanın elementləridir və onlar qısa müddətdə siyasi dividendlər gətirə bilər. Amma funksional inteqrasiya – yəni hüquqi uyğunlaşma, iqtisadi transformasiya, institutların yenidən qurulması – daha ağrılı və uzunmüddətli prosesdir. Ermənistanın qarşısında duran əsas çağırış bu iki səviyyə arasında balansı qorumaqdır. Digər tərəfdən, bu sammitlər Ermənistan daxilindəki siyasi parçalanmanı daha görünən edir. Müxalif qüvvələrin Avropa institutlarına ünvanladıqları mesajlar göstərir ki, ölkədə "Avropa seçimi" ətrafında konsensus formalaşmayıb. Bunlar isə xarici siyasət kursunun davamlılığı üçün ciddi risk yaradır. Çünki inteqrasiya



prosesləri geniş ictimai və siyasi razılaşma ilə davamlı ola bilir. Əks halda, hər siyasi dəyişiklik strateji istiqamətin yenidən nəzərdən keçirilməsi ilə nəticələnir ki, bu da tərəfdaşlar üçün etibarlılıq problemini gündəmə gətirir.

Eyni zamanda, Aİ-nin bu prosesdə rolu birmənalı deyil. Brüssel üçün Ermənistanın demokratik göstəriciləri vacib olsa da, regiondakı geosiyasi reallıqlar bu prinsiplərin tətbiqində selektiv yanaşmanı şərtləndirir. Hakimiyyət Avropa dəstəyini siyasi kapitala çevirməyə çalışdığı halda, müxalifət bunu xarici legitimlik üzərindən qurulan zəif daxili əsas kimi təqdim edir.

*

Ermənistan daxilində müxalif qüvvələrin Aİ-yə ünvanladığı müraciətlər göstərir ki, ölkədə "demokratik transformasiya" narrativi ətrafında ciddi fikir ayrılığı mövcuddur. Hakimiyyət Avropa istiqamətini modernləşmə və diversifikasiya kimi təqdim edir, lakin müxalifət bunu daha çox imic siyasəti, hətta müəyyən mənada xarici legitimlik axtarışı kimi qiymətləndirir. Burada əsas paradoks ondan ibarətdir ki, Aİ-nin normativ siyasəti – yəni demokratiya, hüququn aliliyi və insan haqları kimi prinsiplər – praktik siyasətdə tez-tez geosiyasi maraqlarla balanslaşdırılır. Aİ uzun illər özünü "dəyərlər birliyi" kimi təqdim etsə də, son onillikdə təhlükəsizlik mühiti, enerji marşrutları və regional rəqabət faktorları bu yanaşmanı daha praqmatik çərçivəyə salıb. Ermənistan kimi həssas geosiyasi zonada yerləşən ölkələrə münasibətdə isə bu praqmatizm daha qabarıq hiss olunur. Bütün bunlar Ermənistan daxilində siyasi diskursu ikiləşdirir. Hakimiyyət Avropa ilə yaxınlaşmanı "islahatların zəmanəti" kimi təqdim etdikcə, müxalifət bunu "selektiv legitimləşdirmə mexanizmi" kimi şərh edir. Başqa sözlə, müxalif qüvvələr iddia edir ki, Aİ-nin dəstəyi real demokratik keyfiyyətlərdən çox, mövcud hakimiyyətin geosiyasi uyğunluğuna əsaslanır.

Digər tərəfdən, bu vəziyyət Aİ üçün də reputasiya riski yaradır. Əgər Brüssel açıq şəkildə bəyan etdiyi prinsiplərlə praktik siyasəti arasında balansı izah edə bilməzsə, onun "normativ güc" imici zədələnə bilər. Xüsusilə də müxalifət və vətəndaş cəmiyyəti aktorları tərəfindən səsləndirilən tənqidlər artdıqca, Aİ-nin regiondakı təsir alətləri daha çox siyasi selektivlik prizmasından qiymətləndiriləcək.

*

Cənubi Qafqazda artan geosiyasi rəqabət, kommunikasiya xətləri, enerji və təhlükəsizlik məsələləri Aİ-ni regionda daha aktiv olmağa vadar edir. Ermənistan isə bu strategiyada "pəncərə ölkə" funksiyasını yerinə yetirə bilər. Məhz buna görə Brüssel daxili siyasi proseslərə selektiv yanaşma sərgiləyərək mövcud hakimiyyətlə işləməyi üstün tutur. Xüsusilə Rusiya təsirinin zəiflədiyi, İran faktorunun isə həssas balans yaratdığı bir mühitdə Aİ üçün İrəvanla əlaqələrin dərinləşdirilməsi "boşluğun doldurulması" strategiyasının tərkib hissəsinə çevrilir.

Enerji təhlükəsizliyi də eyni dərəcədə vacib amildir. Avropa üçün enerji mənbələrinin və tranzit yollarının şaxələndirilməsi prioritet olaraq qalır. Bu kontekstdə Ermənistan birbaşa enerji təchizatçısı olmasa da, regional enerji arxitekturasında mövqe tutmaq üçün əlavə diplomatik dəyər qazanır. Bütün bu amillər Brüsselin yanaşmasını qaçılmaz şəkildə praqmatik edir. Daxili siyasi proseslərə selektiv münasibət də məhz buradan qaynaqlanır: prioritet sabitlik və proqnozlaşdırıla bilən tərəfdaşlıq. Çünki Aİ üçün qeyri-sabit, daxili qarşıdurmalarla zəifləmiş Ermənistan geosiyasi baxımdan dəyərsizləşir.

*

Lakin bu yanaşmanın uzunmüddətli nəticələri də nəzərə alınmalıdır. Əgər Aİ qısamüddətli geosiyasi maraqlar naminə normativ prinsiplərdən ardıcıl şəkildə geri çəkilərsə, bu, onun regiondakı etibarlılığına zərbə vura bilər. Eyni zamanda, Ermənistan daxilində də "Avropa seçimi"nin mahiyyəti ilə bağlı şübhələri dərinləşdirə bilər. Nəticədə ortaya mürəkkəb bir mənzərə çıxır: Aİ Ermənistan üçün modernləşmə modeli kimi təqdim olunur, lakin Brüssel özü bu münasibətə daha çox geosiyasi alət kimi yanaşır. Ermənistanın qarşısında duran əsas vəzifə bu fərqi düzgün oxumaq və strateji qərarlarını bu reallıqlar əsasında formalaşdırmaqdır.

Lakin Avropa inteqrasiyasının struktur nəticələri var və onlar çox zaman ictimai diskursda yetərincə açıq müzakirə olunmur. Ən çox qabardılan məsələ suverenliklə bağlıdır. Doğrudur, müasir inteqrasiya modellərində suverenliyin "itirilməsi" deyil, "paylaşılması" anlayışı ön plana çıxır. Amma kiçik iqtisadiyyatlar üçün bu paylaşımın real çəkisi fərqli olur. Məhz bu nöqtədə əsas məsələ "qərarvermə asimmetriyası"dır. Yəni qaydalar formal olaraq hamı üçün eyni olsa da, onların hazırlanmasında iştirak imkanları bərabər deyil. Ermənistan kimi iqtisadi və institusional baxımdan məhdud resurslara malik ölkələr üçün bu, inteqrasiyanın passiv fazasına düşmək riskini artırır.

Ticarət rejimlərinin liberallaşdırılması, rəqabət qaydalarının sərtləşdirilməsi və dövlət dəstəyi mexanizmlərinin məhdudlaşdırılması kimi addımlar qısamüddətli perspektivdə daxili bazarın qorunma imkanlarını azalda bilər. Yerli istehsal hələ tam formalaşmamış açıq rəqabət mühiti ilə üz-üzə qala, bazarda mövqe itirə bilər.

Digər tərəfdən, normativ uyğunlaşma institusional transformasiyanı da tələb edir. Hüquqi sistemin, idarəetmə mexanizmlərinin və tənzimləyici institutların Avropa standartlarına uyğunlaşdırılması kağız üzərində texniki proses kimi görünsə də, praktikada bu, siyasi iradə, kadr potensialı və uzunmüddətli strategiya tələb edən mürəkkəb dəyişikliklərdir. Əgər bu uyğunlaşma yalnız formal xarakter daşıyarsa, yəni qanunlar qəbul olunub real tətbiq mexanizmləri zəif qalarsa, onda "imitasiya islahatları" fenomeni ortaya çıxır.

Suverenlik məsələsinin daha incə tərəfi isə siyasətin prioritetlərinin formalaşması ilə bağlıdır. İnkişaf strategiyaları xarici standartlara uyğunlaşdırıldıqca, milli prioritetlərin müəyyənləşdirilməsi sahəsində manevr imkanları darala bilər. Bununla belə, məsələni yalnız risk prizmasından qiymətləndirmək də birtərəfli yanaşma olardı. Suverenliyin paylaşılması müəyyən hallarda idarəetmənin keyfiyyətini artırmaq, korrupsiyanı məhdudlaşdırmaq və institusional sabitliyi gücləndirmək üçün imkanlar yaradır. Problem həmin paylaşımın şərtlərində və balansındadır. Əgər Ermənistan bu prosesi selektiv və maraq əsaslı inteqrasiya kimi qurarsa, o zaman həm riskləri azalda, həm də faydaları maksimuma çatdıra bilər.

Aİ ilə əməkdaşlıq çərçivəsində təqdim olunan maliyyə paketləri, kreditlər və texniki yardım proqramları adətən konkret şərtlərlə müşayiət olunur. Formal olaraq bu şərtlər institusional inkişafı təşviq etməyə yönəlsə də, praktikada onlar iqtisadi siyasətin prioritetlərini də formalaşdırır.

Demoqrafik və sosial ölçü də diqqətdən kənarda qalmamalıdır. Avropa ilə inteqrasiya əmək miqrasiyasını sürətləndirə, insan kapitalının axınına səbəb ola bilər. Xüsusilə gənc və ixtisaslı kadrların xaricə yönəlməsi uzunmüddətli perspektivdə "beyin axını" problemini dərinləşdirə bilər. Təbii ki, diaspor şəbəkələrinin genişlənməsi, pul köçürmələri və xaricdə əldə olunan bilik və təcrübənin geri qayıtma potensialı da mövcuddur. Lakin bu potensialın reallaşması üçün dövlətin məqsədyönlü siyasəti – geri dönüş təşviqləri, investisiya imkanları və institusional əlaqə mexanizmləri – vacibdir. Əks halda, miqrasiya birtərəfli insan kapitalı itkisinə çevrilir.

Sosial və mədəni müstəvidə isə Avropa normativ çərçivəsinin təsiri daha çox identitet və dəyərlər müzakirəsi kontekstində özünü göstərir. Cəmiyyətin bir hissəsi bunu modernləşmə və açıq cəmiyyətin elementi kimi qəbul etdiyi halda, digər hissəsi ənənəvi strukturlar üçün təhdid kimi görür.

Son olaraq qeyd edək ki, bütün bunların fonunda əsas sual dəyişmir: Ermənistan bu prosesi necə idarə edəcək? Əgər Avropa istiqaməti yalnız qısamüddətli siyasi dividendlər üçün istifadə olunursa, bu, ölkəni asılılıq spiralına sala bilər. Əgər bu kurs realist qiymətləndirmə, mərhələli islahatlar və milli maraqların aydın tərifi ilə müşayiət olunarsa, inteqrasiya riskləri minimuma endirilə bilər.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# "Güzəştlər müqabilində sülh strategiyasının mövcudluq hüququ var"

## *Paşinyan iqtidarının səhvi nə(lər)dədir?*

**Ermənistanda siyasi proseslərin artan dinamika üzrə inkişafı fonunda ölkədəki bir sıra müşahidəçilərin durumun təhlilinə yönələn dəyərləndirmələri diqqətdən yayınmır. Əlbəttə, hay ekspert cəmiyyətinin böyük hissəsini proqressiv saymaq mümkünsüzdür. Çünki bu kəsim xaricin direktivləri əsasında hərəkət edir və əsasən erməni iqtidarına müxalif baxışları yayır. Ancaq nisbətən orta xətt götürən və müəyyən mənada, cəmiyyətin baxışları kontekstində fikir bildirənlər də tapılır. "Verelq" İnformasiya Mərkəzinə müsahibəsindəki fikirlərinə nəzərən politoloq David Arutyunovu da belələrindən saymaq mümkündür.**

Arutyunovun bildirdikləri həm də ona görə əhəmiyyətlidir ki, o, nəinki reallığın şərtlərini, habelə, Paşinyan iqtidarının hazırkı sülh narrativinə gedən yolundakı səhvləri vurğulayır. Hərçənd, ekspertin "Ermənistana Azərbaycanın və Türkiyənin təzyiqi" ritorikasını məqbul saymırıq. Ona görə ki, mövcud ritorika qıcıqlandırıcı ovqat formalaşdırır və bu, barış mühitinə ziddir. Digər tərəfdən isə David Arutyunovu, bir növ, özü-özünü inkar yolu tutur. Axı o, böyük ölçüdə, reallıqla hesablaşılmasını təlqin edir. Edirsə...

**– Ermənistanın rəsmi ritorikasının sülh və ümumilikdə Qarabağ məsələsi ilə bağlı hazırkı transformasiyasını necə qiymətləndirirsiniz? Sizin fikrinizcə, praqmatik diplomatik kompromis axtarışı ilə Bakı və Ankaranın siyasi tezislərinin faktiki mənimsənilməsi arasındakı sərhəd haradan keçir?**

– Son 5 ilin hadisələrindən sonra Qarabağ məsələsinə yanaşmaların, eləcə də Ermənistanın yaxın tarixində bəzi hadisələrin şərhinin, müəyyən formada, yenidən nəzərdən keçirilməsi qaçılmaz idi. Prosesə həm kənar təzyiqlər, həm də Ermənistanın daxili gündəliyinə aid amillər təsir göstərir. Keçmiş ritorika və yanaşmaların saxlanılması, böyük ölçüdə, münaqişənin davam kursu demək olardı ki, bunun üçün Ermənistanın real şərtləri və imkanları yoxdur.

Eyni zamanda, Ermənistan hakimiyyəti münasibətlərin soyuması bahasına olsa belə, bu mövzuda güzəştlərin sərhədlərini müəyyən etməyə çalışmır. Belə "qırmızı xətlərin" olmaması Ermənistanın daxili gündəliyinə daha çox müdaxiləyə səbəb ola bilər (politoloqun dedikləri bir daha göstərir ki, erməni iqtidarının əvvəldən sülhə və barışa yönələn strategiyası olmayıb – red.).

**– Bir çoxları rəsmi İrəvanın mövqelərinin qonşu ölkələrin narrativlərinə yaxınlaşmasının Ermənistan daxilində birmənalı qarşılanmadığını qeyd edir. Sizin fikrinizcə, bu amil yaxın gələcəkdə daxili siyasi sabitliyə və cəmiyyətin konsolidasiyasına necə təsir göstərəcək?**

– Yeni baxışın Ermənistan daxilində mənfi təsirini gücləndirən və hətta obyektiv qaçılmaz olduğu hallarda belə, prosesi nüfuzdan salan bir sıra amillər var. İlk növbədə, hakimiyyətin bu kursunun konjunktural xarakter daşıması aydındır – yəni söhbət ardıcıl və aydın strategiyadan yox, xarici təzyiq altında atılan situativ addımlardan gedir. Daha sonra rəsmi narrativlərdə dəyişikliklər vasitəsilə keçmişdə buraxılmış səhvləri geriyə dönüş şəklində ağartmaq və əsaslandırmaq cəhdi müşahidə olunur.

Nəhayət, bu proses cəmiyyətlə dialoq olmadan həyata keçirilir və daxili siyasi proseslərlə sıx bağlıdır. Çox vaxt proses daxili proseslərə tabe edilir ki, bu da əlavə gərginlik yaradır. Məncə, nəzəri olaraq, bu güzəştlərin daha incə şəkildə həyata keçirilməsi mümkün idi – həm Bakının müəyyən tələblərini qarşılamaq, həm də Ermənistan cəmiyyətinin bəzi təbəqələrinə daha həssas yanaşmaq və ölkədə yaxın keçmişin hadisələri ilə bağlı real, konjonktural olmayan ictimai müzakirə başlatmaq olardı.



**– Əgər mövcud hökumətin siyasi kursu seçkilərdə etimad mandatı alarsa, təşviq edilən sülh gündəliyi kontekstində ənənəvi erməni milli konsepsiyalarını uzunmüddətli perspektivdə hansı dəyişikliklər gözləyə bilər?**

– Aydındır ki, mövcud kurs bu və ya digər formada davam edəcək. Lakin onun konkret təzahürlərini proqnozlaşdırmaq çətindir. Çünki burada əsas amil xarici tələblərdir və əvvəlki təcrübə göstərir ki, bu tələblər dəyişə və genişləndirilə bilər. Xüsusən də İrəvanın bu məsələdə "qırmızı xətlər" müəyyənləşdirmək cəhdinin olmaması fonunda. Eyni zamanda, hakimiyyətin sosial siyasətinin xüsusiyyətlərinə görə, mövqelərinin zəifləməsi bu məsələdə müəyyən məhdudlaşdırıcı rol da oynaya bilər.

**– Yeni dövlət xarici siyasət xəttinin formalaşdığı şəraitdə müzakirə azadlığı məsələsi də gündəmə gəlir. Sizin proqnozlarınıza görə, hakimiyyətlə müxalifət və bu kursu konseptual olaraq paylaşmayan vətəndaş cəmiyyətinin bir hissəsi arasında münasibətlər necə qurulacaq?**

– Bu sualın cavabı böyük ölçüdə seçkilərin nəticələrindən asılı olacaq. Əgər hazırkı hakimiyyət inandırıcı qələbə qazanarsa, müxalifətə qarşı təzyiq kursunun davam ehtimalı yüksəkdir. Bununla belə, fərqli düşüncənin tamamilə boğulması ilə bağlı qiymətləndirmələr də şübhəlidir. Yəqin ki, biz sadəcə olaraq, əvvəlki hakimiyyət dövründə formalaşmış və hazırkı baş nazir tərəfindən müəyyən qədər dəyişdirilmiş avtoritar sistemin inkişafını görəcəyik.

Hakim partiyanın zəif nəticə göstərməsi isə müxalifətə təzyiqin azalmasına gətirib çıxara bilər. Qeyd etmək lazımdır ki, hakimiyyətin müxalifətə qarşı addımlarında əsas motiv hakimiyyəti qorumaqdır, yeni ideoloji yanaşmalar isə hələlik ikinci plandadır.

**– Real siyasət baxımından gərginliyin qarşısını almaq üçün qonşu ölkələrin terminologiyasına uyğunlaşma nə dərəcədə effektiv alətdir? Ən azı, bir çoxları vəziyyəti belə görür. Bu strategiya uzunmüddətli perspektivdə Ermənistanın xarici siyasət subyektliyinə necə təsir göstərə bilər?**

– 2020–2023-cü illərdəki məğlubiyyətlər silsiləsindən sonra müəyyən güzəştlər və Ermənistanın subyektliyinin zəifləməsi, müəyyən mənada, qaçılmaz idi. "Güzəştlər müqabilində sülh" strategiyasının da mövcudluq hüququ var. Lakin Ermənistan hakimiyyətinin addımları daha çox strateji yanaşmanın olmaması baxımından suallar doğurur. Bu güzəştlərin sərhədləri aydın deyil, həmçinin görünür ki, ümumilikdə, kurs daha çox qarşı tərəfin xoş niyyətinə və sülh istəklərinə inama əsaslanır, nəinki real faktorlara. Bütün bunlar isə təhlükəsizlik sahəsində vəziyyətin sabitliyi və Ermənistanın suverenliyinin daha da məhdudlaşdırılması ehtimalı ilə bağlı narahatlıqlar yaradır.

*Tərcümə etdi:*
***Ə.RÜSTƏMOV***
***XQ***

# İrəvanda "Avropa zirvəsi"

## Xarici siyasətdə uğur, yoxsa siyasi mübahisə mövzusu?

**İrəvanda keçirilən "Avropa Siyasi Birliyi"nin (ASB) VIII zirvə görüşü Ermənistan daxilində fərqli siyasi dairələrdə müxtəlif reaksiyalar doğurub. Yerli media bu mövzunu aktiv şəkildə işıqlandırsa da, yanaşmalar siyasətçidən siyasətçiyə, redaksiyadan redaksiyaya dəyişir.**

Məsələn, hökumətə yaxınlığı ilə seçilən media resurslarında çıxış edən siyasi şərhçilər müsbət məqamları qabardaraq, daha çox sammitin ölkənin beynəlxalq nüfuzunun artırdığını vurğulayırlar. Onlar qeyd edirlər ki, bu, Ermənistanın dövlət müstəqilliyini bərpa etməsindən bəri ev sahibliyi etdiyi ən böyük beynəlxalq siyasi tədbirdir. Üzv və tərəfdaş ölkələrdən 48 dövlət və hökumət başçısının, eləcə də dəvət olunmuş nümayəndələrin iştirak etdiyi sammitin Ermənistan üçün həm beynəlxalq diqqətin artması, həm də müxtəlif platformalarda özünü göstərmək imkanı yaratdığı qeyd olunur. Bu tip platformalarda danışan ekspertlər qeyd edirlər ki, belə tədbirlər Ermənistanın regionda tək, təcrid olunmuş vəziyyətdə qalmadığının sübutudur. Onların fikrincə, sammit Avropa ilə siyasi dialoqu gücləndirmək üçün fürsətdir. Hakimiyyətə loyallığı ilə seçilən və ya müstəqil xətt yürüdən ekspertlərin çıxışları əsasən yerli xəbər saytlarına və televiziya kanallarının studiya müzakirələrinə verilib.

Politoloq Suren Sarkisyan faktor.am-a açıqlamasında bildirib ki, İrəvanda keçirilən yüksək səviyyəli görüş Ermənistan üçün ilk növbədə siyasi baxımdan daha çox diqqət cəlb etmək imkanı yaradır. Onun sözlərinə görə, belə tədbirlər ölkənin beynəlxalq informasiya axınında daha aktiv yer almasına səbəb olur və bu, xüsusilə kiçik dövlətlər üçün vacib amildir. Sarkisyan qeyd edib ki, sammit təkcə rəsmi görüşlərlə məhdudlaşmır, eyni zamanda, müxtəlif ikitərəfli təmaslar üçün də əlavə imkanlar yaradır. O bildirib ki, bu tip platformalarda iştirak edən liderlərin diqqətinin İrəvana yönəlməsi Ermənistanın siyasi gündəmdə qalmasına kömək edir. Politoloqun fikrincə, bu, birbaşa nəticə verməsə belə, uzunmüddətli perspektivdə ölkənin beynəlxalq əlaqələrinin genişlənməsi üçün zəmin yaradır. Onun sözlərinə görə, bu cür görüşlər ölkənin mövqeyini təqdim etməsi üçün əlavə fürsət yaradır və bu da ümumi siyasi dinamikanın bir hissəsi kimi qiymətləndirilməlidir.

Politoloq Stepan Danielyan aysor.am-a bildirib ki, belə tədbirlər çox vaxt simvolik xarakter daşıyır və hələlik konkret nəticələr barədə danışmaq tezdir. Danielyan beynəlxalq kontekstdən danışaraq deyib ki, zirvə görüşü Ermənistanın Qərblə münasibətlərində yaxınlaşma cəhdinin bir hissəsidir. Onun fikrincə, hazırkı mərhələdə Ermənistanın müxtəlif istiqamətlərdə əlaqələrini paralel şəkildə inkişaf etdirməsi zəruridir və bu cür sammitlər məhz həmin siyasətin tərkib hissəsi kimi çıxış edir: "Sammitin İrəvanda keçirilməsi təsadüfi deyil və bu, ölkənin son illərdə apardığı xarici siyasət kursunun nəticəsi kimi qiymətləndirilə bilər. Belə platformalar vasitəsilə Ermənistan öz mövqeyini daha geniş auditoriyaya çatdırmaq imkanı əldə edir və bu, uzunmüddətli perspektivdə daha konkret nəticələrə gətirib çıxara bilər".

*

Mövcud iqtidarın bütün addımlarını pisləmək yolunu tutan keçmiş xarici işlər naziri Vardan Oskanyan zirvə görüşü ilə bağlı tənqidi fikirlər səsləndirib. O, sosial şəbəkə hesabında yazıb ki, baş nazir Nikol Paşinyanın ölkəni Avropaya doğru aparacağı barədə bəyanatlarına artıq heç kim inanmır. Onun fikrincə, Paşinyan xarici siyasətdə milli maraqları qorumağa deyil, daxili siyasi dividendlər qazanmağa çalışıb və bu məqsədlə kəskin və ehtiyatsız siyasi bəyanatlarla çıxış edib: "Balanslı xarici siyasət yerinə o, Ermənistanın Avropaya yönəldiləcəyini elan edib. Bir neçə il əvvəl bu cür səthi proqramlara inananlar olsa da, indi aydın görünür ki, Ermənistan Avropaya bir addım da yaxınlaşmayıb, əksinə, respublika geosiyasi mübarizə meydanına çevrilib". Onun sözlərinə görə, sadə vətəndaşlar artıq anlayır ki, Ermənistan təhlükəsizlik sistemini itirib, ciddi itkilər verib və əvəzində heç nə əldə etməyib. Oskanyan bildirib ki, bu kontekstdə ASB-nin sammiti, onun gündəliyi, qəbul edilən bəyanatlar və "Volodimir Zelenski kimi şəxslərin" (?) iştirakı Ermənistanın balanssız xarici siyasətini daha da qabarda bilər. Bu isə iqtisadiyyat və təhlükəsizlik baxımından mənfi nəticələrlə bağlı narahatlıqları artırır. O, əlavə edib ki, yaxın bir ayda keçiriləcək seçkilər fonunda seçicilər bu siyasətin ölkənin təhlükəsizliyi və iqtisadi dayanıqlılığına təsiri barədə ciddi düşünməlidirlər.

Daha bir tənqidi açıqlama ilə Respublika partiyası sədrinin müavini Armen Aşotyan çıxış edib. O bildirib ki, hakimiyyət İrəvanda keçirilən ASB sammitinin əhəmiyyətini təhrif edir: "Ermənistanın Avropa İttifaqı ilə institusional əlaqələri indiki hakimiyyətə qədər formalaşıb, buna görə də hazırkı proseslərin xarici siyasət uğuru kimi təqdim edilməsi düzgün deyil".




Mövcud vəziyyətin ona acı bir lətifəni xatırlatdığını deyən sədr müavini əlavə edib ki, ölkə növbəti dəfə geosiyasi zəifləmə ilə üz-üzədir. Aşotyan vurğulayıb ki, Avropa İttifaqı ilə yaxınlaşma əvvəlki hakimiyyətin siyasətinin nəticəsi idi və bu prosesdə əsas mərhələ 2017-ci il noyabrın 24-də Brüsseldə Hərtərəfli və Genişləndirilmiş Tərəfdaşlıq Sazişinin imzalanması olub. Onun fikrincə, həmin sənəd Ermənistanın Avropa standartlarına yaxınlaşması üçün əsas olmalı idi, lakin bu potensial reallaşdırılmayıb. Aşotyan qeyd edib ki, bu saziş hazırda Avropa dəyərlərinin təhrif olunmuş şəkildə tətbiqinin və baş tutmayan islahatların göstəricisi kimi qalır. O hesab edir ki, 2018-ci ildən sonra Nikol Paşinyanın siyasəti Avropa dəyərlərinin zəifləməsinə gətirib çıxarıb və onun fikrincə, Aİ ölkələrindən heç biri belə idarəetməyə dözməzdi.

Politoloq Akop Badalyan isə Fransa Prezidenti Emmanuel Makronun "8 il əvvəl Avropa liderlərindən heç biri Ermənistana gəlməzdi" sözlərini aşıq-aşkar yalan adlandırıb. Guya, Makron bununla Nikol Paşinyanın hakimiyyətə gəlməsindən əvvəlki dövrü nəzərdə tutub.

Analitik paylaşımında xatırladıb ki, 8 il əvvəl Ermənistanda Beynəlxalq Frankofoniya sammiti keçirilib və həmin tədbirdə E.Makron da iştirak edib, bu isə 2018-ci ildən xeyli əvvəl planlaşdırılmışdı. Həmin ilin yayında isə İrəvana o vaxtkı Almaniya kansleri Angela Merkel səfər edib və bu səfər də əvvəlcədən razılaşdırılmış proqram əsasında baş tutub. Badalyan qeyd edib ki, 2018-ci ilə qədər Ermənistanı bir çox ölkələrin liderləri, o cümlədən Avropa dövlətlərinin rəhbərləri ziyarət edib, ölkədə beynəlxalq təlimlər, o cümlədən NATO ilə bağlı proqramlar həyata keçirilib və Ermənistan beynəlxalq siyasi proseslərin tərkib hissəsi olub.

Göründüyü kimi, ASB-nin İrəvan sammiti ilə bağlı Ermənistanda vahid yanaşma formalaşmayıb. Hakimiyyətə yaxın dairələr bunu beynəlxalq inteqrasiya imkanı kimi təqdim edir, müxalif və tənqidi mövqedə olanlar isə simvolik və nəticəsiz proses kimi dəyərləndirir. Siyasi ekspertlər arasında da həm perspektiv imkanlar, həm də məhdudiyyətlər barədə fərqli baxışlar mövcuddur. Ümumilikdə isə müzakirələr ölkənin xarici siyasət xətti ətrafında mövcud fikir ayrılıqlarını bir daha ortaya çıxarır.

***S.NAZİMOĞLU***
***XQ***

**Uzun illərdir Ermənistanda və Rusiyada fəaliyyət göstərən "Taşir" şirkətlər qrupunun prezidenti və təsisçisi, rusiyalı oliqarx Samvel Karapetyan biznes dünyasında tanınan bir addır. 1965-ci ildə Ermənistan SSR-in Kalinino rayonunda (hazırkı adı Taşir) anadan olmuş S.Karapetyan Rusiyada böyük sərvət qazanmış, müxtəlif sahələrdə fəaliyyət göstərmiş bir milyarderdir. "Forbes" jurnalının 2025-ci ilin fevral ayına olan məlumatına görə, o, təxminən 4,5 milyard dollar sərvəti ilə dünyanın ən varlı insanları arasında 1102-ci yerdə idi.**

# Karapetyan seçkilərə də qazanc gözü ilə baxır

## "Güclü Ermənistan"ın hədəfi 1 oliqarxı gücləndirməkdir

İndi isə Samvel Sarkisoviç özünü siyasətə sınamaq qərarına gəlib. "Güclü Ermənistan" adlı partiya yaradaraq iyunun 7-də ölkədə keçiriləcək növbəti parlament seçkilərində iştirak etmək istəyir. Məqsədi Ermənistanın növbəti baş naziri olmaqdır. Əlbəttə, hər bir şəxsin seçmək və seçilmək hüququ var. Bu baxımdan Karapetyanın qərarı ilk baxışdan adi prosedur kimi görünə bilər. Amma məsələ bir qədər dərinə gedəndə fərqli mənzərə ortaya çıxır.

İlk növbədə qeyd etmək lazımdır ki, Karapetyanın siyasətə yanaşması Ermənistan vətəndaşlarında və ölkədən kənarda bir çox insanlarda suallar yaradır. Çünki o, bu prosesi də biznes layihəsi kimi görür. Aydındır ki, biznesdə əsas məqsəd qazanc əldə etmək, siyasətdə isə xalqın etimadını qazanmaq, özünün ideyalarını həyata keçirmək yolu ilə ölkəyə xidmət etmək, dövlətinin gücünü, qüdrətini artırmaq, vətəndaşların rifah halını yaxşılaşdırmaq olmalıdır. Bu iki yanaşma arasında ciddi fərqlər var. Əgər siyasət pul üzərində qurularsa, o zaman insanların səsi deyil, pulun gücü ön plana çıxır. Karapetyan özünün düşüncə tərzinə sadiq qalaraq seçkilərə də biznes-plan kimi baxır. Seçiciləri pulla ələ almağa çalışır.

Son günlər bu istiqamətdə baş verən hadisələr Karapetyanı real təhlükə kimi görən Ermənistan vətəndaşları arasında narahatlıqları daha da artırır. Aprelin 29-da Ermənistanın hüquq-mühafizə orqanlarının əməkdaşları "Güclü Ermənistan"ın qərargahında axtarış aparıb. Bu xəbər cəmiyyətdə geniş müzakirələrə səbəb olub. Korrupsiyaya Qarşı Mübarizə Komitəsi açıqlama yayaraq bildirib ki, seçicilərə rüşvət vermək ittihamı ilə cinayət işi açılıb. Bu iş çərçivəsində bir qrup şəxs saxlanılıb. Komitə əlavə məlumatların daha sonra veriləcəyini də qeyd edib.



Medianın yaydığı məlumatlara görə, axtarışlar təkcə partiyanın qərargahı ilə məhdudlaşmayıb. Hüquq-mühafizə orqanlarının əməkdaşları S. Karapetyanın İrəvanın Avan inzibati rayonundakı ofisində də axtarış aparıblar. Orada da həbslərin həyata keçirildiyi bildirilir.

Korrupsiyaya Qarşı Mübarizə Komitəsi açıqlamasında qeyd edib ki, saxlanılan şəxslər seçkiqabağı rüşvətin verilməsi ilə bağlı ittiham olunurlar. Bundan əlavə, xeyriyyə adı altında edilən ianələrin qadağan olunmuş qaydada istifadə edilməsi də araşdırılır. Bu isə o deməkdir ki, bəzi yardımların arxasında başqa məqsədlər ola bilər. İnsanlara kömək adı ilə verilən pulların əslində onların səsini almaq üçün istifadə edildiyi iddia olunur. Qeyd etdiyimiz kimi, bu xəbərlər erməni seçicisinin narahatlığını daha da artırıb. Çünki söhbət artıq sadəcə iddialardan yox, real addımlardan gedir. Ümumiyyətlə, bu cür hallar cəmiyyət üçün çox həssas mövzudur. Çünki seçkilər sadəcə səsvermə deyil. Bu, insanların gələcəyini müəyyən edən bir prosesdir. Əgər bu prosesdə pul əsas rol oynayırsa, o zaman seçicilərin iradəsinin azad şəkildə ifadə olunması, prosesin, ədalətli və şəffaf keçirilməsi sual altına düşür. İnsanlar seçimlərini sərbəst şəkildə etməlidir. Onların qərarına təsir etmək üçün puldan istifadə edilməsi heç bir halda doğru yanaşma sayıla bilməz.

*

Bir sıra siyasi ekspertlər bu fikirlər həmrəydirlər ki, böyük sərvəti olan şəxslər siyasətə gəlişi həm üstünlük, həm də risklər yaradır. Üstünlük ondadır ki, belə şəxslərin imkanları geniş olur. Onlar layihələr həyata keçirə, investisiya cəlb edə bilirlər. Amma risk də az deyil. Əgər bu imkanlar düzgün istifadə olunmazsa, bu, ədalətsizliyə gətirib çıxara bilər. Karapetyanın nümunəsində də məhz bu suallar gündəmdədir. O, doğrudanmı ölkəyə xidmət etmək istəyir, yoxsa siyasəti yeni bir qazanc sahəsi kimi görür? **Politoloq, İrəvandakı "Politekonomiya" tədqiqat institutunun siyasi şərhçi Beniamin Matevosyan** bu sualın cavabının hələ tam aydın olmadığını düşünür. Onun sözlərinə görə, baş verən son hadisələr bu mövzunun daha diqqətlə



izlənilməsinə səbəb olur: "Erməni cəmiyyəti üçün ən vacib olan şəffaflıqdır. İnsanlar baş verənləri açıq şəkildə görmək və başa düşmək istəyirlər. Kim nə edir, hansı məqsədlə edir – bunlar gizli qalmamalıdır. Əks halda, etimad itir. Etimad isə hər şeydən önəmlidir. Bu hadisələr bir daha göstərir ki, seçki prosesi çox həssasdır. Burada hər addım diqqətlə atılmalıdır. Qanunlar hamı üçün eyni olmalıdır. Kim olmasından asılı olmayaraq, qaydaları pozan hər kəs məsuliyyət daşımalıdır. Yalnız bu halda insanlar öz səslərinin dəyərli olduğunu hiss edər".

Politoloq hesab edir ki, nəticədə, S.Karapetyanın siyasətə gəlişi sadəcə bir şəxsin qərarı kimi qalmır: "Bu, daha geniş müzakirələrin başlanğıcı olur. Pul və siyasət münasibəti, seçkilərin ədalətliliyi, insanların iradəsi – bütün bunlar bu mövzuda bir araya gəlir. Seçicilər isə sadə bir şey istəyir: ədalətli seçim və dürüst yanaşma. Bu istək isə hər şeydən daha önəmlidir".

*

Onu da bildirək ki, Karapetyan hazırda ev dustaqlığındadır. Bir neçə gün öncə Antikorrupsiya Məhkəməsi onun ev dustaqlığının müddətini daha 3 ay uzadıb. O, vergidən yayınmada, çirkli pulların yuyulmasında, xüsusilə iri məbləğdə əmlakın mənimsənilməsində, eləcə də hakimiyyətin ələ keçirilməsinə açıq çağırışlarda ittiham olunur. Karapetyan ötən ilin dekabrında barəsində seçilmiş həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəzlənməsi üçün 10 milyon dollardan çox məbləğdə girov ödəmişdi. Dünən bu iş üzrə növbəti məhkəmə iclası keçirilib.

Məhkəmə iclasından əvvəl Karapetyan jurnalistlərin suallarını cavablandırıb. O, tərəfdarlarının həbsi məsələsinə də toxunub. Karapetyan tərəfdarlarının həbsi və saxlanılmasına baxmayaraq, qarşıdan gələn seçkilərdə komandasının qələbə qazanacağına əmin olduğunu bildirib: "Onlar axırda öz adamlarını belə həbs etməyə başlayacaqlar. Onlar sayca bizdən azdırlar. Ona görə də biz istənilən halda qalib gələcəyik".

Karapetyan Rusiya və Fransada mümkün problemlər, hətta müflisləşmə təhlükəsi ilə bağlı səslənən iddialara münasibət bildirərkən bunu gülümsəyərək qarşılayıb. Onun sözlərinə görə, bu cür fikirlər Ermənistanın baş naziri Nikol Paşinyanın "fantaziyaları və xəyallarıdır" və ciddi yanaşmaya layiq deyil. "Güclü Ermənistan"ın lideri ölkənin üzləşdiyi təhdidlər fonunda (?) siyasətlə məşğul olmaq qərarına gəldiyini də vurğulayıb: "Əlbəttə, əgər cinayət təqibi, həmçinin son bir ildə Paşinyanın xaotik addımları, həm insanlara, həm də milli kimliyə yönələn hücumlar olmasaydı, mən siyasi fəaliyyət haqqında düşünməzdim. Amma söhbət Ermənistanın itirilməsi riskindən gedəndə, şəxsi planlar və rahat həyat istəyi ikinci plana keçir".

Karapetyanın bu açıqlaması da, digərləri kimi, daha çox özünü haqlı göstərmək cəhdinə bənzəyir, nəinki səmimi mövqeyə. O, siyasətə gəlişini şəxsi problemləri ilə yox, ölkə üçün təhlükə ilə əsaslandırır. "Milli kimliyə hücum" kimi ümumi və sübut olunmayan ifadələr sadəcə emosiyaya hesablanıb. Əgər vəziyyət doğrudan da bu qədər ciddidirsə, bunu konkret faktlarla izah etmək lazımdır, şüarlarla yox. Üstəlik, milyarder bir şəxsin "rahat həyatdan imtina" deməsi inandırıcı səslənmir və daha çox populizm təsiri bağışlayır.

***Səxavət HƏMİD***
***XQ***

# Qazançı kilsəsi ruslarındır, yoxsa ermənilərin?

**(əvvəli 1-ci səhifədə)**

Bu günlərdə Azərbaycanda akkreditə olunmuş diplomatik korpus nümayəndələrinin Şuşaya səfəri çərçivəsində məhz bu kilsəni ziyarət etməsi təsadüfi deyildir. Beynəlxalq diplomatlar abidə ilə yaxından tanış olarkən, Azərbaycan dövlətinin çoxkonfessiyalı irsin qorunması və bərpası istiqamətində həyata keçirdiyi sistemli fəaliyyəti yerində müşahidə ediblər. Səfər zamanı Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev qonaqlara kilsənin tarixi və hazırda davam edən bərpa işləri barədə geniş məlumat verib. Vurğulanıb ki, bərpa prosesində əsas hədəf abidəni hər hansı kənar müdaxilə olmadan ilkin memarlıq simasına qaytarmaq və yenidən insanların istifadəsinə verməkdir.



Mədəni irsə bu cür yanaşma Azərbaycanın beynəlxalq hüquqa, bəşəri dəyərlərə və multikulturalizm prinsiplərinə sadiqliyini nümayiş etdirir. Ölkəmiz üçün həm milli-mədəni abidələrin, həm də digər xalqlara və dinlərə məxsus tarixi yerlərin bərpası eyni dərəcədə əhəmiyyətlidir. İşğaldan azad edilmiş bütün ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri göstərir ki, Azərbaycan mədəni irsi yalnız bir xalqın kimliyi kimi deyil, həm də ümumbəşəri dəyər kimi qiymətləndirir. Bu siyasət çərçivəsində abidələr etnik və ya dini mənsubiyyətinə görə heç vaxt fərqləndirilmir. Əksinə, tarixən mövcud olmuş bütün mədəni izlər mühafizə olunur.

Həyata keçirilən bu sistemli siyasətin ən vacib tərəfi isə mədəni irsin siyasiləşdirilməsindən uzaq durması və abidələrin ilkin formasına qaytarılmasıdır. Bu yanaşma Ermənistan təbliğat maşınının Şuşada guya "erməni kilsəsinin dağıdılması" barədə yaydığı iddiaların əsassız olduğunu sübut edir.

**AMEA-nın Tarix və Etnologiya İnstitutunun mütəxəssisi Faiq İsmayılovun** araşdırmaları göstərir



ki, Şuşada erməni kilsələrinin mövcudluğu ilə bağlı iddialar əsasən XIX əsrdə baş verən proseslərdən qaynaqlanır. Qarabağ xanlığının Rusiya tərəfindən ləğvindən sonra Şuşada hərbi idarəetmə qurulub və burada yerləşdirilən rus ordusunun dini ehtiyacları üçün əvvəlcə müvəqqəti ibadət şəraiti yaradılıb. Şəhərdə daimi kilsə tikintisinə dair qərar da məhz həmin dövrə təsadüf edir. Mütəxəssis qeyd edir ki, kilsənin inşasına başlanarkən Şuşada xristian əhali, demək olar ki, yox idi və yerli müsəlman əhali bu tikintidə iştirak etmirdi.

Məhz kadr ehtiyacını qarşılamaq üçün Naxçıvanın Culfa rayonunun Qazançı kəndindən erməni bənnalar və işçi qüvvəsi Şuşaya gətirilib, 1887-ci ildə kilsənin inşası tamamlanıb. Gətirilən işçilərin bir hissəsi sonradan şəhərdə qalaraq kilsə ətrafında məskunlaşıb, həmin ərazi "Qazançı məhəlləsi", ibadətgah isə inşaatçıların gəldiyi yerə görə "Qazançı kilsəsi" kimi tanınıb. Sonrakı dövrlərdə çar Rusiyası ordusunun şəhəri tərk etməsindən istifadə edən ermənilər bu kilsəni mənimsəyib və abidənin memarlıq quruluşuna kənar elementlər əlavə ediblər.

Hazırda aparılan restavrasiya işləri kilsəni sonradan əlavə edilmiş kənar müdaxilələrdən təmizləyərək ilkin formasına qaytarır. Burada əsas hədəf hər hansı tarixi hekayəni süni şəkildə dəyişdirmək deyil, mövcud reallıqları elmi dürüstlüklə bərpa edərək gələcək nəsillərə ötürməkdir. Atılan bu addımlar Azərbaycanın regionda mədəni davamlılığı təmin edən, sülh və birgəyaşayış dəyərlərini rəhbər tutan müasir dövlət modelini bir daha təsdiqləyir.

Şuşa Qlobal Media Forumunda iştirak edən beynəlxalq ekspertlərin, o cümlədən "Economyfirst Limited London" şirkətinin direktoru Klaus Jürgensin Qazançı kilsəsinin bərpasını tolerantlığın müasir nümunəsi kimi qiymətləndirməsi bu yanaşmanın beynəlxalq səviyyədə qəbul olunduğunu göstərir. Onun sözlərinə görə, Azərbaycanın seçdiyi yol dağıtmaq deyil, qorumaq və bərpa etməkdir ki, bu da yüksək humanizm göstəricisidir: "Bu məsələlərə hörmətlə yanaşmaq çox gözəl ideyadır, düzünü desəm, çox təsirləndim".

Şübhəsiz ki, diplomatik korpus nümayəndələrinin azad edilmiş ərazilərə səfərləri Azərbaycanın bu sahədə fəaliyyətinə beynəlxalq diqqətin artdığını təsdiqləyir. Moldovanın Azərbaycandakı səfiri Aleksandr Esaulenkonun fikirləri bu baxımdan xüsusi əhəmiyyət daşıyır. O bildirib ki, Qarabağda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, yolların, tunellərin və digər infrastruktur layihələrinin icrası böyük təəssürat yaradır. Səfir Azərbaycan rəhbərliyinin məcburi köçkünlərin qayıdışına və bölgənin bərpasına göstərdiyi həssas yanaşmanı yüksək qiymətləndirib. Eyni zamanda, o, Şuşada tikilən yeni məscidi və onun 70 metr hündürlüyündə minarələrini şəhərin memarlıq incilərindən biri kimi dəyərləndirib. Səfir Qazançı kilsəsində aparılan bərpa işlərini isə xüsusi vurğulayaraq abidənin əvvəlki vəziyyətindən daha yüksək səviyyədə bərpa olunduğunu qeyd edib. Bu, Azərbaycan dövlətinin mədəni irsə münasibətinin bariz nümunəsi kimi təqdim olunub.

Bunun əksinə olaraq, Ermənistanın işğal dövründə Azərbaycan ərazilərində törətdiyi vandallıq mədəni irsə münasibətdə tamamilə fərqli və dağıdıcı bir yanaşmanı ortaya qoyub. Uzun illər ərzində yüzlərlə məscid, qəbiristanlıq və tarixi abidə ya dağıdılıb, ya da məqsədli şəkildə təyinatından kənar istifadə olunub. Məscidlərin təhqir edilməsi, dini obyektlərin heyvandarlıq üçün istifadəsi və tarixi memarlıq nümunələrinin məhv edilməsi faktları mədəni vandalizmin açıq təzahürü kimi qiymətləndirilir. Eyni zamanda, bəzi qədim Alban xristian abidələrinin memarlıq xüsusiyyətlərinin dəyişdirilməsi və onların tarixi kimliyinin təhrif edilməsi cəhdləri də mədəni irsin saxtalaşdırılması istiqamətində aparılan siyasətin bir hissəsi olub.

Bu iki yanaşma arasında kəskin ziddiyyət mövcuddur: Azərbaycan qoruma və bərpa siyasəti yürüdür, Ermənistan isə işğal dövründə daha çox məhvetmə və dəyişdirmə praktikasına üstünlük verib. Bu fərq yalnız texniki və ya memarlıq səviyyəsində deyil, həm də siyasi və ideoloji cəbhədə özünü göstərir.

**Milli Məclisin deputatı Ceyhun Məmmədov** mətubata bildirib ki, müasir dövrdə qarşıda duran əsas



vəzifə bu zəngin irsi daha dərindən öyrənmək, qoruyub saxlamaq və gələcək nəsillərə ötürməkdir: "Yuxarıda qeyd olunanlara istinad edərək deyə bilərik ki, tolerantlıq Azərbaycanın dünya xalqlarına nümunə göstəriləcək milli-mənəvi sərvətidir. Azərbaycan xalqı özünün tolerantlıq ənənələrini bundan sonra da qoruyub saxlayaraq gələcək nəsillərə çatdıracaq və bu ənənənin zəifldilməsinə yönələn bütün cəhdlərin qarşısını qətiyyətlə alacaq".

Beləliklə, Qazançı kilsəsinin bərpası Azərbaycanın mədəni irs siyasətinin rəmzi ifadəsidir. Bu siyasət tolerantlıq, multikulturalizm və tarixi ədalət prinsiplərinə əsaslanır və beynəlxalq səviyyədə müsbət qiymətləndirilir. Ermənistanın işğal dövründə həyata keçirdiyi dağıdıcı fəaliyyətlərlə müqayisədə Azərbaycanın seçdiyi yol mədəniyyətin qorunması və sivilizasiyalararası dialoqun inkişafı baxımından daha dayanıqlı və humanist model kimi çıxış edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

*XQ-nin "Debat" layihəsi*

# Azərbaycan dövlətinin müstəqil siyasəti xalqımıza uğurlar qazandırıb

*Qonağımız Xəzər Universitetinin professoru, beynəlxalq münasibətlər üzrə tanınmış politoloq Ramiz Yunusdur*

**Baş redaktor Əflatun Amaşov, baş redaktorun müavini Tahir Aydınoğlu, informasiya və multimedia şöbəsinin müdiri Səbuhi Məmmədovun iştirak etdiyi ilk debatda müsahibimizlə dünyada gedən geosiyasi proseslər, XXI əsrin çağırışları, imperialist Şimal və teokratik Cənub arasında yerləşən Azərbaycanın indiki böhranlı dönəmdə üzləşə biləcəyi risklər, Avroparlamentin Cənubi Qafqazı yenidən münaqişə poliqonuna çevirməyə yönəlik fəaliyyəti, erməni lobbizmi, informasiyanın cəmiyyətlərə ideoloji təsiri və digər mövzular ətrafında söhbət etdik.**

**– Ramiz müəllim, söhbətimizə yaxın tarixə ötəri nəzər yetirməklə başlamaq istərdik. SSRİ dağılandan sonra imperiya zəncirindən azad olmuş müstəqil respublikalar "demokratiyanın beşiyi", "azad insan cəmiyyəti" kimi baxdıqları Qərbin bu dəyərlərinin tezliklə öz ölkələrində formalaşmasını arzulayırdılar. Sonra məlum oldu ki, Qərb bu dəyərləri artıq iqtisadi maraqlara, korporativ mənafelərə dəyişib. Postsovet məkanına demokratik islahatlara yardım adı altında yeridilən "yumşaq güc"ün fəsadları göz qabağındadır.**



– Tarix boyu güc sahibləri etnik və dini dəyərləri əlində bayraq ediblər. XX əsrdə isə demokratiyanı ortaya atıblar. Amma burada söhbət liberal demokratiyadan gedir. Bundan yaxşısını hələ icad edən olmayıb. Nə yazıq ki, bu dəyər artıq çağdaş dövrün tələblərinə cavab vermir. Azərbaycan son 35 ildə Qərbin "yumşaq güc"ünü davamlı olaraq öz üzərində hiss edib. Belə dəyərdim ki, ideoloji şüar işğalı tanklardan, raketlərdən də qorxuludur. Biz bu işğalı uzun müddət həm Şimaldan, həm də Cənubdan müşahidə etmişik.

Qərbin liberal dəyərləri isə aldadıcı cəlbediciliyi ilə neçə-neçə azadlıq mücahidinin, milli liderin "başını yeyib". Şəxsən tanıdığım Mixeil Saakaşvili indi haradadır? – Həbsxanada. Dünən onun arxasında duranlar bu gün taleyinə biganədirlər. Postsovet məkanında onun kimi Qərb dəyərləri uğrunda mübarizə aparan ikinci şəxs yoxdur. Gürcüstanı dedik, bəs Moldova, Ukrayna bu gün hansı vəziyyətdədir – parçalanmış və qan içində.

"Yumşaq güc"ün gətirdiyi adı gözəl, mahiyyəti isə saxta dəyərlər yalnız fəsadlarla müşayiət olunur. Qərb özü bu dəyərlərdən imtina edib. İndi bu dəyərləri "logistika", "süni intellekt uğrunda mübarizə" əvəz edir. Çin və Amerika bu layihələrə trilyonlarla dollar sərmayəni əbəs yerə qoymur. Amma onu da deyim ki, "yumşaq güc"ün təsiri hələ aradan qalxmayıb.

Qorunmaq üçün ona sistemli təsir mexanizmləri formalaşdırmaqla müqavimət göstərməliyik. Özümüzə sual verək: Azərbaycan dediyimiz sistemli müqavimət mexanizmini qura bilibmi? Səmimi və düzgün cavab "xeyr"dir. Madam ki, Cənubdan cəmiyyətimizə çeşidli üsullarla gələnlərin, Şimaldan SSRİ-nin nostalji ilə yaşayanların "yumşaq güc"ləri aradan qalxmayıb, deməli, kimlərsə o gücün yaşamasında və fəaliyyətini davam etdirməsində maraqlıdır.

**– Bəli, Azərbaycan hazırda Şimaldan və Cənubdan informasiya basqısı altındadır. Son vaxtlar daha çox ideoloji narrativlərin ön plana çıxdığını müşahidə edirik. Həm bu amilin, həm də Yaxın Şərqdə davam edən müharibənin sülhə, əməkdaşlığa və sabitliyə sadiq qalan Azərbaycan üçün hansı riskləri var?**

– Bu, olduqca vacib məsələdir. Bəli, həm Şimaldan, həm də Cənubdan Azərbaycana qarşı informasiya maşınının tam gücü ilə işlədiyini görürük. Bölgənin 2 əsrlik tarixi xalqımızın üzləşdiyi ədalətsizliklə, çəkdiyi əzablarla, əvvəlcə ruslaşdırma, ardınca sovetləşdirmə siyasəti ilə müşayiət olunub. Son 35 ildə isə "yumşaq güc" işə salınıb. Əgər Şimal qonşumuz bu gücdən iqtisadi, mədəni əlaqələr, keçmişə nostalji üzərindən istifadə edirsə, Cənubdan cəmiyyətimizə güclü təsiri olan din amilini dövriyyəyə buraxıblar. Bu iki yad təmayüldən savayı, Qərbin saxta sol liberal ideologiyasının təsirini də unutmamalıyıq.

İlk 2 təmayülün qarşısını almaqdan ötrü bölgənin orqanizmindəki separatizm xəstəliyini tam müalicə etməli idik. 2 il 8 ay bundan əvvəl buna nail olduq. Əgər qanlı separatçı rejim Xankəndidə qalmış olsaydı, xəstəliyin müalicəsi uzun çəkəcəkdi. Bəli, biz Şimal qonşumuzun Qarabağdakı o virusu sonradan epidemiyaya çevirmək planını pozduq. Azərbaycan hakimiyyəti siyasi iradə və qətiyyət göstərdi, istənilən məqamda milli maraqları təmin etdi. Yəni sübut etdik ki, 30 il əvvəlki Azərbaycan artıq yoxdur, yeni, tam suveren və müstəqil dövlət var.

Amma Şimalda heç nə dəyişməyib, hələ də imperiya ambisiyalı siyasi rejim hakimiyyətdədir. Bu, iki ideologiyanın – imperiya ambisiyasının və milli müstəqillik mübarizəsinin savaşıdır. İran ətrafında baş verən hadisələrə gəldikdə isə deməliyik ki, 47 il hakimiyyətdə olan teokratik rejim həmişə anti-Azərbaycan mövqeyindən çıxış edib. Bunun aşkar göstəricisi kimi Qarabağda gedən iki müharibəni göstərə bilərik. Həmin müharibələrdə Tehranın özünü necə apardığını Azərbaycan vətəndaşları kimi, xaricdə yaşayan soydaşlarımız da çox yaxşı bilirlər.

Eyni tarixə, milli-mənəvi dəyərlərə malik olduğumuzu, bir dinə qulluq etdiyimizi deyən, dostluqdan və qardaşlıqdan danışan İran rejimi nəyə görə xristian-qriqorian erməniləri müdafiə edirdi? Əslində, bu, din deyil, tamamilə başqa amilə bağlı məsələdir. İki əsr bundan əvvəl Türkmənçay müqaviləsinin imzalandığı vaxtdan Cənub qonşumuz Azərbaycanda müstəqil dövlət olmasını istəməyib.

Postsovet məkanında yaşadığımıza görə 35 il əvvələ qədər Şimalın informasiya siyasətinin təsiri altında olmuşuq. Bəli, ideoloji amil, xüsusilə informasiya savaşı gündəmin ən aktual mövzularından olmalıdır. Gündəmi isə tariximizə, milli mücahidlərimizə, görkəmli şəxsiyyətlərimizə aid, eləcə də düşmənlərin məkrli planlarının fakt və sübutlarla ifşa edən maarifləndirici əsərlərlə – dərsliklər, ədəbiyyat, filmlər, müasir texnologiyaların köməyilə yaradılan vizual təşviqat vasitələrilə zənginləşdirməliyik.

**– Ötən ilin avqustunda Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh müqaviləsi paraflandı və Prezident Donald Tramp özünün yol xəritəsini ortaya qoydu. Bundan sonra sülh gündəminin inkişaf etdirilməsi, ikitərəfli münasibətlərin normallaşdırılması yönündə konkret addımlar atıldı. Lakin ermənipərəst "kollektiv Qərb", xüsusilə ABŞ-dakı erməni lobbisi hər vəchlə bu prosesi tormozlamağa çalışır. Nyu-Yorkun meri Mandami olayı, onun qərəzli və yanlış narrativi gündəmə gətirmək cəhdi bunun bariz nümunəsisir. Sizcə, bu qüvvələrin, erməni lobbisinin anti-Azərbaycan fəaliyyətinin qarşısını hansı forma və üsullarla almaq mümkündür?**

– Amerikada lobbizm qanunla icazə verilən fəaliyyət növüdür. Belə bir kəlam var: pulla edə bilmədiyini daha böyük pulla qazanmaq mümkündür. Buna Amerikanın timsalında baxaq. Avqustun 8-də Donald Trampın dəyirmi kabinetində baş verənlər Azərbaycanın sülhə doğru düzgün istiqamətdə irəlilədiyinin göstəricisidir. Deməli, bizim diplomatik maşınımız qonşularımızın xarici siyasət mexanizmlərindən daha çevik və məqsədyönlü işləyir. Üstəlik, ermənilər özlərinin siyasi və maliyyə imkanları ilə, tarixən bu coğrafiyada dominantlıq ediblər. O cümlədən Konqresin divarları arasındakı fəaliyyətləri ilə.

Amma sülh və əməkdaşlıq xəttini yürüdən Bakı Nikol Paşinyanın həmin dəyirmi kabinetə gətirilməsinə nail oldu. Bu da bizim düzgün lobbi fəaliyyətimizin nəticəsidir. Həmin üsulu Mandamiyə və onun kimilərə də tətbiq etmək mümkündür. Əgər qanun buna yol verirsə, Ağ Evin indiki administrasiyasının yaratdığı bu hüquqi imkan pəncərəsindən maksimum yararlanmaq lazımdır.

Təsəvvür edin: biz Tramp layihəsi deyilən Zəngəzur dəhlizinin reallaşmasına nail olsaq və bu, ABŞ Prezidentinin Nobel mükafatına layiq görülməsi ilə yekunlaşsa, onda Ağ Evin bundan sonrakı administrasiyaları "dəmir-beton" fakt qarşısında qalacaq. Elə bunun özü lobbizm amilindən məqsədyönlü və mütəmadi surətdə istifadə etməyin bəhrəsi sayılacaq.

Onu da deyim ki, bu amili Azərbaycanın Avropadakı strateji müttəfiqlərinin, beyin mərkəzlərinin əli ilə işlək mexanizmə çevirmək mümkündür. Bakı özünün enerji potensialı, iqtisadi və digər imkanları ilə qərbli partnyorlarına nə qədər çox təzyiq və təsir göstərərsə, bu zaman onların Azərbaycana marağı artacaq, bizim isə mövqeyimiz güclənəcək. Məhz belə çoxvektorlu diplomatik metodlarla erməniпərəst "kollektiv Qərb"in ölkəmizə qarşı ideoloji hücumlarını neytrallaşdıra bilərik.

**– Azərbaycan Avropa Parlamenti ilə əməkdaşlığa son verdi. Milli Məclis bununla bağlı Konstitusiyaya istinadla xüsusi qərar qəbul etdi. Bakının Moskva ilə münasibətləri tam normallaşmamış, Brüssellə əməkdaşlıqda da sərinlik dövrü başladı. Sizcə, bu durumun ölkəmiz üçün müsbət və mənfiləri nədir?**

– Şahmat təbiri ilə desək, biz bu gün ağ fiqurlarla oynayırıq. Bu oyun Avropa İttifaqı, NATO və digər platformalarda gedir. Bu müstəvidə açılan imkan pəncərəsi isə Azərbaycandan daha çox Qərbin özünə lazımdır. Avropanın siyasi strukturları isə, xüsusilə Avroparlamentin timsalında anti-Azərbaycan platformasında, ilk növbədə, Ermənistana zərər verir. Çünki bölgədə status-kvonu dəyişən Azərbaycan bu gün Ermənistanın daxili ictimai-siyasi vəziyyətinə təsir göstərmək iqtidarındadır.

Bir aydan sonra orada ermənilər üçün taleyüklü, tarixi seçkilər keçiriləcək. Seçim isə belədir: sülh, yoxsa müharibə? Məlumdur ki, daxildəki revanşist qüvvələr kənardan – Rusiyadan, Avropadan, Amerikadan dəstəklənirlər. Bu qüvvələr fəaliyyətlərini 20–30 il əvvəlki istiqamətdə yenə davam etdirirlər. Bəs Azərbaycan buna necə reaksiya verməlidir? Düşünürəm ki, mövqeyi getdikcə güclənən Azərbaycan Avropanın ölkəmizə, bölgəyə qərəzli yanaşma sərgiləyən bütün siyasi-hüquqi təsisatlarına qarşı özünün təsir üsullarını işə salmalıdır.

Milli Məclis Avropa Parlamentinin məlum bəyanatına "güzgü effekti" ilə çox düzgün və kəsərli cavab verdi. Yəni Avropa ilə münasibətlərimizdə də bu pəncərədən boylanan təsir imkanlarımızdan maksimum istifadə etməyə çalışmalıyıq. Bəli, Fransanın dirijorluq etdiyi "benilüks" (Belçika, Niderland, Lüksemburq – red.) ölkələri Avropa Parlamentində daim anti-Azərbaycan mövqeləri ilə seçiliblər. Məhz onlara və bu mövqeyi bölüşənlərə öz gücümüzü təsir imkanlarımızla göstərməliyik.

Əgər rəsmi Bakı Beynəlxalq Ədalət Məhkəməsinin sabiq prokuroru, erməni lobbisinin maraqlarına xidmət edən Okamponun layiqincə cəzalandırılmasına nail olubsa, deməli, Avropada anti-Azərbaycan platformalarına qarşı da eyni üsulla təsir göstərməlidir. Bu zaman əlavə təsir vasitəsi kimi sülh gündəliyini dəstəkləyən Paşinyan və onun komandasından da istifadə edə bilərik. Biri var həmin tribunalarda Azərbaycan rəsmiləri, QHT təmsilçiləri, bizim kimi politoloqlar sözlərini desinlər, bir də var bunlar Paşinyanın dilindən səslənsin.

Ermənistan rəhbəri desə ki, ay Brüssel, Azərbaycana qarşı qəbul etdiyiniz qətnaməniz regionda sülhə, sabitliyə təhdid yaradır, Ermənistanın da maraqlarına cavab vermir. Bir tərəfdən "Avropa Siyasi Birliyi"nin sammiti ilə mənim siyasətimi dəstəkləyir, digər tərəfdən isə ziyan vurursunuz. Onlara çatdırsa ki, bu siyasətinizlə bölgədə sülh gündəliyinə, müasir Ermənistanı qurmaq, yeni konstitusiyanı qəbul etmək planlarıma mane olursunuz, onda tam fərqli vəziyyət yaranar.

Digər tərəfdən isə dediyim kimi, Ermənistana, eyni zamanda, Qərbin siyasi və hüquqi institutlarına "qamçı və qoğal" üsulu ilə təsirimizi gücləndirməliyik. Bizim Türkiyə və Pakistan kimi strateji tərəfdaşlarımız var. Hətta İran ətrafında davam edən hərbi münaqişədə Azərbaycanın nüfuzu artmaqdadır. Yəni Bakı bu gün bölgənin və tərəfdaşlarımızın mövqeyindən çıxış etməklə, Qərbi bizim gündəliyi dəstəkləməyə məcbur etməlidir.

"Kollektiv Qərb" praqmatikdir. Ola bilsin ki, amerikalı kapitalistlərdən az praqmatikdirlər, amma gəlirlərini saymağı çox sevirlər. Bəli, onlar üçün elan etdikləri dəyərlərdən daha vacibi yaxşı pul qazanmaqdır.

**– Ukraynanın media məkanında çox məşhursunuz. İkinci Qarabağ müharibəsində qələbə qazanmış Azərbaycan modelini, iki ölkənin liderləri arasındakı səmimi münasibətləri postsovet məkanı üçün meyar adlandırmısınız. Ukraynanın Elmlər Akademiyası sizi Siyasi və Hüquq Elmləri Akademiyasının akademiki seçdi, diploma təltif etdi. Bu münasibətlə sizi təbrik edirik. Maraqlıdır ki, bu hadisə Ukrayna Prezidentinin Azərbaycana səfəri ilə üst-üstə düşdü...**

– Ondan başlayım ki, İkinci Qarabağ savaşında qələbə çalsaq da, Xankəndidə separatçı rejim qalırdı. Rusiya özünün sülhməramlı qüvvələrini orada yerləşdirmişdi. Axı biz bunun altniyyətini yaxşı bilirdik. Moskva həmin barıt çəlləyini qoruyub saxlamaqla, sabah separatizmi, "Miatsum"u yenidən gündəmə gətirməyi planlayırdı. Yəni qələbə sevincimiz yarımçıq idi. Bunun keçid mərhələsi üçün müvəqqəti oyun olduğunu bilənlərdən biri də mən idim. Rusiya Ukraynaya qarşı "xüsusi hərbi əməliyyatlara" başlayanda isə daha böyük informasiya məkanına daxil olmağı qərarlaşdırdım və bu cəbhədə fəaliyyətə başladım.

4 il bundan əvvəl Ukrayna media məkanında erməniпərəst diskurs güclü idi. Tək idim, amma ən böyük ideoloji dəstəyim müharibədən bir ay öncə – 2022-ci ilin yanvarında Azərbaycan Prezidentinin Kiyevə səfəri oldu. Ardınca dövlət başçımız Moskvaya getdi və bununla Azərbaycanın balanslı siyasətini təsdiqlədi. Bu, ortaya qoyulan siyasi mövqe idi. İnanın, bu səfərlər mənə əlavə stimul, güc verdi. Əvvəl tək idim, amma sonra bizim rusdilli peşəkar politoloqları bu platformaya cəlb etdim. 4 ildir ki, Ukrayna media məkanında, xüsusilə telekanallarda sözümüzü deyirik.

Ukraynaya dəstək məsələsində dövlət və xalq bir mövqedən çıxış edir. Əlimizdə bunu sübut edən kifayət qədər fakt var. Azərbaycanın bu ölkəyə humanitar yardımları, uşaqların Bakıda müalicəsi, bərpası və sonda Volodimir Zelenskinin Bakıya səfəri Azərbaycanın müstəqil iradəsini göstərir. Onun müharibə başlayandan MDB məkanında etdiyi ilk səfəri zamanı mən də təfadüfən Bakıda idim. O ki, qaldı Ukrayna Siyasi və Hüquq Elmləri Akademiyasının mənə akademik titulu verməsinə, bu, siyasi qərardır. Hesab edirəm ki, bu, təkcə mənim deyil, ölkəmizin, dövlətimizin uğurudur.

**– Rusiyanın imperiya təbliğatını ifşa edən məqalələr yazmısınız. "Rusiyasayağı demokratiya", "Kreml şüur savaşında..." yazılarınızda başqa ad altında SSRİ-nin bərpasına çalışanlara tutarlı cavablar vermisiniz. Doğrudanmı, Kremldə əyləşənlər totalitar rejimin bərpasının mümkünlüyünə inanırlar?**

– Bu, təkcə Kremldə əyləşən hakimiyyət təmsilçilərinin yox, rus elitasının problemidir. SSRİ dağıldı, Qorbaçov aşkarlıq, demokratiya şüarlarını ortaya atdı. Sonra hakimiyyətə gələn Yeltsin neylədi? – Qarabağda, Dnestryanıda, Abxaziya və Cənubi Osetiyada separatizmə şərait yaratdı. 2000-ci ildə Putin gəldi. Onların hamısını hakimiyyətə xüsusi xidmət orqanları gətirib. Bu xidmət çarizm dövründə də, SSRİ dönəmində də imperiyapərəst olub. İndikilər, sadəcə, Qorbaçov–Yeltsin idarəçiliyinə nisbətən daha təcrübəlidirlər. 25 ildən çoxdur ki, hakimiyyəti əllərində saxlayırlar. 2007-də Çeçenistan məsələsini həll etdikdən sonra daxildə sabitlik yaratdılar və imperiyaya rəğbət atmosferini formalaşdırdılar, ictimai şüurda bu meyilləri gücləndirməyə girişdilər. Təbliğatları isə sovet imperiyasının dəyərlərinə söykənir.

Sizə deyim ki, postsovet məkanında bu meyillər tam yox olmayıb. Avropanın siyasi isteblişmenti Moskva ilə alver etdi. Onları da enerji və pulla ələ aldılar. Keçdilər MDB ölkələrinə – Gürcüstana, daha sonra Ukraynaya. Amma Azərbaycanda bu plan alınmadı. Çünki Bakı 1994-dən etibarən özünün müstəqil siyasətini apardı. Bişkek protokolundan sonra "Əsrin müqaviləsi" imzalandı, maliyyə imkanları genişləndi, dövlət strukturları modernləşdi, ordumuz gücləndi. 2020-ci ildə istənilən nəticəni əldə etdik.

Moskva yenə belə hesab edir ki, Azərbaycan–Türkiyə tandemini özünə düşmən etməmək üçün, guya, Qarabağ məsələsində bizə güzəştə gedib. Amma onun bu oyunu da alınmadı. İmperiya düşüncəsinin yox olması üçün nəsil dəyişməlidir.

**– Bir aydan sonra Ermənistanda keçiriləcək parlament seçkilərinə ötəri toxundunuz. İndi isə bu seçkilərlə bağlı sizin ehtimallarınızı, proqnozlarınızı eşitmək istərdik.**

– Mən bu durumu da Azərbaycan üçün açılmış imkan pəncərəsi sanıram. Amma bu, heç də o demək deyil ki, bu pəncərə həmişə indiki kimi qalacaq. Hazırda Ermənistanda gedən siyasi proseslərə Azərbaycanın təsiri çox böyükdür. Orada sülh gündəminin tərəfdarı olan Paşinyanın komandası ilə yanaşı, revanşist qüvvələr də var. Məhz bu baxımdan qonşu ölkədə cərəyan edən hadisələri diqqətlə izləməliyik. Unutmamalıyıq ki, erməni cəmiyyətində sülhün əleyhinə köklənmiş kəsim də var. Böyük bir kəsim isə nə Paşinyanı dəstəkləyir, nə də müharibə istəyir.

Amma hazırda iki ölkənin hökumət rəsmilərinin görüşlərinin, vətəndaş cəmiyyəti nümayəndələri arasında davam edən təmasların baş nazirin mövqeyini gücləndirdiyini deyə bilərik.

Güman edirəm ki, Paşinyan bu seçkilərdə uğur qazanacaq, amma bu qələbədən sonra onu Ermənistan konstitusiyasında zəruri dəyişikliklə bağlı referendumun keçirilməsi, Rusiyanın mümkün təzyiqlərinə duruş gətirməsi kimi çətin sınaqlar gözləyir.

Yeri gəlmişkən, Sarkisyanı Koçaryanla əvəzləməsi Kremlin uğuru kimi qələmə verilir. Son rəy sorğuları göstərir ki, Moskvanın ssenarisi ilə Paşinyana qarşı formalaşdırılan bu yeni qüvvə kifayət qədər reytinqə malikdir və onun parlamentdə yer qazanmaq şansı artıb. Aydın məsələdir ki, Rusiya güclü iqtisadi təsirə, hərbi mövcudluğa malik olduğu Ermənistandan asanlıqla əl çəkməyəcək. Yəni Paşinyan hakimiyyətdə qalsa belə, Moskva öz planlarını kənara qoymayacaq. Çünki Kreml təkcə Ermənistana deyil, Azərbaycan daxil olmaqla, postsovet məkanındakı müstəqil respublikalara imperiya təfəkkürü ilə yanaşır.

Bu da reallıqdır ki, Ermənistandan, Gürcüstandan, Moldovadan, eləcə də Ukraynadan fərqli olaraq, Azərbaycan imperialist Şimalın caynağından qurtulmağı bacarıb. Regionun lideri, söz sahibi, sabit və davamlı inkişafda olan Azərbaycan özünün müstəqil siyasətini yürüdür. Amma qonşu ölkələrdə davam edən qeyri-sabitlik bölgənin ümumi mənzərəsinin tam qənaətbəxş olmadığını göstərir.

**– Ramiz müəllim, sonuncu sualımız söhbətimiz əsnasında yarandı. Bakıda orta və ali məktəbləri rus dilində oxumusunuz. Uzun müddətdir ABŞ-da yaşayır və işləyirsiniz, ingilis dilində danışığınız mükəmməldir. Ana dilində də səlis danışırsınız. Doğma dili bu səviyyədə necə qoruyub saxlamısınız?**

– Amerikada çalışdığım dairədə bir nəfər də olsun azərbaycanlı yoxdur. Ora getdiyim ilk gündən fikirləşirdim ki, doğma dilimi mütləq qoruyub saxlamalıyam. Sualınıza bir əhvalatla cavab vermək istəyirəm. Bakıya gələndə bir yerdə böyüdüyüm, indi də yaxın münasibətdə olduğum köhnə dostlarla mütləq görüşürəm. Həmin məclislərin birində mənə bu sualı böyük şairimiz Ramiz Rövşən verdi. Mən də dostuma tam səmimiyyətlə dedim ki, Ramiz, sənin şeirlərin mənə ana dilimizi unutmağıma imkan vermədi.

Şair cavabımdan heyrətləndi, az qala, kövrələcəkdi. Yəni Ramiz Rövşənin şeirlərini tam qavramaq, dərk etməkdən ötrü Azərbaycan dilini mükəmməl bilməlisən. Bilirsiniz, bu nəyə bənzəyir? "Bayatı-Şirazı", "Segah-Zabulu", "Qatarı" duymadan muğamı necə dinləyə və ondan zövq ala bilərsiniz?

Hər gün telekanallarımızı izləyirəm. Həm siyasi, həm sosial, həm də mədəniyyətimizlə bağlı proqramlara baxıram və bu yolla dili unutmamağa çalışıram. Dil millə kimliyin pasportu olaraq olduqca vacib amildir. Əgər sən Vətənini sevirsənsə, onun əşqi ilə yaşayırsansa, dilini itirməməlisən.

Bir neçə alim, ziyalı tanıyıram ki, cəmi 3-4 il xaricdə yaşayandan sonra ana dilini unudublar. Çox təəssüf! Amma hansısa xarici ölkənin Azərbaycandakı səfiri bizim dilimizdə danışanda qürurlanırsan. Ana dilimiz bizim mənəvi Vətənimiz, milli kimliyimizin aynasıdır. Bu aynada gərək olduğun kimi görünəsən.

**– Maraqlı cavablar üçün təşəkkür edirik.**



*Söhbəti yazdı:*
***İmran BƏDİRXANLI***
***XQ***

# Hörmüz blokadasından Avropaya dəyən zərbə

## Azərbaycanın qitənin enerji təhlükəsizliyində rolu artır

**Çexiyanın Baş naziri Andrey Babiş ölkəsinin TV Nova televiziya kanalına verdiyi müsahibədə Azərbaycana səfərindən danışıb. O bildirib: “Əlbəttə ki, Azərbaycanda söhbət qazdan gedirdi. İndi orada hər kəs növbədədir - hər kəsin qaza ehtiyacı var. Hörmüz boğazında nələrin baş verdiyini görürük”. Hökumət başçısı əlavə edib ki, Avropa asfalt, polistirol və plastikin neftdən, hətta gübrələrin də qazdan hazırlanmasına təəccüblənir.**

Qeyd edək ki, Hörmüz boğazı ətrafında yaranan hər hansı gərginlikdən ən çox təsirlənən regionlardan biri də Avropadır. Bu strateji keçidin bağlanması “qoca qitə” üçün həm birbaşa, həm də dolayı risklər formalaşdırır. Son illərdə Avropa enerji siyasətində ciddi transformasiya apararaq boru kəməri qazından daha çox LNG idxalına üstünlük verib. Xüsusilə Qətər kimi Körfəz ölkələrindən tədarük edilən mayeləşdirilmiş qazın əsas marşrutu məhz Hörmüz boğazından keçir. Bu marşrutun bloklanması qlobal LNG daşınmasını məhdudlaşdırmaqla yanaşı, qiymətlərin kəskin artımına da səbəb ola bilər.

Rusiya-Ukrayna müharibəsi başlamazdan əvvəl Rusiya Avropanın enerji bazarında əsas oyunçu hesab olunurdu. O dövrdə Rusiya Avropanın qaz idxalının təxminən 35–40 faizini təmin edir, bəzi illərdə isə bu göstərici daha da yüksək səviyyəyə qalxaraq qitənin enerji balansında həlledici rol oynayırdı. Xüsusilə boru kəmərləri vasitəsilə həyata keçirilən tədarük Rusiyanı Avropa üçün ən böyük və strateji təchizatçıya çevirirdi. Lakin müharibədən sonra yaranan geosiyasi gərginlik və enerji siyasətində baş verən kəskin dəyişikliklər nəticəsində bu asılılıq sürətlə azalmağa başladı.

Hazırkı mərhələdə Rusiyanın Avropa qaz bazarındakı payı təxminən 8–12 faiz səviyyəsinə enib. Bu azalma həm boru kəməri ixracının dayanması, həm də enerji mənbələrinin şaxələndirilməsi siyasətinin gücləndirilməsi ilə bağlıdır. Müharibədən sonra Avropa ölkələri Rusiya qazından asılılığı azaltmaq istiqamətində ardıcıl olaraq alternativ mənbələrə yönəlir. Mövcud şəraitdə Hörmüz boğazının bağlanması həmin alternativlərin bir qismini faktiki olaraq sıradan çıxarır. Belə bir geosiyasi və enerji konfiqurasiyasında Azərbaycanın rolu daha da aktuallaşır. Sabit və etibarlı təchizat marşrutu kimi çıxış edən Azərbaycan Avropanın enerji balansında strateji əhəmiyyətini artırmaqda davam edir.

edir. Statistikaya görə, Çexiyanın idxal etdiyi neftin təxminən 42 faizi Azərbaycanın payına düşür. Uzun illər ərzində formalaşmış bu əməkdaşlıq qarşılıqlı etimada əsaslanır və Azərbaycan nefti Çexiyanın enerji balansında mühüm yer tutur. Hazırda isə əməkdaşlığın yeni mərhələyə keçməsi ehtimalı güclənir. Söhbət təbii qaz sahəsində əməkdaşlığın genişləndirilməsindən gedir.



Məhz bu kontekstdə son dövrlərdə Avropa liderlərinin Azərbaycana artan marağı müşahidə olunur. Aprel ayında Litvanın Baş naziri, Ukrayna lideri, Latviya rəhbərliyi və Çexiyanın Baş nazirinin ardıcıl səfərləri Azərbaycanın geniş Avrasiya məkanında artan geoiqtisadi və enerji rolunun aydın göstəricisidir. Dövlət və hökumət başçılarının ölkəmizə üz tutmasında əsas motivin enerji gündəliyi olduğu açıq şəkildə görünür.

Bu sırada Andrey Babişin aprelin 27-də Azərbaycana səfəri xüsusi diqqət çəkir. Səfərin əsas gündəliyini enerji əməkdaşlığının genişləndirilməsi təşkil edirdi. Çexiya üçün enerji təhlükəsizliyi məsələsi o qədər prioritetdir ki, hökumət başçısının Avropa İttifaqından kənara ilk səfərini məhz Azərbaycana etməsi təsadüfi deyil.

Qeyd etmək lazımdır ki, Azərbaycan ilə Çexiya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir və əməkdaşlığın əsas sütununu energetika sektoru təşkil

### Ekspert rəyi



**Zəfər VƏLİYEV,**
**enerji məsələləri üzrə ekspert**

Neftin ağırlıq mərkəzi sayılan Yaxın Şərqdə geosiyasi vəziyyətin gərginləşməsi qarşılığında Hörmüz boğazı üzərindən ticarət axınlarının dayandırılması, enerji təchizatı, qiymətlər və qlobal iqtisadiyyat üzərində təzyiqi artıran kritik amil olaraq qalır. Bölgənin təchizat xəritəsi göstərir ki, Hörmüz boğazına alternativlər azdır və boğazın bağlanması ilə ticarət axınları kompensasiya edilə bilməyəcək.

Yaxın Şərqdən qaynaqlanan enerji böhranı istismarda olan ixrac güclərinin inkişafını, mənbələrin inkişafını və şaxələndirilməsini qaçılmaz etdi. Çünki Yaxın Şərq böhranı həm Fars körfəzində, həm də Qırmızı dənizin şərqində və qərbində təchizat zəncirinin davamlılığını təmin edən ixrac güclərini və mənbələri təhdid altına aldı. Cənub Qaz Dəhlizi və Bakı-Tbilisi-Ceyhan neft kəmərinin Azərbaycan və Xəzər regionu ölkələrinin karbohidrogen ehtiyatlarının qlobal enerji bazarlarına təhlükəsiz və etibarlı çatdırılmasında rolu və əhəmiyyəti böyükdür. Bu baxımdan Azərbaycan nefti və qazı hazırkı enerji böhranı qarşılığında asan əldə edilən neft və qaz kateqoriyasına aid edilir.

Azərbaycan artıq qlobal enerji bazarında etibarlı təchizatçı kimi mövqeyini möhkəmləndirib və bu, Avropa İttifaqı tərəfindən də açıq şəkildə etiraf olunur. Bu gün Azərbaycan qazı, ümumilikdə, 16 ölkəyə ixrac edilir ki, onlardan 10-u Avropa İttifaqının üzvüdür. Eyni zamanda, Azərbaycan Çexiyaya qonşu olan bir sıra Avropa ölkələrini də təbii qazla təmin edir. Bu amil yaxın perspektivdə Bakı ilə Praqa arasında qaz sahəsində birbaşa əməkdaşlığın formalaşması üçün əlverişli zəmin yaradır.

Andrey Babişin Azərbaycana səfəri çərçivəsində onu müşayiət edən nümayəndə heyətində ÇES kimi iri enerji şirkətinin yer alması da bu marağın əməli müstəvidə olduğunu göstərir.

Şirkətin Azərbaycanla qaz təchizatı sahəsində əməkdaşlığa və uzunmüddətli müqavilənin imzalanmasına maraq göstərdiyi bildirilir. Baş nazir qeyd edib ki, belə bir saziş reallaşacağı təqdirdə, Azərbaycan neftlə yanaşı, qaz sahəsində də Çexiya üçün faktiki strateji tərəfdaşa çevrilə bilər.

Eyni zamanda, Babiş Avropanın enerji təhlükəsizliyi ilə bağlı prinsipial mövqeyini də açıqlamışdı. Onun sözlərinə görə, qitənin qaz bazarında cəmi iki əsas təchizatçıdan asılı olması qənaətbəxş deyil və bu, ciddi risklər yaradır. Burada söhbət konkret olaraq Rusiya və Norveçdən gedir. Yuxarıda qeyd olunduğu kimi, Rusiya uzun illər Avropanın əsas boru kəməri qaz təchizatçısı olub. Norveç isə hazırda əsas alternativ və etibarlı mənbə kimi çıxış edir. Mövcud reallıqlar isə Avropa ölkələrini enerji mənbələrinin şaxələndirilməsi siyasətini daha da dərinləşdirməyə vadar edir.

***Musa BAĞIRLI***
***XQ***

**Dəyişən dünya nizamında Azərbaycanın tutduğu mövqe birbaşa Cənubi Qafqazın maraqlarını ifadə edən və hədəfləri müəyyənləşdirən amil kimi ön plana çıxır. Baş verənlər göstərir ki, ölkəmiz birtərəfli qaydada yox, regional həmrəylik şəraitində daha da uğurlu olmağı məqsəd kimi qarşıya qoyub.**

# Bakı–İrəvan marşrutunda “yaşıl” işıq

Əlbəttə, mövzu heç də təsadüfi deyil. Çünki qonşu Ermənistanda keçirilən “Avropa Siyasi Birliyi”nin 8-ci Zirvə toplantısına Prezident İlham Əliyevin videobağlantı formatında qatılması, iki ölkə arasındakı iqtisadi məsələlər ilə bağlı verdiyi açıqlamalar, bütün Avropaya Azərbaycanın əməkdaşlıq məkanı olması mesajını verdi. Ölkə başçısı bildirdi ki, indiyə qədər Ermənistana Azərbaycan ərazisi vasitəsilə 28 min ton yük çatdırılıb: “Azərbaycan hətta əlavə addımlar atdı. Biz ilk dəfə olaraq öz neft məhsullarımızı - benzin və dizeli Ermənistana təchiz etməyə başladıq. Beləliklə, ticarət münasibətləri başladı. Bu vaxta qədər 12 min ton neft məhsullarımız Ermənistana ixrac edilib”.

Ümumiyyətlə, ölkəmizin 1990-cı illərin əvvəllərindən bəri tətbiq etdiyi bütün tranzit məhdudiyyətlərini birtərəfli qaydada aradan qaldırması Cənubi Qafqazın geoiqtisadi mənzərəsini kökündən dəyişir. Bu kontekstdə Ermənistana enerji ixracının başlaması regionun “iqtisadi sülh” modelinə keçidinin ən mühüm göstəricisidir. İlk olaraq, enerji ixracı məsələsi Ermənistanın onilliklər boyu davam edən enerji izolyasiyasını qıraraq, onu regionun ümumi iqtisadi mühitinə inteqrasiya edir. Bu, xarici investorlar üçün regionun təhlükəsizlik mühiti baxımından önəmlidir və Cənubi Qafqazı münaqişə zonasından qlobal bir mərkəzə çevirir.

İki ölkə arasındakı iqtisadi münasibətlərin əvvəlki dövrü də vurğulanmalıdır. Tarixə nəzər saldıqda SSRİ dövründə qarşılıqlı mal dövriyyəsinin mövcud olduğu görünür. Bununla belə, həmin mərhələdə əlaqələr klassik hüm tərkib hissəsi kimi çıxış edir. İqtisadi əməkdaşlıq gələcəkdə daha geniş miqyas ala bilər. Həmçinin enerji tranziti məsələsi Ermənistan daxilində də hərəkətliliyə yol açır. Təsadüfi deyil ki, sözügedən ölkənin baş naziri Nikol Paşinyan hələ bir müddət əvvəl verdiyi açıqlamada demişdi ki, Azərbaycandan Ermənistana neft məhsullarının idxalı sayəsində ölkə vətəndaşları və sakinləri on milyardlarla qənaət ediblər.

Məhdudiyyətlərin qalxması Azərbaycanın regiondakı logistik üstünlüyünü də təsdiqləyir. Bu, Ermənistanın çıxılmaz vəziyyətdən xilas olaraq regional layihələrdə pay sahibinə çevrilməsi deməkdir ki, bu da birbaşa regionun sosial-iqtisadi dirçəlişinə xidmət edir. Ölkə başçımızın öz nitqində vurğuladığı digər məqam da məhz bununla bağlı idi: “Sülh sahəsində digər nailiyyət bağlantılardır. “Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu” Azərbaycanı öz eksklavı Naxçıvanla birləşdirəcək və bununla yanaşı, o, Orta Dəhlizin bir hissəsinə çevriləcək...”.

Şübhəsiz, Zəngəzur dəhlizinin fəaliyyətə başlaması və ümumilikdə regionda nəqliyyat-kommunikasiya xətlərinin bərpası ilə bağlı qərarların geniş şəkildə icrası strateji əhəmiyyət daşıyır. Region üzrə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artması, bütövlükdə, Cənubi Qafqaz ölkələri üçün yeni iqtisadi imkanlar deməkdir. Nəqliyyat xərclərinin azalması əlavə gəlir mənbələrinin yaranmasına şərait yaradacaq ki, bu da həm iqtisadi inkişafın sürətlənməsi, həm də dayanıqlı sülhün iqtisadi əsaslarının güclənməsi baxımından mühüm rol oynayacaq.



bazar prinsiplərinə əsaslanan ixrac–idxal münasibətləri kimi formalaşmamışdı. Bu proses mərkəzləşdirilmiş planlı iqtisadi sistem çərçivəsində tənzimlənirdi və vahid ittifaq mexanizminin tərkib hissəsi idi.

Azərbaycan SSR bu struktur daxilində daha çox enerji və xammal təminatçısı rolunu yerinə yetirirdi. Dövrün rəsmi statistik göstəriciləri və sənaye hesabatları sübut edir ki, respublikadan ümumi ittifaq dövriyyəsinə, o cümlədən Ermənistan istiqamətinə neft və neft məhsulları, neft-kimya sənayesi üçün xammal, eləcə də pambıq və tütün kimi kənd təsərrüfatı məhsulları göndərilirdi.

Paralel olaraq, Ermənistan SSR-dən Azərbaycana müxtəlif sahələr üzrə sənaye məhsulları daxil olurdu. Bu sıraya elektronika və cihazqayırma məhsulları, ölçü və texniki avadanlıqlar, kimya və rezin sənayesi malları, yüngül sənaye məhsulları kimi tekstil və ayaqqabı nümunələri daxil idi. Bundan əlavə, Ermənistanın ənənəvi istehsal sahələrini təmsil edən konyak, konservləşdirilmiş ərzaq məhsulları, həmçinin tikinti sektorunda istifadə olunan tuf və sement kimi materiallar da Azərbaycan bazarında yer tuturdu.

İndi isə iki ölkə arasında iqtisadi əlaqələrin yenidən qurulması sülh gündəliyinin mü-

Bu perspektiv onu deməyə əsas verir ki, iqtisadi münasibətlər tam şəkildə normallaşdıqdan sonra iki ölkə arasında illik ticarət dövriyyəsi təxminən 300 milyon dollar səviyyəsində formalaşa bilər. Buraya birbaşa idxal və ixrac əməliyyatlarının müxtəlif istiqamətləri daxildir və bu, əməkdaşlığın kifayət qədər geniş spektri əhatə etdiyini göstərir.

Qeyd edək ki, bu ilin I rübündə Azərbaycan Ermənistana 5 milyon 757 min ABŞ dolları dəyərində məhsul ixrac edib. Bunun 1 milyon 537 min dollarlıq hissəsi mart ayının payına düşüb. Ermənistana ixracdan əldə olunan gəlirlər Azərbaycanın ümumi ixrac gəlirlərinin 0,1 faizini təşkil edib. Digər tərəfdən, bu ilin mart ayında Azərbaycan Ermənistandan ilk dəfə 960 ABŞ dolları dəyərində mal idxal edib. Həmin mal əslində Niderlanddan gətirilmiş qızılgül olub. “Xarici ticarətin gömrük statistikasının nəşr olunması Qaydası”nın 3.3-cü bəndinə əsasən idxalda malın mənşə ölkəsi tərəfdaş ölkə hesab edildiyindən sözügedən qızıl güllər xarici ticarətin gömrük statistikasında Ermənistandan idxal edilən mallar kimi öz əksini tapıb.

***Nurlan ABDALOV***
***XQ***

*“Şahdəniz” qaz layihəsi – 30*

# Xəzərin mavi yanacaq xəzinəsi

## *I rübdə yataqdan 7 milyard kubmetr qaz və 1 milyon ton kondensat çıxarılıb*

**Gələn ay Azərbaycanı dünyanın potensial qaz ölkəsinə çevirən “Şahdəniz” yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair sazişin imzalanmasının 30 ili tamam olur. Əvvəlki dövrlərdə olduğu kimi, 2026-cı ilin ötən dövründə də “Şahdəniz” qaz hasilatı və ixracı layihəsi çərçivəsində işlər uğurla davam etdirilib.**

“bp-Azərbaycan” şirkətinin məlumatına görə, cari ilin yanvar-mart aylarında “Şahdəniz” layihəsinin əməliyyat tədbirlərinə 785 milyon dollar, əsaslı məsrəflərinə isə 336 milyon dollar xərclənib. Həmin vəsaitin isə böyük əksəriyyəti hazırda fəal işlənmə mərhələsində olan “Şahdəniz-2” layihəsinə sərf olunub. Məlumatda bildirilir ki, cari ilin ilk rübü ərzində qazın “Şahdəniz” yatağından Azərbaycan (“Azərkontrakt” ASC-yə), Gürcüstan (GOGC şirkətinə) və Türkiyə (BOTAŞ şirkətinə) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə, eləcə də Avropadakı alıcılara çatdırılması davam etdirilib.

Zəngin qaz və kondensat ehtiyatlarına görə seçilən “Şahdəniz” yatağında ötən müddətdə iki hasilat platforması quraşdırılaraq istismara verilib. Hazırda həmin qurğuların gündəlik hasilat gücü təxminən 74,2 milyon (ildə 27,1 milyard) kubmetr təşkil edir. Bu ilin birinci rübündə “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” adlı platformalardan, ümumilikdə, təqribən, 7 milyard kubmetr qaz və 1 milyon ton kondensat çıxarılıb.

Məlum olduğu kimi, layihə səhmdarlarının yekdil qərarına əsasən, “Şahdəniz” yatağının bir neçə mərhələdə işlənməsi qərara alınıb. Xatırladaq ki, birinci işlənmə mərhələsi çərçivəsində tikinti-quraşdırma işlərinə 2003-cü ilin əvvəllərində, hasilata isə 2006-cı ilin sonlarında başlanılıb.

Yatağın ikinci işlənmə mərhələsi isə genişliyi və əhatəliyi baxımından seçilir. Belə ki, hazırda “Şahdəniz-2” layihəsi çərçivəsində ilk dəfə olaraq Xəzər dənizində yatağın sualtı işlənməsi texnologiyası tətbiq olunur ki, bu da BP şirkətinin dünya üzrə operatoru olduğu ən iri sualtı infrastrukturdur. Təxminən 30 milyard ABŞ dolları həcmində investisiya qoyulmuş bu layihə, ümumilikdə, planlaşdırılmış ən azı 26 sualtı quyudan, bir-birinə körpü ilə birləşdirilmiş iki platformadan, 500 kilometr uzunluğunda sualtı boru kəmərləri və axın xətlərindən, Səngəçal terminalında əsaslı genişləndirmə işlərindən ibarətdir. Layihənin detallarına, həmçinin Azərbaycan ərazisində 428 kilometr, Gürcüstan ərazisində isə 59 kilometr uzunluğunda yeni boru kəmərləri və 2 yeni kompressor stansiyası, eləcə də Cənubi Qafqaz boru kəmərinin (CQBK) genişləndirilməsi daxildir.

“Şahdəniz” yatağının ikinci işlənmə mərhələsində qaz hasilatına 2018-ci ilin iyul ayının 30-da başlanılıb. Həmin gün yatağın şimal cinahındakı “SDC03Z” quyusunun istismara verilməsi ilə “Şahdəniz Bravo” platformasından ilk qaz əldə olunub. Sonrakı illərdə yeni quyuların istismara daxil edilməsi ilə hasilat artmağa başlayıb. 2022-ci ildə isə “Şahdəniz-2” layihəsi çərçivəsində daha bir uğura imza atan konsorsium iştirakçıları yatağın qərb-cənub cinahını da işlənməyə daxil ediblər.

2026-cı ilin birinci rübündə “Şahdəniz-2” layihəsi çərçivəsində yatağın qərb cinahındakı quyularda sualtı işlər üzrə fəaliyyətlər davam etdirilib. Layihə çərçivəsində əsas dəniz əməliyyatları isə “Xankəndi” gəmisi vasitəsilə həyata keçirilib. Bununla yanaşı, ilin ötən dövründə “Tofiq İsmayılov” dalğıc gəmisi hazırda istismarda olan bütün “Şahdəniz-2” sualtı hasilat obyektlərinə texniki xidmət, yoxlama və müdaxilə ilə bağlı ümumi işlərə dəstək verib. Bu, gəmidən və qazma qurğularından səmərəli istifadəni təmin etmək məqsədilə fəaliyyətlərin optimallaşdırılması və quyuların işə salınması müddətinin sürətləndirilməsi üçün inteqrasiya olunmuş qrafikin bir hissəsidir.

Cari ilin yanvar-mart aylarında konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. Rüb ərzində “Şahdəniz Alfa” platformasından SDA09 və SDA07 quyularında əlavə perforasiya işləri tamamlanıb. Bununla yanaşı, “Şahdəniz Alfa” platforması, “İstiqlal” və “Heydər Əliyev” qazma qurğuları “Şahdəniz-2” layihəsi çərçivəsində quyular üzrə işləri davam etdirib.

Rüb ərzində “İstiqlal” qazma qurğusu yatağın qərb cinahında SDD05 quyusunda karotaj və birləşdirmə borularının düzülməsi işlərini, daha sonra isə həmin quyuda tamamlama işlərini yerinə yetirib. “Heydər Əliyev” qazma qurğusu isə yatağın şərq-şimal cinahında SDH05 quyusunun qazma işlərini davam etdirib. Ümumilikdə, ötən müddətdə “Şahdəniz-2” layihəsi çərçivəsində 23 quyu qazılaraq istismara verilib. Həmin quyuların 5-i yatağın şimal, 5-i qərb, 4-ü şərq-cənub, 5-i qərb-cənub, 4-ü isə şərq-şimal cinahlarında qazılıb.



“Şahdəniz” yatağından hasil edilən qaz sualtı infrastruktur vasitəsilə Səngəçal terminalına nəql olunur. Terminaldakı mövcud qurğular isə qazı qəbul edərək Cənubi Qafqaz boru kəmərinə (CQBK) ötürür. Yeri gəlmişkən, bu ilin ilk rübü ərzində terminaldan gündəlik orta hesabla, təxminən, 7,4 milyon kubmetr “Şahdəniz” qazı ixrac olunub. Hesabat dövründə boru kəmərinin səmərəli idarə edilməsi məqsədilə yaradılmış şirkətin səhmdarları tərəfindən CQBK-nin əməliyyat tədbirlərinə təqribən 21 milyon dollar, əsaslı məsrəflərinə isə 9 milyon dollar xərclənib.

Qeyd edək ki, 2006-cı ilin sonlarında istismara verilimiş Cənubi Qafqaz boru kəməri “Şahdəniz” qazını Azərbaycan, Gürcüstan və Türkiyəyə nəql edir. Ötən müddətdə Türkiyəyə və Avropadakı alıcılara daha çox qaz çatdırmaq məqsədilə kəmərin imkanları xeyli genişləndirilib. Genişləndirilmiş Cənubi Qafqaz boru kəməri sistemi ilə kommersiya qaz həcmlərinin Türkiyəyə çatdırılmasına 2018-ci ilin iyun ayında, Avropaya isə 2020-ci ilin dekabr ayında başlanılıb. 2026-cı ilin ilk rübü ərzində CQBK-nin ixrac üçün gündəlik orta ötürücülük gücü 63,5 milyon kubmetr təşkil edib.

Hazırda “Şahdəniz” yatağından qaz hasilatının artırılması üçün daha bir mühüm layihə icra olunur. Bu, “Şahdəniz kompressiya” (ŞDK) layihəsidir. Cari ilin ilk rübündə Bayıl istehsalat-quraşdırma sahəsində və Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda ŞDK platformasının üst modullarının və dayaq blokunun tikintisi işləri təhlükəsiz şəkildə və qrafikə uyğun davam etdirilib. İlkin polad və struktur komponentləri, o cümlədən dayaq blokunun elementləri və sualtı konstruksiyaların tikintisi üzrə əhəmiyyətli irəliləyiş əldə olunub.

Hesabat dövründə layihə çərçivəsində dəniz və sualtı mühəndislik fəaliyyətləri də qrafikə uyğun davam etdirilib, müfəssəl dizayn işləri plan üzrə irəliləyib, əsas texniki baxışlar isə tamamlanıb. Bununla yanaşı, bir sıra mühüm avadanlıq dəstinin təchizat prosesi tikinti və quraşdırma cədvəllərinə uyğun həyata keçirilib.

Qeyd edək ki, 2,9 milyard ABŞ dolları dəyərində olan ŞDK layihəsində məqsəd yataqdakı aşağı təzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatını təmin etmək və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Layihə çərçivəsində istismara veriləcək unikal platformanın “Şahdəniz” yatağından, təxminən, 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir. Layihə, həmçinin yataqdan hasil edilən qazın təzyiqini artıraraq ixracını təmin etmək məqsədi daşıyır. Mövcud “Şahdəniz” platformalarının yaxınlığında yerləşəcək yeni kompressiya platforması suyun 85 metr dərinliyində quraşdırılacaq.

ŞDK layihəsi çərçivəsində yeni bir kompressiya obyektinin – elektriklə işləyən, heyətsiz kompressiya platformasının inşası nəzərdə tutulur. Layihə, həmçinin “Şahdəniz” müqavilə sahəsində quraşdırılacaq bir sıra əlaqədar obyektləri, eləcə də “Şahdəniz Alfa” və “Şahdəniz Bravo” platformalarında və Səngəçal terminalında mövcud infrastruktur üzərində aparılacaq bir sıra işləri də əhatə edir.

Ümumilikdə, tikinti işlərinin 2029-cu ildə başa çatması ilə ŞDK platformasının həmin ildə “Şahdəniz Alfa”dan, 2030-cu ildə isə “Şahdəniz Bravo”dan hasil edilən qaz həcmlərini kompressiya etmək üçün qəbul etməyə hazır olacağı planlaşdırılır.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Günün sualı*

**Son dövrlər ölkədə kirayə bazarının leqallaşdırılması və şəffaflığın artırılması istiqamətində atılan addımlar ictimai müzakirələrin əsas mövzularından birinə çevrilib. Xüsusilə kirayə gəlirlərinə tətbiq olunan vergi dərəcəsinin 14 faizdən 10 faizə endirilməsi dövlətin büdcə xərcləri və vergi sistemi vasitəsilə iqtisadiyyatın sürətli inkişafının gerçəkləşdirməsi prosesinə keçdiyini göstərir. Bu sahədə inzibati cərimələrin artırılması isə “kölgə iqtisadiyyatı”nın azaldılması məqsədinə xidmət edir. Lakin müşahidələr bu dəyişikliklərin hələlik kirayə münasibətlərinin tam şəkildə leqallaşdırılmasına təsir göstərmədiyini deməyə əsas verir.**

# Mənzil kirayəsi bazarında şəffaflaşma niyə ləng gedir?

*Vergi azaldılsa da, müqavilələrin bağlanılmasına maraq artmır*



### Hüquqi və inzibati maneələr

Problemin kökündə hökumətin gəlir və xərclərini planlı şəkildə idarə etdiyi maliyyə strategiyasının bəzi məqamları ilə yanaşı, hüquqi və inzibati maneələr də dayanır. Kirayə münasibətlərinin rəsmiləşdirilməsi prosesi indiyədək mürəkkəb, çoxpilləli və əlavə xərclərlə müşayiət olunur. Bu isə bazarın böyük bir hissəsini qeyri-rəsmi fəaliyyət göstərməyə sövq edir.

Azərbaycanın, xüsusilə Bakı və Abşeron ərazilərində yüz minlərlə fərdi yaşayış evinin çıxarışının olmaması kirayə bazarının leqallaşdırılması qarşısında ən ciddi maneələrdən biridir. Mövcud qanunvericiliyə görə, rəsmi kirayə müqaviləsinin bağlanılması üçün mülkiyyət hüququnu təsdiqləyən sənədin olması vacibdir. Əks halda, sənədsiz evlərin kirayəsi demək olar ki, hüquqi müstəvidən kənarda qalır. Nəticədə, dövlət vergi itkiləri ilə üzləşir, kirayəçi hüquqi müdafiədən məhrum olur, bazarda qeyri-rəsmi münasibətlər normaya çevrilir, cərimələr artır, nəticə isə dəyişmir.

Belə bir vəziyyət müəyyən mənfi nəticələr doğurur. Bu, ilk növbədə, dövlət büdcəsinin potensial vergi gəlirlərindən məhrum olmasında, kirayəçi və kirayə verən arasında hüquqi təminatın zəifləməsində, bazarda qeyri-rəsmi münasibətlərin normaya çevrilməsində, eləcə də inzibati cərimələrin yalnız qısamüddətli təsirində nəzərə çarpır.

Cərimələrin artırılması bəzi hallarda intizam yaratmaq məqsədi daşısa da, ekspertlərin fikrincə, bu, yalnız müvəqqəti səmərə verir. Çünki sistemli problemlər, məsələn, sənədləşmə çətinlikləri, prosedur mürəkkəbliyi və hüquqi boşluqlar aradan qaldırılmadan inzibati təzyiq uzunmüddətli nəticəyə gətirib çıxarmır. İqtisadi baxımdan bu yanaşma “məcburetmə modeli” kimi qiymətləndirilir və adətən, təkcə alternativlərin olmadığı hallarda səmərəliliyi ilə diqqət çəkir. Halbuki kirayə bazarında alternativ, yəni qeyri-rəsmi fəaliyyətin hələ də geniş yayılması ciddi narahatlıq doğurur.

Kirayə müqavilələrinin bağlanması zamanı tələb olunan sənədlərin çoxluğu və prosedurların mürəkkəbliyi bazarın leqallaşmasında əsas maneələrdən biridir. Notarial təsdiq, müxtəlif razılıqlar, qeydiyyat tələbləri və digər formal prosedurlar həm vaxt, həm də maliyyə baxımından əlavə yük yaradır. Bundan əlavə, müvəqqəti qeydiyyat məsələsi də ciddi narahatlıq doğurur. Mövcud qaydalara görə, kirayəçi mənzildə qeydiyyata düşdükdən sonra onun sonradan çıxarılması müəyyən hüquqi çətinliklər yaradır ki, bu da təcrübədə təsdiqlənən faktdır. Belə hal isə mülkiyyətçiləri rəsmi müqavilədən yayınmasına gətirib çıxarır.

### Sənədsiz evlər: bazarın quzey tərəfi

**Daşınmaz əmlak eksperti Firdovsi Xəlilovun** sözlərinə görə, kirayə bazarının leqallaşdırılmasına yönələn vergi dərəcəsinin azaldılmasına baxmayaraq, praktikada hələ də bir sıra problemlər qalır. Bəzi hallarda vətəndaş vergidən yayınmağa çalışır və mülkiyyət sənədlərinin olmaması səbəbindən çətinliyin aradan qaldırılması ləngiyir. Onun fikrincə, cərimələr və hüquq-mühafizə orqanlarının tətbiq etdikləri inzibati tədbirlər yalnız müvəqqəti səmərə verir.

Ekspert daha səmərəli həll yolunu dövlət qurumları tərəfindən kirayə müqavilələrinin sayı və toplanan vergilərin məbləği ilə bağlı şəffaflığın təmin edilməsində görür. Düzdür, bu cür müqavilələrin sayı barədə məlumat dərc olunmasına baxmayaraq, bazarın real mənzərəsi nəzərə çarpmır. Digər tərəfdən kirayə sektorunda hazırda müşahidə olunan dəyişikliklərin gələcəkdə daha şəffaf və hesabatlı bir sistemin yaradılması ilə nəticələnəcəyi gözlənilir.

Bununla belə, sənədsiz əmlak probleminin həlli islahatların əsas prioriteti olaraq diqqət mərkəzində saxlanılır. Bu məqsədlə ictimaiyyətin yeni qaydalar barədə məlumatlılığının artırılması və kirayə münasibətlərinin tədricən rəsmi hüquqi çərçivəyə keçirilməsi qarşıya əsas vəzifə kimi qoyulur. Kirayə bazarında uzun illər mövcud olan qeyri-rəsmi münasibətləri aradan qaldırmaq, bütün kirayə əməliyyatlarını rəsmi müqavilələr çərçivəsinə salmaq və vergi uçotunu gücləndirmək məqsədilə inzibati cərimələrin tətbiqi gücləndirilir. Belə ki, əvvəllər bu əməliyyatın pozulmasına görə vətəndaş 30 manat cərimə edilirdisə, yeni qaydalara əsasən həmin məbləğin 300 manata qədər artırılması deyilən fikrin bariz ifadəsidir.

**Vəkil, Azərbaycan İstehlakçılar Şurasının sədri Roman Qaraşov** açıqlamasında bildirdi ki, vergi dərəcəsinin 14 faizdən 10 faizə endirilməsi ilk baxışda kirayə münasibətlərinin leqallaşdırılması istiqamətində əhəmiyyətli addım kimi görünür. Lakin bu dəyişiklik universal xarakter daşımır. Söhbət yalnız fiziki şəxsə məxsus yaşayış sahəsinin digər fiziki şəxsə kirayəyə verilməsindən əldə olunan gəlirdən gedir. Sahibkarlıq fəaliyyəti çərçivəsində həyata keçirilən icarə münasibətlərində, eləcə də əmlakın hüquqi şəxslərə icarəyə verilməsi hallarında əvvəlki 14 faizlik vergi rejimi qüvvədə qalır. Problemin mahiyyəti ondadır ki, “kölgə münasibətləri”nin əsas səbəbi əksər hallarda təkcə vergi yükünün həcmi olmur.

Burada daha ciddi amil hüquqi münasibətin rəsmiləşdirilməsi ilə birlikdə yaranan inzibati öhdəliklər, gəlirin görünən və nəzarət edilə bilən dövriyyəyə daxil olması, vergi uçotu, hesabatlılıq və bəyannamə intizamıdır. Başqa sözlə, vergi dərəcəsinin aşağı salınması fiskal yükü azaltsa da, rəsmiləşdirmə ilə bağlı hüquqi və prosedur məsrəfləri olduğu kimi saxlayır. Buna görə də bazarın müəyyən hissəsi üçün əsas stimul “daha aşağı vergi” deyil, “daha sadə, sürətli və az xərc tələb edən prosedur” olaraq qalır.

R.Qaraşovun sözlərinə görə, müqavilə bağlamaqdan yayınmanın digər mühüm səbəbi kirayə münasibətlərinin rəsmiləşdirilməsi zamanı ortaya çıxan hüquqi çətinliklərdir. Belə ki, təcrübədə bir çox mülkiyyətçi müqavilənin bağlanması prosedurunu tam bilmir, tələb edilən sənədlərin həcmi və ardıcıllığı barədə aydın təsəvvürə malik olmur, hətta bəzi hallarda həyat yoldaşının razılığı, mənzildə qeydiyyatda olan digər yetkin şəxslərin razılıq ərizəsi, notarial təsdiq, dövlət reyestrindən çıxarış, sığorta ilə bağlı tələblər kimi əlavə formal elementlər bu prosesi daha da mürəkkəbləşdirir.

Fərdi yaşayış evlərinin isə əksəriyyəti sənədsizdir və müqavilə bağlamaq mümkün deyil. Kirayəçilərin tez-tez dəyişdiyi hallarda hər dəfə yeni müqavilə, yeni razılıq və yeni sənədləşmə ehtiyacı yaranır ki, bu da həm vaxt itkisinə, həm də əlavə xərcə səbəb olur. Bir çox hallarda tərəflər məhz bu təkrar prosedurlardan, əlavə ödənişlərdən və gələcəkdə vergi orqanları qarşısında daimi hesabatlılıq öhdəliyindən yayınmaq üçün münasibəti qeyri-rəsmi saxlamağa üstünlük verirlər.

Göründüyü kimi, məsələ yalnız vergi faizinin səviyyəsində deyil, əsas problem hüquqi müstəviyə keçidin hələ də kifayət qədər sadə və çevik olmaması ilə bağlıdır. Bu baxımdan real həll yolu vergi dərəcəsinin azaldılması ilə yanaşı, kirayə münasibətləri üçün standartlaşdırılan, tam elektron, aydın və minimum sənəd tələb edən sadələşdirilmiş müqavilə mexanizminin yaradılmasından keçir.

### Rəqəmsal yanaşmanın zəruriliyi

Göründüyü kimi, kirayə bazarında real dönüş üçün təkcə vergi endirimi kifayət etmir. Bunun üçün elektron müqavilə platformasının yaradılması, sadə, sürətli və əlçatan sistemin qurulması, sənədsiz evlərin leqallaşdırılması, sadələşdirilmiş qeydiyyat mexanizminin tətbiq olunması kimi addımlar atılmalıdır. Şübhəsiz ki, bu məsələdə qeydiyyat qaydalarının yenilənməsi, mülkiyyətçinin hüquqları qorunmaqla daha çevik model qurulmalı, vergi inzibatçılığının sadələşdirilməsi, hesabatlılığın minimuma endirilməsi, şəffaflığın artırılması, kirayə bazarı ilə bağlı real statistik məlumatların açıqlanması prioritet istiqamətlər olmalıdır.

Deməli, burada əsas məsələ sistemlə bağlıdır. Yəni kirayə gəlirlərinə tətbiq olunan verginin azaldılması mühüm addım olsa da, bu, problemin təkcə bir hissəsini həll edir. Əsas məsələ hüquqi və inzibati sistemin sadəliyi, əlçatanlığı və etibarlılığıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, uğurlu kirayə bazarı aşağı vergi ilə deyil, sadə qaydalar, rəqəmsal həllər və hüquqi aydınlıqla formalaşır. Məsələn, Estoniyada kirayə müqavilələrinin bağlanması tam elektron platformalar üzərindən həyata keçirilir. Bu ölkədə müqavilə standart formada hazırlanır və bir neçə dəqiqə ərzində rəsmiləşdirilir. Vergi bəyannamələri isə avtomatlaşdırılmış qaydada sistemə inteqrasiya olunur.

Almaniya və Niderland kimi ölkələrdə kirayə gəlirləri üzrə vergi sistemi daha çevikdir və xərclərin çıxılması mexanizmi geniş tətbiq olunur. Bu isə vergi ödəyicilərini gəlirlərini gizlətməkdənsə, rəsmiləşdirməyə təşviq edir. Fransa kimi ölkələrdə isə kirayə münasibətləri aydın və balanslı hüquqi çərçivə ilə, yəni standart qaydalar əsasında hazırlanan müqavilələr, tərəflərin hüquq və vəzifələri konkret müəyyənləşdirilməsi və mübahisələrin həlli üçün səmərəli mexanizmlərin qurulması ilə tənzimlənir.

Əgər bu istiqamətdə kompleks və ardıcıl islahatlar həyata keçirilərsə, Azərbaycan kirayə bazarı “kölgədən” çıxaraq daha şəffaf və davamlı inkişaf mərhələsinə qədəm qoya bilər. Əks halda isə vergi endirimləri gözlənilən səmərə vermədən formal xarakter daşımaqda davam edəcək.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Elnur FƏRZƏLİYEV,**
**Rieltorlar Assosiasiyasının sədri, daşınmaz əmlak eksperti**

Kirayə gəlirlərinə tətbiq olunan vergi dərəcəsinin 14 faizdən 10 faizə endirilməsi və cərimə məbləğinin artırılması heç də bütün kirayə müqavilələrinin rəsmiləşdirilməsinə ciddi təsir göstərmir. Bunun əsas səbəbini çıxarışı olmayan ev sahibinin mənzili kirayə verərkən müqavilə bağlamaq imkanının olmaması ilə bağlıdır. Ona görə də, ilk növbədə, qaydalar və qeydiyyat prosesi dəyişdirilməlidir. Belə ki, vətəndaşın çıxarışı olmasa da, onun müqavilə bağlamaq haqqı tanınmalıdır.

Vətəndaş hansısa bir sahədən gəlir əldə edirsə, təbii ki, vergi də ödəməlidir. Amma kirayə ilə bağlı vergilər cari ildən 14 faizdən 10 faizə endirilsə də, bu sahədə elə bir ciddi irəliləyiş nəzərə çarpmır. Çünki qanundakı müəyyən boşluqlar buna imkan vermir. Müqavilə notarial qaydada bağlanırsa, kirayədə qalan şəxsin həmin mənzilə müvəqqəti qeydiyyata düşməsi qeyri-mümkündür.

Bakı və Abşeronda 500 minə yaxın fərdi yaşayış evi var ki, onların çoxunun çıxarışı yoxdur. Bu səbəbdən həmin ərazilərdəki evlər tələbələrə, eləcə də rayonlardan iş-dolanışıq məqsədilə gəlib müvvəqəti məskunlaşan şəxslərə kirayəyə veriləndə notarial qaydada müqavilə bağlamaq olmur. Çünki bunun üçün evi müəyyən edən sənədin mövcudluğu zəruridir. Belə halda isə müqavilə rəsmi bağlanmır və vergi ödənilmir.

Bu məsələdə mənzil sahiblərini kirayə qalanlardan müvəqqəti qeydiyyat tələb olunması da narahat edir. Belə bir hal ciddi narahatlıq doğurduğuna görə, müvəqqəti qeydiyyatla bağlı yanaşma da dəyişməlidir. Yəni vətəndaş həmin mənzilə qeydiyyata düşdükdən sonra, mənzil satılarsa, bağışlanılarsa, banka girov qoyularsa, mütləq şəkildə kirayə qalan razı salınmalıdır. Əks halda, tərəflər arasında müəyyən narazılıqlar yarana bilər. Ona görə müvəqqəti qeydiyyatla bağlı yanaşmanın yenilənməsi gerçəkləşdirilməli, mənzil sahibi istədiyi zaman kirayədə qalanı qeydiyyatdan çıxara bilmək imkanına malik olmalıdır.

Adətən kirayəyə verilən mənzillərdə mübahisəli məqamlar da çox olur. Bəzi hallarda mənzil sahibi kirayə qalana müəyyən problemlər yaşadır, bəzən də bu, əksinə baş verir. Amma müqavilə rəsmi qaydada olanda tərəflərdən hər hansısa biri öhdəliyi pozduqda, məsuliyyət daşıyır.

*4 May Ümumdünya Astma ilə Mübarizə Günüdür*

# Təmiz hava, parlaq günəş, sağlam nəfəs...

**İnsan həyatı bəzən ən sadə görünən nemətlərin üzərində qurulur. Nəfəs almaq kimi... Səhər oyananda, yolda addımlayanda, danışanda, güləndə. Amma bir anlıq dayansa, bütün dünya sanki öz ritmini itirir. Nəfəs insanın həyatla qurduğu ən incə körpüdür; görünməz, amma qırılmağa çox həssas.**

Bəzən bu körpü daralır, nəfəsin yolu sıxılır və adi bir nəfəs almaq belə mübarizəyə çevrilir. O zaman insan həyatın ən sadə, ən təbii saydığı bir nemətin - nəfəsin nə qədər qiymətli olduğunu anlayır. Ümumdünya Astma Günü də məhz bu həqiqəti xatırladır: hər nəfəsin dəyərini, hər nəfəsin arxasında dayanan görünməz mübarizəni və həyatın nəfəs qədər incə tarazlığını.

Ümumdünya Astma ilə Mübarizə Günü hər il mayın birinci çərşənbə axşamı keçirilir. Bu günün yaranma tarixi 1993-cü ildə ABŞ-ın Milli Ürək, Ağciyər və Qan İnstitutu, Milli Sağlamlıq İnstitutu və Ümumdünya Sağlamlıq Mərkəzi tərəfindən “Bronxial astmanın müalicəsi və profilaktikası qlobal strategiyası”nı müəyyənləşdirən işçi qrupunun yaradılması ilə bağlıdır. İlk tədbir Ümumdünya Səhiyyə Təşkilatının dəstəyi ilə 1998-ci ildə keçirilmiş və sonrakı illərdən etibarən hər ilin may ayının ilk çərşənbə axşamı kimi rəsmiləşdirilmişdir. Hazırda dünyanın 80-dən çox ölkəsində əhalinin maarifləndirilməsi məqsədilə bronxial astmanın müalicəsi və profilaktikası qlobal strategiyası çərçivəsində müxtəlif tədbirlər keçirilir. Tarixi faktlara görə, bu təşəbbüsün əsas məqsədi dünyada milyonlarla insanı təsir altına alan astma xəstəliyi haqqında məlumatlılığı artırmaq, düzgün diaqnostika və müalicə imkanlarını genişləndirmək olub.

XX əsrdə alimlərin araşdırmaları nəticəsində astmanı yaradan səbəbin fiziki, kimyəvi və bioloji xarici qıcıqlandırıcılara cavab reaksiyası kimi bronxların lokal iltihabı olduğu müəyyənləşib. Bəlli olub ki, astmanın inkişafının ən başlıca risk amilləri allergenlərdir. Bundan



əlavə soyuq hava, həyəcan, əsəb, qorxu və idman da xəstəliyin əmələgəlmə səbəblərindən ola bilər. Bəzən xəstəliyin yaranmasında genetik amillərin də rolu olur. Bəzən də astmanın səbəbini müəyyənləşdirmək çox çətin və ya hətta mümkünsüz olur.

Diqqətin bu problemə yönəldilməsi təsadüfi deyil. Ümumdünya Səhiyyə Təşkilatının məlumatlarına əsasən, astma dünyada ən geniş yayılmış xroniki xəstəliklərdən biridir. Hazırda dünyada 300 milyon nəfər həmin xəstəlikdən əziyyət çəkir və hər onillikdə onun sayı bir yarım dəfə artır.



**Bakı Sağlamlıq Mərkəzinin pulmonoloqu Vüqar Səfərovun** sözlərinə görə, bronxial astma tənəffüs yollarının daralması və selikli qişasının şişməsi nəticəsində yaranan, nəfəs darlığı ilə xarakterizə olunan xroniki xəstəlikdir. Xəstəlik özünü əsasən xırıltılı və “vızıltılı” tənəffüs, təkrarlayan öskürək tutmaları və nəfəs almaqda çətinliklə büruzə verir.

Həkimin bildirdiyinə görə, bronxial astmanın yaranmasında müxtəlif amillər rol oynayır. Bunlara allergik təsirlər, soyuqdəymə və infeksion xəstəliklər, eləcə də stres kimi amillər daxildir. Eyni zamanda, xəstələr ağaclardan qopan tozcuğa, məişət tozuna, heyvan tükünə, bəzi qida və dərmanlara reaksiya verirlər.

Xəstəlik zamanı tənəffüs yollarında geri dönə bilən daralma və tıxanma baş verir. Bu səbəbdən astma tamamilə sağalan xəstəlik hesab olunmasa da, düzgün yanaşma və müalicə ilə onun simptomlarını tam nəzarət altında saxlamaq mümkündür.

Pulmonoloq müalicənin əsasən inhalyasiya yolu ilə istifadə olunan dərman preparatları ilə aparıldığını vurğulayır: “Bu dərmanlar tənəffüs yollarında iltihabı azaldır və bronxların genişlənməsinə kömək edir. Ehtiyac olduqda antiallergik preparatlardan, iltihabəleyhinə vasitələrdən və bəzi hallarda infeksiya qoşulduqda müvafiq antibakterial müalicədən də istifadə oluna bilər. Bundan əlavə, xəstələrin allergen amillərdən uzaq durması, həkim nəzarətində mütəmadi müalicə alması və həyat tərzlərinə diqqət etməsi çox önəmlidir. Bronxial astma düzgün diaqnoz, vaxtında müalicə və daimi həkim nəzarəti ilə idarə oluna bilən xəstəlikdir. Bu yanaşma xəstələrin normal və aktiv həyat sürməsinə imkan yaradır”, – deyə Vüqar Səfərov qeyd etdi.

Ümumdünya Astma Günü həm də cəmiyyətə bir mesajdır: nəfəs almaq bəzən fərqinə varmadığımız, amma həyatın özünü təşkil edən ən böyük nemətdir. Bu gün bizə xatırladır ki, sağlamlıq diqqət və qayğı tələb edir. Nəfəs almaq həyatdır. Bu həyatı qorumaq isə həm fərdi, həm də ictimai məsuliyyətdir. Astma ilə yaşayan insanların mübarizəsini anlamaq və onlara dəstək olmaq – sağlam və şüurlu cəmiyyətin göstəricisidir.

Astma haqqında danışarkən əslində təkcə bir xəstəliyi deyil, insanın həyatla nəfəs-nəfəsə mübarizəsini danışmış oluruq. Bu mübarizə bəzən səssiz keçir, bəzən isə bir tutma ilə bütün dünyanı dayandıracaq qədər sərt olur. Amma ən önəmlisi odur ki, bu xəstəliklə yaşayan insanlar düzgün yanaşma və vaxtında qayğı ilə normal həyata qayıda bilirlər. Həkimlərin də vurğuladığı kimi, astma idarə oluna bilən bir xəstəlikdir, lakin bunun üçün həm tibbi nəzarət, həm də ictimai məsuliyyət vacibdir.

***Nurəngiz ADİLQIZI***
***XQ***

# Həssaslıq, mərhəmət mənəvi məlhəmdir

**Tanrı öz bəndələrini eyni yaratmır, səs, görkəm, fikir və düşüncələrinə görə bir-birindən seçilən insanların ömür yolu, yaşam tərzi də fərqli olur. Kimi həyatın gözəlliklərindən zövq alaraq sağlam ömür sürür, kimi də əksinə. Cəmiyyətdə də belə insanlara münasibət fərqlidir: bəziləri laqeydlik edir, bəziləri isə şəfqət, mərhəmət göstərir, dərdinə şərik olub könlünü ovudur, bir anlıq da olsa, hər şeyi unutdurmağa çalışır.**

Artıq dünyada belə bir fikir formalaşıb: o dövlət güclüdür ki, sosial müdafiəyə ehtiyacı olan vətəndaşlarına qayğı və hörmətlə yanaşır, onlara daha çox diqqət və qayğı göstərir. Müstəqil respublikamızda da sağlamlıq imkanları məhdud insanların sosial problemlərinin həllinə dövlət büdcəsindən ayrılan vəsait ilbəil artırılır. Xüsusi qayğıya ehtiyacı olan insanların digər problemləri kimi ümumi təhsili və məşğulluğu da dövlətin nəzarətindədir. Belə ki, ölkəmizdə inklüziv təhsil sahəsində müvafiq qanunvericilik bazası yaradılıb, müxtəlif təyinatlı qərarlar qəbul olunub. Davamlı layihələr, proqramlar həyata keçirilir.

"2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı"nın icrası nəticəsində məktəblərdə inklüziv siniflərin yaradılması kütləvi hal alıb. Artıq ölkəmizdə inklüziv təhsil tətbiq edilən məktəblərin sayı 91-ə çatdırılıb.

Əqli geriliyi və psixi inkişafda ləngiməsi olan uşaqların ümumtəhsil məktəblərinə uyğunlaşdırılması qlobal təhsil gündəminin əsas istiqamətidir. "StatRanker 2025/2026" və "EASNIE" hesabatlarında göstərilir ki, bəzi ölkələr bu sahədə 90 faizdən yuxarı nəticə ilə liderlik edir. Bu uğurun arxasında hər bir dövlətin özünəməxsus yanaşma metodları və tətbiq etdiyi xüsusi dəstək mexanizmləri dayanır.

İtaliya bu sahədə 99,6 faizlik göstərici ilə dünya üzrə inklüziv təhsilin "qızıl standart"ı hesab olunur. Burada "dəstək müəllimi" (insegnante di sostegno) xüsusi qayğıya ehtiyacı olan uşaqların sinif mühitinə uyğunlaşmasına, dərs proqramını mənimsəməsinə və sosial inteqrasiyasına cavabdehlik daşıyır.



Fransa son illərdə "hər kəs üçün məktəb" siyasəti ilə sağlamlıq imkanları məhdud uşaqların 80 faizindən çoxunu ümumi təhsilə yönəldib. Xüsusilə autizmli uşaqlar üçün yaradılan "inklüziv model məktəblər" şəbəkəsi statistikanı əhəmiyyətli dərəcədə yüksəldib.

Finlandiyada isə kəmiyyətdən daha çox keyfiyyətə və fərdi yanaşmaya üstünlük verilir. Burada tətbiq edilən "çoxpilləli dəstək sistemi" sayəsində əqli geriliyi olan uşaqlar yaşıdlarından təcrid olunmadan, ümumi sinif daxilində differensial təhsilə cəlb edilirlər.

Braziliya və bəzi Latın Amerikası ölkələrində 2025-2026-cı illərdə qəbul edilən yeni qanunvericilik aktları ilə autizm və əqli gerilik "psixi pozuntu" deyil, "neyro-inkişaf fərqliliyi" kimi qəbul olunur. Belə yanaşma uşaqların tibbi müəssisələrdən daha çox təhsil mühitinə inteqrasiyasını sürətləndirir.

Lüksemburq bu sahədə Avropanın qabaqcıl ölkələrindəndir. Məktəblərdə müəllimlər dərs prosesini uşaqların ehtiyaclarına uyğunlaşdırır, onlara fərdi qaydada yanaşırlar. Burada xüsusi mərkəzlərdə təhsil alan şagirdlərin sayı 1 faizdən azdır.

Ötən il keçirilən Qlobal Əlillik Sammitində (GDS) qəbul edilən "Amman-Berlin Bəyannaməsi"nə əsasən dövlətlər inklüziv təhsil üçün büdcə ayırmalarını artırmağı və təhsil sisteminin hesabatlığını təmin etməyi öhdələrinə götürüblər. Ümumi tendensiya göstərir ki, əsas hədəf hər bir şagird üçün bərabər təhsil imkanları yaratmaq, əqli geriliyi olan və inkişafdan geri qalan uşaqların cəmiyyətdən təcrid olunmasının qarşısını almaqdır.

Bütün bunlardan çıxış edərək bu sahədə beynəlxalq təcrübənin milli təhsil sistemimizdə necə tətbiq olunduğunu öyrənmək məqsədilə yolumuzu şəhərimizdəki 202 və 220 saylı orta məktəblərdən saldıq.

## *Ölkəmizdə inklüziv təhsilin təcrübəsi və hədəfləri*

**Alı Mustafayev adına 202 saylı tam orta ümumtəhsil məktəbinin direktoru Gülüstan Vəliyeva bildirdi:**

– 2016-cı ildən məktəbdə inklüziv təhsil tətbiq olunur və hazırda 21 sinifdə autizm, daun, əqli gerilik, serebral iflic və s. diaqnozlu 32 şagird var. Ölkəmizdə inklüziv təhsil qaydalarına əsasən, hər sinifdə 2, paralellər üzrə isə cəmi 2 sinifdə inklüziv şagird ola bilər. Ötən tədris ilində bu kateqoriyadan fərqli diaqnozlu 4 şagird IX sinfi bitirdi. Bu il də məzunlarımız olacaq.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların sağlam həmyaşıdları ilə birgə təhsil alması həm valideynlər, həm də cəmiyyət üçün mühüm əhəmiyyət kəsb edir. Bu yanaşma, ilk növbədə, əvvəlki dövrlərdəki stereotipləri aradan qaldırır. Əsas məqsəd yalnız akademik bilik vermək deyil, həm də uşaqların kollektivə və cəmiyyətə uyğunlaşmasıdır.

Elə şagirdlər var ki, məktəbə gəldikləri ilk vaxtla bugünkü vəziyyətini müqayisə etdikdə irəliləyiş nəzərəçarpacaq dərəcədədir. Onların bir neçəsi bu gün məktəb daxilində sərbəst hərəkət edir, yoldaşları, müəllimləri ilə ünsiyyət qurur və hətta yaşadığı evin yolunu tanıyır.

Tam məsuliyyətlə deyə bilərəm ki, inklüziv təhsilə cəlb olunan şagirdlərin heç biri diqqətdən kənarda qalmır. Valideyn, müəllim, psixoloq, loqoped və məktəb rəhbərliyinin iştirakı ilə hazırlanan fərdi tədris planı uşaqların ictimai fəallığı, ünsiyyət bacarıqlarının formalaşması və gündəlik həyata uyğunlaşması baxımından çox effektlidir. Eyni zamanda, müəllimlər belə uşaqların maraq dairəsini müəyyənləşdirərək inkişaf etdirirlər. Yardımçı otaqda isə loqoped və defektoloq həmin şagirdlərlə məşğul olur. Burada onların həm kiçik motorikası, həm də zehni fəaliyyətinin inkişafı üçün fərqli inventar və terapiya xarakterli vəsaitlər mövcuddur.

Əgər bir uşaq həmin otağa, sadəcə, müəllimlə salamlaşmağa gəlirsə, bu, bizim böyük uğurumuzdur, deməli, həmin gün hər şey qaydasındadır. Lakin belə uşaqların əhvalı fasilədən, səhhətindən və ya qəbul etdikləri dərman müalicəsindən asılı olaraq dəyişir. Məsələn, müalicəsi bitən və ya



yeni başlayan dövrdə uşaqlarda müəyyən aqressiya müşahidə olunur. Bu səbəbdən dərsə başlamazdan əvvəl mütəxəssislər onların ümumi vəziyyətini yaxından izləyirlər.

İnklüziv təhsilə cəlb olunan atipik uşaqlarda ağırlaşma halları baş verərsə, rəsmi müraciət əsasında onu evdə təhsilə, xüsusi təhsilə və s. müəssisələrə yönləndiririk. Çünki bütün şagirdlərin təhsilalma hüququnu qorumaq borcumuzdur, hər hansı bir diqqətsizlik və ya laqeydlik böyük problem yarada bilər.

**Direktor daha sonra qeyd etdi ki, övlad böyütmək, onu düzgün tərbiyə etmək, cəmiyyətə yararlı vətəndaş yetişdirmək böyük məsuliyyətdir. Uşaq fiziki və ya əqli qüsurlu olanda isə bu, ikiqat çətindir:**

– Amma bəzi valideynlər uşağı məktəbə gətirib inklüziv sinfə qəbul etdirməklə öz vəzifəsini bitmiş hesab edir, düşünürlər ki, qalan hər şey müəllim, psixoloq və digərlərindən asılıdır. Əsla belə deyil, ailə-məktəb əməkdaşlığı burada böyük rol oynayır. Sağlamlıq imkanları məhdud uşağın valideyni övladının sağlam cəmiyyətə qovuşması, ictimai fəallığı üçün müəllimə kömək etməlidir. Əks təqdirdə, istənilən nəticəni əldə etmək olmur.

Məsələn, uşaq günün müəyyən hissəsini məktəbdə, yaşıdlarının ətrafında, müəllimlərin nəzarətində normal şəraitdə keçirir və heç bir neqativ hal baş vermir. Evdə isə valideyn onunla məşğul olmur, hər hansı bir xoşagəlməz hərəkətinə görə uşağa qışqırır, bəzən əl qaldırır, bəzən də tam əksi davranış pozuntusu olan uşaqlarının etdikləri səhv hərəkətlərini görməzdən gəlirlər, tərbiyəvi söhbət aparmır, yerindəcə müdaxilə etmirlər. Bu zaman hansı irəliləyişdən söhbət gedə bilər.

Digər vacib amil isə bir çox valideynin uşağının vəziyyətini qəbul etməməsidir. Bir də görürsən ki, əslində uşaq məhz inklüziv sinifdə təhsil almalıdır, amma valideyn övladını sağlam kimi onlayn qeydiyyatdan keçirir. Beləliklə, hər bir uşağın təhsilalma hüququnun olduğunu nəzərə alınaraq şagird məktəbə qəbul olunur.



Bir valideyn övladının oxuduğu sinifdə inklüziv təhsilin tətbiq olunduğunu öyrənəndə yerdəyişmə etmək istədiyini dedi. Onunla ətraflı söhbət etdik, bu sahədə neçə illik təcrübəyə əsaslanaraq bildirdik ki, belə mühitdə uşaqlarda mərhəmət, qayğı və sevgi hissləri daha çox inkişaf edir. Bundan sonra həmin valideyn fikrindən daşındı və həmin sinifdə xüsusi qayğıya ehtiyacı olan yoldaşlarına ən çox diqqət, qayğı göstərən uşaqlardan biri onun övladıdır.

**Məktəbin psixoloqu Türkan Nəcəfova:**

– Artıq 10 ildir ki, məktəbimizdə bu sistem tətbiq olunur. Belə şagirdlərin məktəb mühitinə uyğunlaşması üçün ilk 2-3 ay adaptasiya dövrü hesab olunur. Bu müddət ərzində uşaqlarda aqressiya, fiziki müqavimət, ağlama, utanma, ünsiyyətdən qaçma və ya müəllimi tamamilə görməzdən gəlmə halları müşahidə edilə bilər. Uyğunlaşma mərhələsi başa çatdıqdan sonra isə akademik biliklərin aşılanmasına başlayırıq.

İnkişaf prosesi psixoloq, loqoped, sinif müəllimi, valideyn və məktəb rəhbərliyinin birgə əməkdaşlığı sayəsində mümkün olur. Kompleks yanaşma inklüziv təhsilin inkişafına birbaşa təsir göstərir. Belə ki, sentyabr ayında 10 dəqiqə dərsdə otura bilməyən autizmli şagirdimiz artıq 4-5 saatlıq dərsi rahatlıqla başa vura bilir. Yəni irəliləyiş göz qabağındadır.



**Korreksiyaedici pedaqoq Günay Cəlilova:**

– İnklüziv siniflərə adətən 7 yaşından qəbul olunurlar. Bu yaş qrupunda əsasən nitq problemləri müşahidə olunur. Qeyd etməliyəm ki, nitqi tamamilə olmayan uşaqlar inklüziv təhsilə yararlı hesab edilmirlər. Təhsil ilinin ilk aylarından (sentyabr-noyabr) sonra uşaqları qruplara bölür, hər birinin problemi və onlara yanaşma tərzi fərdi olduğu üçün müəyyən saatlarda qrup məşğələləri keçirik. Şükürlər olsun ki, indiyədək öhdəsindən gələ bilməyəcəyimiz çətinliklə qarşılaşmamışıq.

**Korreksiyaedici pedaqoq Lalə Bağızadə:**

– İnklüziv təhsilə cəlb olunan uşaqla elə ilk görüşdə onun xarakterini, işin asan və ya çətin olacağını müəyyən edə bilirik. Uşağın xarakterinə uyğun olaraq müəyyən yanaşma tərzi seçir və təcrübəmizə söykənərək, onlara yardım göstəririk. Lakin bəzən valideynlər övladının problemini qəbul edə bilmir və gözləntiləri uşağın imkanlarından daha yüksək olur. Uşağın vəziyyətinin dərhal düzəlməməsinə görə isə bizi qınayırlar, halbuki bu prosesdə müəllimə, psixoloqa, ilk növbədə, valideyn dəstək olmalıdır.

Aydındır ki, bizim işimizdə 100 faizlik nəticə mümkün deyil. Lakin bəzən uşaq nəzərdə tutduğumuzdan daha böyük irəliləyiş göstərir, bəzənsə dərmanların təsirindən süstlük yaranır, öyrətdiklərimizi qəbul etməkdə çətinlik çəkir. Bütün bunlara baxmayaraq, təhsil ilinin əvvəlində qələm tuta bilməyən uşağın ilin sonunda bunu bacarması belə bizim üçün böyük uğurdur.

**Məktəbin ibtidai sinif müəllimi Sevda Balakişiyeva:**

– 29 illik pedaqoji təcrübəm var. Artıq 10 ilə yaxındır ki, məktəbimizdə inklüziv siniflər açılıb. İlk vaxtlar sağlam uşaqların valideynləri arasında narazılıq edənlər olurdu. Biz onlarla mütəmadi söhbətlər apardıq, bu uşaqlar haqqında ətraflı məlumat verdik. Artıq onlar övladlarının inklüziv siniflərdə oxumasını anlayışla qarşılayır və bu uşaqları cəmiyyətin bərabərhüquqlu üzvü kimi qəbul edirlər.

Sinifdə uşaqlar arasındakı fərqliliklər demək olar ki, hiss edilmir. Çünki biz elə bir mühit yaratmışıq ki, uşaqları fərqləndirmək və ya kənarlaşdırmaq qətiyyən mümkün deyil. Əksinə, şagirdlər onlara dəstək olur, çantalarını daşımağa kömək edir, kitab-dəftərlərini çıxarırlar. Əvvəlki narazılıqlar artıq qarşılıqlı qayğı və mehribanlıqla əvəz olunub.

İnklüziv təhsillə bağlı təlimlər həm psixoloq və korreksiyaedici pedaqoqlar, həm də sinif müəllimləri üçün olduqca vacibdir. Çünki hər bir uşaq fərdi yanaşma tələb edir. Biz təlimlərdə uşaqla düzgün ünsiyyətin qurulması, onun daxili qorxularının aradan qaldırılması və akademik biliklərin rahat üsullarla çatdırılması kimi metodları daha dərindən öyrənirik. Bu da, təbii ki, işimizin keyfiyyətini əhəmiyyətli dərəcədə artırır.

**Ərəstun Mahmudov adına 220 saylı məktəb – liseyin ibtidai sinif müəllimi Qəmər Vəliyeva bildirdi ki, hazırda dərs dediyi sinifdə inklüziv təhsilə cəlb olunan 2 şagird var və onların hər biri fərdi yanaşma tələb edən xüsusiyyətlərə malikdir:**

– Sağlamlıq imkanları məhdud uşaqların öz yaşıdları ilə eyni məktəbdə təhsil alması, bir parta arxasında oturub müəllimi dinləməsi çox müsbət haldır. Evdə və ya xüsusi şəraitdə fərdi təhsil bu nəticəni vermir. İnklüziv təhsil prosesində əqli geriliyi olan, inkişafdan qalan şagirdlərin öyrənmə sürəti, qabiliyyəti, qavraması, marağı mütləq nəzərə alınır və dərs proqramı bu əsasda hazırlanır.

Əvvəla, bu yanaşma digər şagirdlərdə empatiya hissinin formalaşmasına müsbət təsir göstərir. Onlar öz yoldaşlarına çox isti münasibət göstərir, qayğıkeşliklə yanaşırlar. Bəzən təəccüb edirəm ki, bu yaşda uşaq öz yaşıdının hisslərini, ehtiyacını necə həssaslıqla anlaya bilir.

Belə uşaqların adi siniflərdə dərs keçməsinin təbii ki, çətinlikləri də var. Biz bunu düzgün planlaşdırma, fərdi yanaşma və uyğun metodların tətbiqi ilə aşağı həddə endirə bilirik. Bunun üçün, ilk növbədə, inklüziv təhsil və xüsusi qayğıya ehtiyacı olan uşaqlarla iş sahəsində təşkil olunan təlimlərdə iştirak edirik. Davranış qaydaları, fərdi yanaşma, uyğunlaşdırıcı materialla-



rın hazırlanması və fərqli qiymətləndirmə üsullarını öyrənir və tətbiq edirik. Amma işimizə mane olan iki vacib məqamı qeyd etmək istəyirəm.

Bəzən həkimlər inklüziv təhsilə uyğun olmayan uşaqlara "yararlıdır" rəyi ilə sənəd verir və onları məktəbə yönləndirirlər. Bu hal tədris prosesində ciddi fəsadlara yol açır: həm dərsin gedişatına mane olur, həm də digər şagirdlərdə psixoloji gərginlik yaradır. Bu səbəbdən diaqnoz dəqiq qoyulmalı və yalnız inklüziv mühitə uyğun uşaqlar məktəbə cəlb olunmalıdır.

İkinci mühüm məsələ isə siniflərdə daimi fəaliyyət göstərən xüsusi köməkçi, yəni "kölgə müəllim"in olmamasıdır. Hazırda bütün yük sinif müəlliminin üzərinə düşür və o, həm digər şagirdlərlə ümumi, eyni zamanda, həmin uşaqla fərdi məşğul olmalıdır. Bu isə böyük çətinliklər yaradır.

Doğrudur, məktəblərdə defektoloqlar fəaliyyət göstərir, lakin bütün məktəb üzrə cəmi iki mütəxəssis hər bir uşaqla eyni anda və kifayət qədər məşğul ola bilmir. "Kölgə müəllim"i sisteminin tətbiqi tədrisin səmərəsini əhəmiyyətli dərəcədə artırar.

**Məktəbin psixoloqu Gülbəniz İsmayılova** bildirdi ki, bəzi valideynlər övladlarının inklüziv təhsilin tətbiq olunduğu siniflərdə oxumasını istəmirlər. Lakin biz onlarla söhbət aparır, belə siniflərdə oxuyan uşaqlara mərhəmət, köməyə ehtiyacı olan balalarımıza yardım etmək hissinin formalaşdığını anladırıq. Zamanla həmin valideyn inklüziv təhsilin uşaqların sosial inkişafına müsbət təsir göstərdiyini qəbul edir.

**Günel Bayramova,**
**valideyn:**

– Düşünürəm ki, əsas fərqləri vurğulamaq deyil, hər uşağa uyğun yanaşmanı tapmaqdır. Bu cür mühitdə uşaqlar həm birlikdə təhsil alır, həm də bir-birinə hörmət etməyi öyrənirlər.

**Gülnar Süleymanova,**
**valideyn:**

– Mən bir ana olaraq övladımın həm oxumasını, həm də onu anlayan və qəbul edən bir cəmiyyətdə böyüməsni istəyirəm. İnklüziv təhsil bunun bir nümunəsidir.

Hər insan öz taleyini yaşayır. Həyat nə qədər çətin olsa belə, onunla barışmalı olursan. Ağrı-acı isə o zaman yüngülləşir ki, onu səninlə bölüşən olsun, cəmiyyətin diqqəti çətinliyin azalmasına yönəlsin. Bu gün Azərbaycan dövləti əqli və fiziki geriliyin acılarını yaşayan vətəndaşlarını taleyin ümidinə buraxmır, onların cəmiyyətə inteqrasiyası ilə bağlı təsirli tədbirlər görür. Elə ayrı-ayrı qurumlar, müvafiq təşkilatlar da bu ali məqsədə xidmət edir: fiziki və əqli cəhətdən qüsurlu insanların cəmiyyətdə bərabərhüquqlu üzv kimi qəbul edilməsinə yardımçı olmaq.

***Mehparə ƏLİYEVA***
***XQ***

***Redaksiyadan:** Bu ildən ölkəmizdə fəaliyyət göstərən 91 ümumi təhsil müəssisəsində inklüziv təhsil həyata keçirilir və təxminən sağlamlıq imkanları məhdud 400 uşaq inklüziv təhsilə cəlb olunub. Məqaləni hazırlayarkən bu sahədə əldə olunan müsbət nəticələr, eyni zamanda, qarşıya çıxan əsas çətinliklər, müəllim və valideynlərin üzləşdikləri real vəziyyət, eləcə də bu problemlərin aradan qaldırılması istiqamətində görülən və planlaşdırılan tədbirlərlə bağlı Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə konkret suallar ünvanladıq.*

***Təəssüf ki, aidiyyəti qurumun təqdim etdiyi cavablar inklüziv təhsilin nə müsbət tərəflərini, nə də mövcud problemləri dolğun, sistemli və obyektiv şəkildə əhatə etmədi. Bu isə inklüziv təhsil kimi həssas və cəmiyyət üçün mühüm bir sahədə sualların cavablardan daha çox olduğunu göstərir.***

***Bütün bunlara baxmayaraq, "Xalq qəzeti" Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən təqdim olunan sualların cavablandırılmasını gözləyir.***

# I Ümumittifaq Türkoloji Qurultay milli mətbuatda



**(əvvəli qəzetin 11, 15 və 21 aprel 2026-cı il tarixli saylarında)**

***Azərbaycan işçi və qəntillərini böyük şadlıqla təbrik edirəm. Onların yeni mədəniyyətə keçmək üçün qəbul etdikləri əlifbası I Türkoloji Qurultaya toplanmış türk-tatar qövmləri və Şimali Qafqaz xalqları tərəfindən qəbul olundu.***

**S.Ağamalıoğlu**

## I Ümumittifaq Türkoloji Qurultayı 3 mart, səhər iclası

**İclası Ağamalıoğlu yoldaş açır və məruzə üçün yoldaş Jirkova söz verir.**

**Professor Jirkovun məruzəsi**

İndiki halda keçirdiyimiz zaman bir çox qeyri-türklərdə olduğu kimi, türklərin qarşısına vəzifə qoyacaqdı.

Türk xalqları və bir çox başqaları öz milli mədəniyyətlərinin bahar çağındadırlar; onun üçün də yüksək texnika, poliqraf sənayesində duran əlifbaya malik olmaq arzusu durur.

Əlifba yazı üçün bir alətdir. Pis çərtilmiş qələmlə yaxşı yazamazsın; ucu sivri olmayan karandaş da gözəl və asan yazamaz. Demək ki, fəna əlifba ilə də yazı yazmaq mümkün deyildir.

Texniki nöqteyi-nəzərdən əlifbanı 3 əsas hissəyə bölmək olar. Birincisi, oxucunun gözlərinə layiq olması və zərər yetirməməsi; ikincisi, məşhur əlifbanın kağız üzərində şəklidir; üçüncü cəhət isə, asan mənimsəmək, pedaqoji nöqteyi-nəzərdir ki, əhalini tez təlim etmək olar və onlarda asanlıqla bu alətdən istifadə edə bilərlər.

Məruzəçi ərəb və latın əlifbasını bu nöqteyi-nəzərlərdən təsvir edərək göstərir ki, burada müstəsnalıq qazanan latın əlifbasıdır; burada əlifba asancasına fərq edilir və mətbəə texnikasına da əlverişlidir.

Ərəb hərflərinin islahına gəldikdə isə, bu islahlar nə qədər müvəffəqiyyətli olsa da, latın hərflərinin yerini tuta bilmir.

Bunu əsas götürərək Azərbaycanda latın əlifbasının keçirilməsi başladı; digər türk xalqları da bu yola çıxmalıdırlar. Azərbaycanın keçirdiyi təcrübə müvəffəqiyyətli çıxdı.

Jirkov yoldaşın zənninə görə, islah edilmiş ərəb əlifbasını da keçirmək lazım deyildir; belə ki, bir islah ən qiymətli nöqteyi-nəzərdən tərəqqidə islah fikrini axsadır. Biz qatarı bir yol ilə burakmışıqsa, dəmir yol strelkasını dəyişdirirsək, mütləq toqquşma olacaqdır.

Bu strelkayı qatarın getdiyi cəhətə çevirməliyiz.

Sonra qurultay gündəlik məsələlərdən olan "Türk xalqlarının əlifbası" məsələsinə keçir. Bu məsələ xüsusunda birinci olaraq Məhəmməd-zadə yoldaş məruzədə bulunur.

Şiddətli alqışlarla Məhəmməd-zadə kürsüyə çıxır.

* * *

Mətn əlifba məsələsini texniki, pedaqoji və mədəni aspektlərdən təhlil edir. Məruzəçi vurğulayır ki, əlifba yazı üçün əsas alət olduğundan onun oxunaqlılığı, texniki uyğunluğu və asan mənimsənilməsi vacibdir. Ərəb və latın əlifbaları bu meyarlar üzrə müqayisə olunur və latın əlifbasının üstünlüyü önə çəkilir: mətbəə texnikasına uyğunluğu, oxucular üçün əlverişliliyi və təlimdə sadəliyi onu praktik və tərəqqiyönlü edir. Ərəb əlifbasının islahı mümkün olsa da, latın əlifbasının funksionallığını əvəz edə bilmir. Mətn həmçinin Azərbaycanda latın əlifbasının tətbiqinin uğurlu olduğunu, digər türk xalqlarının da bu təcrübəni izləməli olduğunu qeyd edir və əlifba dəyişikliklərinin strateji bir yol kimi həyata keçirilməsinin vacibliyini vurğulayır.

**Məhəmməd-zadə yoldaşın məruzəsi**

Qurultayda qarşımızda terminoloji, orfoqrafiya, ana dili tədrisi metodu məsələləri durur.

Bu göstərilən məsələlərin həlli əlifba haqqında qurultayın nə deyəcəyindən asılıdır.

Bütün Şuralar İttifaqında və xaricdə türk-tatar xalqları öz malları olmayan ərəb əlifbasından qurtulmaq arzu edirlər. Bu xalqların çoxu – azərbaycanlılar, Şimali Qafqaziya vilayət və cümhuriyyətləri, yakutlar yeni türk əlifbası (latın) qəbul etmişlər.

Özbəklər, başqırdlar, Anadolu kəndliləri əski ərəb əlifbasından qurtulmaq və yeni latın əlifbasının qəbulunu istəyirlər.

Türk-tatarların mədəni cəbhəsindəki bu kimi bir hərəkat Oktyabr inqilabının nəticələrindəndir. Əsrlərlə zülm altında yaşayan xalq rus proletariyasının yardımı ilə iqtisadi və siyasi azadlıq alaraq bu inqilabı bütün məlun keçmişin irslərindən də, o cümlədən əski ərəb əlifbasından da qurtulmaq üçün vasitə əldə etdilər.

Fəqət qayət əhəmiyyətli olan bu məsələ iki cərəyan doğurdu: birincisi əski əlifbanın inqilabçılar, ikincisi latın hərfi olan yeni türk əlifbasına keçmək tərəfdarları. Bunlar hər ikisi əsas etibarilə ərəb əlifbasının türk-tatar xalqlarının fonetikasına uyğun olmadığını etiraf edirlər. Ərəb əlifbası nöqtələri, baş hərfləri, zəbərləri, zirləri ilə geniş zəhmətkeş kütlənin savadsızlığının texniki ləğvinə mane olur. Bunun üçün də ziyalı və keçmişdə ruhanilərin malı olub qalmışdı. Beləliklə, yeni yollar axtarılmağa başlandı.

İslahçılar on illərdən bəri on dəfələrlə islahları ilə ufak-təpək şeylər əldə etmişlərdir. Bunlar türk dilinə lazım olmayan bəzi hərfləri atdılar və dördsəsli hərfin yerinə ikisini qəbul etdilər. Bununla onlar əski ərəb əlifbasından, onun nöqtələrindən, soldan sağa yazmalarından qurtulamadılar. Türk dilində olan səsli hərflər üçün lazımi qədər ərəb əlifbasında hərf yoxdur.

Bundan başqa, ərəb əlifbası əsasında qalarsaq, terminoloji, orfoqrafi və ana dili tədris metoduna da əngəl törənər.

**Yeni türk əlifba tərəfdarları isə əski əlifbadan əl çəkməklə və latın əlifbasının qəbulu ilə bu nailiyyətləri əldə etmişlər:**

*1. Yeni türk əlifbasında türk-tatar dilinə lazım olan səsli hərflər vardır.*

*2. Bu əlifba nöqtəsiz və başqa işarətsizdir.*

*3. Soldan sağa yazılır. Bununla geniş türk kütləsini tez zamanda Avropa mədəniyyətinə yetişdirmək olar.*

*4. Musiqi not yazıları yazıla bilir.*

*5. Ayrı-ayrı hərf vahidləri 120-dən 30 hərfə endirilmişdir.*

*6. Geniş əhali kütləsinin savadsızlığının ləğvi işi yüngülləşmişdir. Məsələn, ərəb əlifbası ilə 6-8 ayda savadlı olan uşaq və yaşlılar yeni əlifbada çoxu 3-4 ayda ləğv edirlər.*

Nəhayət, məruzəçi Şərqdən ayrılacağız və bu kimi sözlər danışan islahçılardan danışaraq deyir ki, biz burada əlifba məsələsinin həlli zamanı kütlədən ayrılmış bir ovuc ziyalını deyil, orta hesabla 90 faiz savadsız olan türk zəhmətkeş kütlə nəzərdə tutulmalıdır.

Azərbaycanda yeni əlifbanın məzhər olduğu nailiyyətdən danışaraq, məruzəçi "Yeni yol" qəzetinin 6.000 abunəçisi olduğunu demişdir. Bu qısa zaman sərfində işçi, kəndli və qızıl ordu arasından 70.000 savadsız işçi savadlanmışdır. O mənimsənilmiş ərəb əlifbasından 70-80 faiz artıq tezdir.

* * *

Mətn Türkoloji Qurultayda əlifba məsələsinin türk-tatar xalqlarının mədəni, pedaqoji və terminoloji inkişafı ilə bağlı strateji əhəmiyyətini vurğulayır. Burada əsas məsələ ərəb əlifbasının türk dillərinin fonetikasına uyğun olmaması, nöqtələr və diakritik işarələrin geniş xalq kütləsi üçün oxunma və təlim çətinliyi yaratmasıdır. Mətn göstərir ki, islahçılar tərəfindən aparılan cəhdlər səthi dəyişikliklərdən ibarət olmuş, lakin türk dilinin səs sisteminə uyğun effektiv həll təmin etməmişdir. Latın əlifbasının qəbulunun əsas arqumenti həm texniki uyğunluğu, həm də geniş kütlənin savadsızlıq səviyyəsini aradan qaldırmaq və elmi, pedaqoji inkişafı sürətləndirmək qabiliyyətidir. Mətn eyni zamanda, Oktyabr inqilabının türk-tatar xalqlarının mədəni modernləşməsinə və əski əlifbadan qurtulmasına vasitə yaratdığını göstərir, eyni zamanda, yeni türk (latın) əlifbasının praktik və pedaqoji üstünlüklərini sistemli şəkildə təqdim edir. Əlifbanın türk dillərinin səs quruluşuna uyğunluğu, nöqtəsiz və sadə olması, soldan sağa yazılması kimi xüsusiyyətlər geniş kütlənin savadsızlığını aradan qaldırmaq və Avropa mədəniyyətinə uyğunlaşmasını sürətləndirmək üçün önə çəkilir. Həmçinin musiqi notları kimi texniki tətbiqlərə uyğunluğu, hərf sayının 120-dən 30-a endirilməsi və təlim müddətinin qısalığı vurğulanır. Məruzəçi bildirir ki, əlifba dəyişiklikləri yalnız ziyalıların yox, 90 faizi savadsız türk zəhmətkeş kütləsi üçün nəzərdə tutulmuşdur. Azərbaycanda tətbiq nümunəsi konkret statistika ilə dəstəklənir: yeni əlifba ilə savadlanma ərəb əlifbasına nisbətən 70–80 faiz daha sürətlidir, bu da onun effektivliyini və mədəni transformasiyadakı rolunu göstərir.

**Əlimcan (Alimcan) Şərəfin məruzəsi**

Sonra məruzədə bulunmaq üçün söz Tatarıstan cümhuriyyəti müməssili və islah edilmiş əlifba tərəfdarı Əlimcan Şərəfə verilir.

Ərəb və latın hərflərinin müqayisəsi belə bir nəticə verir: indiki halda Qərbi Avropada işlənən latın əlifbası türk xalqlarının əsas səslərinin 47, yaxud 50 faizini təmin edir. Digər tərəfdən ərəb əlifbası şimal türk xalqlarına ehtiyacları üçün bütünlüyü ilə mal olmuşdur. Azərbaycan və Türkiyəyə gəldikdə mükəmməl bir fonetik arfoqrafi üçün bu və ya digər arfoqrafi sisteminin qəbulundan asılı olaraq, 3 və ya 6 səsli hərf əlavə etmələri lazım gəlir.

Ərəb sistemi oxuma və yazı işində latın əlifbasına nisbətən 25-dən 30 faizə qədər sürət verir. Mətbəə texnikası xüsusunda əski ərəb əlifbası latına güzəşt gedə bilirsə, yeni islah edilmişlər bəzən latın sisteminə tajik olur.

Azərbaycan və Türkiyə üçün orfoqrafinin çətinliyi məsələsinə gəldikdə onu ərəb sistemi ilə bitərəf etmək olar. Bu kimi hadisə tatar, kazak, başqırd və başqa türk cümhuriyyətlərində də olmuşdur.

Şərəf yoldaş öz məruzəsini bitirərək deyir ki, hərfləri kütlənin həqiqi müdafiəsi olmadan dəyişmək mümkün deyil; bu müdafiə də həqiqi əsassız olmaz.

* * *

Mətn əlifba məsələsini fonetik, orfoqrafik və pedaqoji baxımdan müqayisəli şəkildə təqdim edir. Tatarıstan nümayəndəsi Əlimcan Şərəf vurğulayır ki, latın əlifbası türk xalqlarının əsas səslərinin təxminən 47–50 faizini təmin edir, ərəb əlifbası isə şimal türk xalqları üçün daha tam olsa da, Azərbaycan və Türkiyədə əlavə səsli hərflərin daxil edilməsinə ehtiyac var. Ərəb sistemi ilə oxuma və yazı işində sürət latın əlifbasına nisbətən 25–30 faiz daha aşağıdır və mətbəə texnikası baxımından da əlverişlilikdə çatışmazlıqlar mövcuddur. Məruzəçi nəticə olaraq qeyd edir ki, əlifba dəyişiklikləri yalnız geniş kütlənin dəstəyi ilə, onların həqiqi maraqları nəzərə alınmaqla həyata keçirilə bilər, əks halda, bu dəyişikliklər effektli olmayacaqdır.

## Yeni əlifbanın qələbəsi (3 mart, axşam iclası)

Axşamkı iclasda Jirkof və Yakovlev səhərki məruzlərinin çoxdan bəri gözlənən əlifba məsələsi ilə sıx əlaqədar olmasından canlı bir əhval-ruhiyyə vardı. Qurultay 4 gündür ki, davam edir. Burada bir çox böyük alimlərin məruzələri dinlənildi. Türk dillərinin yafisilərlə əlaqədar olaraq etnoqrafisini öyrənmək məsələsi kibi dar akademik məsələ qurultayda bir akademik ruhu törətmişdi.

Bu gün isə qurultay ən canlı və hər kəsi həyəcana gətirən əlifba məsələsindən danışmağa başladı. Yalnız imdi akademiklər, professorlar və mərkəz işçiləri təəssüflərlə etiraf etdilər ki, Orta Asiya bozqırları, uzaq Yakutıstan tundraları və ruslaşmış Edil boyu kibi məhəllərdə türkolojinin böyük nailiyyətlərə məzhər olduğu ilə tanış olmamışlar. Azərbaycan məruzəçisi, yeni əlifba tərəfdarı. Məhəmmədzadə yoldaşın və islahçı olan, Tatarıstan cümhuriyyətinin müməssili Alimcan Şərəfin məruzəsini qurultay dinlər-dinləməz 40 natiq adlarını yazdırdılar.

Əlifba məsələsini birinci gün müzakərəsində 6 ilavə məruzəçi buna rəy verdi. İştə bu günün yeni əlifbanın birinci qələbəsi günü saymaq olar. Alimcan Şərəfin islah edilmiş ərəb əlifbasının nailiyyətləri haqqında uzun və sıxıcı məruzəsi heç bir ruh yüksəkliyinə səbəb olamadı.

Bununla bərabər, yeni əlifba tərəfdarlarının nitq söylədikləri zaman salonu dolduran atəşin gözləri və parlaq yüzləri görmək, bunun xalqlar üçün nə qədər əziz olduğunu anlatırdı. Yeni əlifbayı qəbul edənlərin Avropa elmini, dünya mədəniyyətini özlərinə qəbul edilmiş kibi düşünülürdü.

R.S.K.Ş.C. Mərkəzi nəşriyyat idarəsi müməssili Türyakulof Tatarıstan cümhuriyyəti islahçılarını tənqid edərək dedi ki, "baş hərf" deyilən yazının sadələşməsi sistemi tam məğlubiyyətə məruz qaldı. Bu məğlubiyyəti qurultayda olan sərgi açıqcasına göstərə bilər. Bu baş hərf yalınız birinci səhifədə qala bilir. İçərilərdə isə onlar ərəb yazısı, qanunlarının çərçivəsinə girərək təkrar əski hala dönməyə məcbur olur.

Şimali Kafkasia türk xalqları, birliyi müməssili Ömər Əliyef ərəb əlifbasını tənqid edərək onun öyrənilməsi və tətbiq edilməsində bir çox çətinliklər baş verdiyini gəstərdi. Ömər Əliyef tarixdən lətifələr gətirdi. Bundan əlavə, Türkyədə hərbi məqsədlə alman xəritələrindən istifadə edildiyini də irəli sürdü.

Sonrakı məruzəçi Əmir Bərdi (Türkmənistan) dedi: Latın əlifbasının israrlığını inkar etməyə gəlməz. Məsələn, Azərbaycanda o həyatiliyini sübut etdi.

Bu bəyanat alqışlarla qarşılanır. Sonra ərəb və latın yazısının halını təsvir edərək göstərdi ki, ərəb əlifbası istilahçıları əlifbayı sadələşdirmək deyil, daha da çətinləşdirmələr. "Artıq yeni yollar axtarmağa dəyməz, o tapılmışdır". (aidətli alqışlar) sonra Kazan nümayəndələri müməssili Alimcan İbrahimof təyin olunmuş reqlamentdən artıq söz olaraq dedi ki, Tatarıstan cümhuriyyəti yeni latın əlifbası əleyhinə əsas etibarı ilə zidd deyildir.

Bu bəyanat alqışlarla qarşılanır.

Sonra İbrahimov deyir ki, ərəb əlifbası ilə ədəbiyyat sahəsində böyük nailiyyətlər əldə edəməyən türk cümhuriyyətlərindən yeni əlifbanın keçirilməsi əqlə müvafiqdir.

İbrahimof öz platformasını göstərməklə dedi ki, əski ərəb əlifbası yaramır (alqışlar), bundan qurtulmaq üçün iki yol vardır. Biri islah, biri də inkilab metodudur. "Əlifba məsələsində biz islah metodu tərəfdarıyız".

Fəqət əlifba inqilabının vaxtı da çatmışdır. Onun qızıl ordusu Azərbaycan Mədəniyyət Sarayının ağ salonunda öz cəbhəsini möhkəmlədir; heç bir nəzəri maneələrdə yeni əlifbanın qabiliyyətə doğru gedən yolunu kəsəməz; bununla bu əlifba Azərbaycanın milyonlarca zəhmətkeş kütləsinə ümumbəşəri mədəniyyət yolunu göstərir. Bu göstərişlə onlar böyük müəllim İliçin vəsiyyət etdiyi kibi xalqların yeni sosialist əməkdaşlığı yolu ilə getdikdə öz milli varlıqlarını itirməyəcəklər.

**V. Vasif**

* * *

Axşamkı iclas Türkoloji Qurultayda əlifba məsələsinin mərkəzə çıxmasını və iştirakçılarda yüksək ruhiyyə yaratmasını göstərir. Səhərki məruzələr akademik baxımdan faydalı olsa da, ruhyüksəkliyi yaratmayıb, əsas diqqət yeni latın əlifbasının tətbiqi və onun praktik üstünlüklərinə yönəlib. Azərbaycan və Tatarıstan nümayəndələrinin məruzələri yeni əlifbanın faydalarını vurğulayaraq Avropa elminə inteqrasiyanı təmin etməsini göstərib. Ərəb əlifbasının çətinlikləri, öyrənilməsinin və tətbiqinin problemli olması tənqid olunub. Yeni əlifbanın üstünlüyü – sadələşmiş, oxunması və yazılması asan, savadsız kütlənin qısa zamanda öyrənə biləcəyi sistem vurğulanır. Məruzələr göstərir ki, latın əlifbası yalnız nəzəri deyil, həm də praktik olaraq türk xalqları üçün effektiv və zəruri hesab olunur. Bəyanatlar alqışlarla qarşılanır, bu da iştirakçıların yeni əlifba ilə razılaşdığını göstərir. Məruzəçilər ərəb və latın əlifbalarını müqayisə edərək ərəb əlifbasının sadələşdirilməsinin yetərli olmadığını, əksinə, onu çətinləşdirdiyini vurğulayır. Kazan nümayəndəsi Alimcan İbrahimof bildirir ki, Tatarıstan cümhuriyyəti yeni latın əlifbasına qarşı çıxmır və ərəb əlifbası ilə ədəbiyyat sahəsində yetərli nailiyyət əldə edilmədiyi üçün yeni əlifbanın tətbiqi zəruridir. İbrahimof iki yol göstərir: islah metodu və inqilab metodu. O, islah metodunu tərəfdar hesab edir, amma əlifba inqilabının vaxtının çatdığını vurğulayır. Yeni əlifbanın tətbiqi Azərbaycan mədəniyyət mərkəzində möhkəmlənir və milyonlarla zəhmətkeş kütlənin ümumbəşəri mədəniyyət yoluna çıxmasını təmin edir. Eyni zamanda, bu, xalqların milli varlığını itirmədən sosialist əməkdaşlıq çərçivəsində inkişafını təmin edən bir addım kimi təqdim olunur.

Qısaca: əlifba inqilabının qaçılmaz və vacib olduğunu, ərəb əlifbasının artıq türk-tatar xalqlarının ehtiyaclarına cavab vermədiyini və yeni latın əlifbasının həm praktik, həm də mədəni cəhətdən üstün olduğu vurğulanır.

## "Yeni yol" qəzeti 4 mart səhər iclası (Əlifba haqqında məruzə üzərinə mübahisə)

***On ikinci iclas Cəbiyevin sədrliyi ilə aparılır. İclasda türk xalqları əlifbası haqqında Fərhad Ağazadənin məruzəsi üzərinə mübahisəyə baxılır.***

Mübahisə bu aşağıda qoyulan mübahisələr dairəsində idi. Ərəb əlifbasının olan nöqsanlarının tamamən bərtərəf olunması üzrə islahı mümkündürmü? Hər gah bu əlifba da bərtərəf ediləcək nöqsanlara maliksə, bir çıxılmaz yoldan digərinə düşmək müvafiqdirmi?!

Ən müvafiqi keçmişin ədəbi abidələrində və dini kitablarda buna toxunmayaraq, yeni mədəniyyət üçün elm və fənni bütün tələblərinə cavab verə biləcək yeni latın əlifbası qəbuludur.

Sonra Abidov, Ayaz Maqsudov və İnoqamov cıxışda bulunur.

Sonuncu natiq yeni əlifbanı müdafiə etmək üzrə Özbəkistan adından çıxışda bulunaraq Tatarıstan nümayəndələrinin çıxışlarındakı təzadı və dağınıqları göstərir. O, ərəb əlifbasının yeni əlifba ilə əvəz edilməsi məsələsində onların müəyyən və möhkəm cəbhəyə malik olmadıqlarını göstərir.

Sonra Sultan-Məcid Əfəndiyev çıxışda bulunaraq ərəb əlifbası tərəfdarlarının yeni latın əlifbası əleyhinə çıxışlarının əsaslı olmadığını sübut edir.

Müsavatçılar kimi əlifbanın dəyişməsinin ən müfrit əleyhdarları onlara gəldikdə, bunlar bu islahın şərəfinin Şura hökumətinə düşməməsi üzrə sinif təsəvvüratından irəli gələrək danışırlar.

Latın əlifbası əleyhdarlarının yeni əlifba qəbulu ilə biz Şərqdən ayrılaq deyə irəli sürdükləri subutlardan danışaraq natiq deyir ki, İran və Əfqanıstan kimi Şərq məmləkətləri onsuz da bizdən mədəniyyət sahəsində geridirlər.

Sonra Eyvazov, Xalid Səid və Baytusun yoldaşlar çıxışda bulunmuşlar. Sonuncu natiq latın əlifbasına qarşı çıxaraq göstərir ki, qazaxların kullandıkları əlifba bütün ehtiyaclarını təmin edir və yenisini qəbul etməyə də ehtiyac yoxdur.

Alimcan İbrahimofu, onun yarımçılığı üzrə şiddətli tənqid ilə professor Çobanzadə çıxışda bulunur. Sonra yakutların müməssili Baratov yoldaş çıxışda bulundu və yakutların coğrafi vəziyyətcə türk-tatar xalqlarından uzaq olmasına baxmayaraq, qurultay işlərini təqib etdiklərini söylədi.

* * *

**On ikinci iclasın əsas mövzusu:** türk xalqlarının əlifbası və ərəb əlifbasının islahı məsələsi. Fərhad Ağazadənin məruzəsi üzərində mübahisələr aparılır. Müzakirələr əsasən belə suallar ətrafında cərəyan edir:

**Ərəb əlifbasının islahı mümkündürmü?** – Ərəb əlifbasında qüsurların tam aradan qaldırılması çətin hesab olunur. Hər dəfə islah ediləcək olsa da, yenə nöqsanlar qalır.

**Yeni latın əlifbasının üstünlükləri:** ədəbiyyat və dini kitabların qorunması ilə yanaşı, elm və fənn sahəsində bütün tələblərə cavab verə biləcək əlifba kimi təqdim olunur.

**Çıxış edənlər və mövqeləri:** Abidov, Ayaz Maqsudov və İnoqamov çıxış edir; İnoqamov Özbəkistan adından çıxış edir və Tatarıstan nümayəndələrinin dağınıq mövqeyini göstərir, ərəb əlifbasının yeni əlifba ilə əvəz edilməsində konkret və möhkəm cəbhə qura bilmədiklərini bildirir; Sultan-Məcid Əfəndiyev ərəb əlifbası tərəfdarlarının yeni latın əlifbası əleyhinə çıxışlarını əsassız sayır; latın əlifbası əleyhdarlarının arqumentləri: islahın Şura hökumətinə şərəf gətirməməsi, sinfi maraqlardan irəli gələn qorxular. Eyvazov, Xalid Səid və Baytusun çıxış edərək məsələyə müxtəlif yanaşmalar göstərir. Baytusun qazaxların istifadə etdiyi əlifbanın yetərli olduğunu, yenisini qəbul etməyə ehtiyac olmadığını bildirir. Professor Çobanzadə Əlimcan İbrahimovu və onun mövqeyini tənqid edir. Yakut nümayəndəsi Baratov coğrafi uzaqlığa baxmayaraq, qurultayın işlərini izlədiklərini bildirir.

**Ümumi mənzərə:**

– İclas ərəb əlifbasının islahının qeyri-kafi və yeni latın əlifbasının isə praktiki və mədəni üstünlüklərinin vurğulanması ilə xarakterizə olunur.

– Mübahisələr həm texniki, həm də ideoloji aspektləri əhatə edir; bəzi nümayəndələr islah tərəfdarı olsa da, yeni əlifbanın qəbuluna üstünlük verilir.

Bu iclasda **latın əlifbasının qəbulunun zəruriliyi və ərəb əlifbasının qeyri-kafi olması** əsas arqument olaraq irəli sürülür, eyni zamanda, coğrafi və milli fərqliliklər nəzərə alınır.

## Balkar kəndlilərinin sədası

Qırğızıstan müməssili Tınıstanov və balkarlar müməssili Yılişev yoldaş latın əlifbasını müdafiə etmək üzrə çıxışda bulundular.

Sonuncu çıxan adi bir kəndli olmaqla dil biliyindən də məlumatsız deyildi: "Yoldaşlar, bir şeydən qorxmamalıyız; bir çox hadisələr keçirdik və çoxlarında da qalib gəldik. Biz vətəndaş müharibəsində, aclıqda və başqa təbii bəlalarda da qalib gəldik. Biz indi mədəni cəbhədə də qələbə çalmalı və bu qalibiyyət üçün doğru yol bulmalıyız".

***(ardı var)***

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına***
***Dilçilik İnstitutunun direktoru,***
***filologiya elmləri doktoru, professor***

*İsa İsmayılzadə – 85*

# “Söz həsrəti”nin yaşatdığı unudulmaz şair




**Azərbaycan Yazıçılar Birliyində ədəbiyyat tariximizdə silinməz izlər qoymuş “altmışıncılar” ədəbi nəslinin dərin zəkalı, incə duyğulu qələm sahibi, şair, publisist, tərcüməçi, redaktor İsa İsmayılzadənin 85 illik yubileyinə həsr edilmiş “Söz həsrəti” kitabının təqdimatı mərhum sənətkarın yaradıcılığına və xatirəsinə sevgi-sayğı ilə keçdi.**

Mərasimi giriş sözü ilə açan Yazıçılar Birliyinin katibi Elçin Hüseynbəyli novator şair, milli təəssübkeş, Xalq şairi Rəsul Rzanın adı ilə bağlı poetik məktəbinin istedadlı davamçılarından sayılan İsa İsmayılzadənin 56 yaşında dünyasını dəyişməsinin söz sənətimizdə ciddi itki olmasını, bu nisgilin şairin pərəstişkarlarında mənəvi ağrı yaratdığını, solmaz xatirəyə və dərin ehtirama çevrildiyini söylədi. O qeyd etdi ki, İsa İsmayılzadənin çağdaş poeziyamızda yeni söz, təravətli nəfəs olan yaradıcılığı barədə görkəmli söz adamlarının şairin sağlığında yazdıqları, söylədikləri dəyərli fikirlərin, xatirəsinə həsr edilmiş şeir və yazıların, poeziyasından seçmələrin daxil edildiyi bu toplu mərhum sənətkarın kimliyini yeni nəsillərə çatdıran gərəkli bir mənbə kimi onun 85 illik yubileyinə layiqli töhfədir.



Yazıçılar Birliyinin şöbə müdiri, ədəbiyyatşünas Əsəd Cahangir yubiley nəşri barədə ətraflı məlumat verərək yazıçı-tərcüməçi Nəriman Əbdülrəhmanlıya (tərtibçi), filologiya elmləri doktoru, professor Bədirxan Əhmədliyə (rəyçi), şair Nurafizə (redaktor) və şairin oğlu Araz İsmayılzadəyə (məsləhətçi) İsa İsmayılzadə irsinə yeni məzmun və xatirəsinə növbəti sevgi qazandıran mükəmməl bir nəşr ərsəyə gətirdiklərinə görə iştirakçıların və qədirbilən oxucuların təşəkkürünü çatdırdı.

Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar İsa İsmayılzadəni milli ədəbiyyatımızın ən yaxşı ənənələri ilə tərbiyələnmiş, onu modern düşüncə və əlvan duyğularla zənginləşdirmiş bənzərsiz bir şair kimi səciyyələndirdi. O, təravətini itirməyən poetik irsin və unudulmaz xatirələrin yubilyarı daim onun qəlbində yaşatdığını söylədi.

Yazıçılar Birliyi sədrinin müavini, şair-publisist Rəşad Məcid İsa İsmayılzadənin poeziyasının özündən sonrakı nəslin yaradıcılığına önəmli təsir göstərdiyini, onları yeni yaradıcılıq axtarışlarına yönləndirdiyini bildirdi.

Ədəbiyyatşünaslar Vaqif Yusifli və Rüstəm Kamal, yubilyarın sənət dostları Seyran Səxavət, Zakir Fəxri, Umud Rəhimoğlu, Ağacəfər Həsənli, Nazim Əhmədli, Tahir Aydınoğlu və digər çıxış edənlər İsa İsmayılzadə şeiriyyətinin özəlliyindən, poeziyamızdakı dəyərindən söz açdılar, onunla bağlı xatirələrini söylədilər.

Şairin oğlu Araz İsmayılzadə atasının yubileyinin qədirbilənliklə qeyd edilməsinə, xatirəsinin əziz tutulmasına görə ailələrinin dərin razılığını çatdırdı.

***T.RÜSTƏMLİ***
***XQ***

# “Bakı Marafonu 2026”da mükafatlandırma mərasimi




**Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən “Bakı Marafonu 2026”da mükafatlandırma mərasimi olub.**

Marafonun “Sea Breeze” ərazisindəki finiş zonasında qaliblərə medalları Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva təqdim edib.

Mərasimdə, həmçinin Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov və “Agalarov Development” şirkətinin prezidenti Emin Ağalarov iştirak ediblər.

Ardınca xatirə şəkli çəkdirilib.

Marafonda finiş xəttinə kişilər arasında ilk çatan idmançı Türkiyədən Əhməd Alkanoğlu olub. İkinci yerdə ukraynalı yarışçı Vitaliy Şafar, üçüncü yerdə isə Qırğızıstan təmsilçisi Yrskeldi Akerov qərarlaşıb.

Qadınların mübarizəsində Rusiyadan Elena Tolstıx birinci, Azərbaycandan Anna Yusupova ikinci, Qazaxıstandan Şirin Akimbay üçüncü yerin sahibi olub.

Qeyd edək ki, bu il “Bakı Marafonu” ilk dəfə olaraq 21 kilometrlik məsafədə deyil, tam 42 kilometrlik marşrutda keçirilib. Marafona 25 min iştirakçı qatılıb.

# Leyla Əliyeva və Arzu Əliyeva Beynəlxalq Xalça Festivalını ziyarət ediblər




**Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva İçərişəhərdəki Qoşa Qala meydanında keçirilən Beynəlxalq Xalça Festivalını ziyarət ediblər.**

Onlar festivalda nümayiş olunan xalça nümunələri, ənənəvi sənətkarlıq məmulatları, eləcə də müxtəlif ölkələrin milli tətbiqi-dekorativ sənət nümunələrinin sərgiləndiyi pavilyonlarla tanış olublar.

Daha sonra onlar festivalda iştirak edən yerli və xarici qonaqlarla xatirə şəkilləri çəkdiriblər.

# Buraxılış imtahanlarında ingilis dili sınağı




**Müasir təhsil sistemi düşündüyünü səlis şəkildə ifadə edə bilən, təhlil aparan və öz fikrini əsaslandırmağı bacaran gənclər yetişdirmək məqsədi daşıyır. Bu baxımdan imtahanlar şagirdlərin məntiqi təfəkkürünü, dünyagörüşünü və bacarıqlarını üzə çıxaran mühüm mərhələdir.**

Təhsil sahəsində aparılan yenilik və dəyişikliklər isə birbaşa gənc nəslin formalaşmasına və onların təhsil həyatına böyük təsir göstərir. Məhz bu səbəbdən imtahan sistemində edilən hər bir dəyişiklik şagird, müəllim və valideynlər üçün xüsusi maraq doğurur. Belə dəyişikliklərdən biri də Dövlət İmtahan Mərkəzinin (DİM) tam orta təhsil səviyyəsi (11 illik) üzrə xarici dil imtahanlarına esse yazı işini də əlavə etməsidir.

Qərara əsasən, 2027-ci ildən buraxılış imtahanlarında xarici dil fənni üzrə şagirdlərin yazı bacarıqları da qiymətləndiriləcək. Bu isə o deməkdir ki, imtahanverənlər təkcə test tapşırıqlarını cavablandırmayacaq, həm də öz fikirlərini yazılı şəkildə ifadə edəcəklər.

İmtahan 26 tapşırıqdan ibarət olacaq. Bunlardan 25-i qapalı tipli test tapşırığı, 1-i isə yazı işi olacaq. Dinləyib-anlama bacarıqları üzrə şagirdlərə 4 qapalı tipli tapşırıq təqdim ediləcək. Oxu bacarığı iki hissədə yoxlanılacaq və bu bölmə üzrə, ümumilikdə, 8 test tapşırığı veriləcək. Qrammatika bölməsi üzrə isə 13 test tapşırığı nəzərdə tutulub. Yazı bacarığı ayrıca bir tapşırıq vasitəsilə qiymətləndiriləcək. Bundan əlavə, gələn ildən xarici dillər üzrə yeni imtahan modelinin tətbiqi çərçivəsində şagirdlərə 15 dəqiqə əlavə vaxt veriləcək.

Mütəxəssislər hesab edirlər ki, yazı bacarığının imtahana daxil edilməsi xarici dil biliklərinin daha kompleks şəkildə qiymətləndirilməsinə imkan yaradacaq. Çünki dil öyrənmək yalnız sözləri və qaydaları bilmək deyil, həmin bilikləri düzgün şəkildə tətbiq etmək, fikri aydın və məntiqli formada çatdırmaqdır.

Bu proses beynəlxalq imtahan modellərinə kifayət qədər yaxın hesab olunur. Məsələn, IELTS sistemində “yazı” bölməsi imtahanın əsas hissələrindəndir. Burada namizədlər iki yazı tapşırığı yerinə yetirirlər. Birinci tapşırıqda qrafik, cədvəl və ya diaqram analiz olunur, ikinci tapşırıqda isə iştirakçıdan esse yazmaq tələb edilir. Esse hissəsində mövzuya münasibət bildirmək, arqument irəli sürmək və fikri əsaslandırmaq vacibdir. Bu bölmə üçün, ümumilikdə, 60 dəqiqə vaxt verilir və ikinci yazı tapşırığı ümumi nəticəyə daha çox təsir edir.

Educational Testing Service tərəfindən keçirilən TOEFL iBT (Test of English as a Foreign Language) imtahanında da yazı bölməsi əsas qiymətləndirmə mərhələlərindəndir. Birinci mərhələdə iştirakçı əvvəlcə mətn oxuyur, dinləyir və daha sonra bunları analiz edib yazılı şəkildə cavab verir. İkinci mərhələdə isə öz fikrini akademik müzakirəyə yazılı formada təqdim edir. TOEFL imtahanında yazı bölməsi, təxminən, 29 dəqiqə davam edir və cavablar həm süni intellekt, həm də ekspertlər tərəfindən qiymətləndirilir.

Beynəlxalq sertifikat imtahanları ilə yanaşı, bir sıra Avropa ölkələrinin məktəb buraxılış sistemində xarici dil üzrə yazılı tapşırıqlar mövcuddur. Məsələn, Almanyada abituriyentlərin imtahanlarında xarici dil üzrə esse və mətn analizi geniş tətbiq olunur. Fransada bakalavriat sistemində şagirdlərdən xarici dildə yazılı fikir bildirmələri tələb olunur. Böyük Britaniyada isə General Certificate of Secondary Education (Ümumi Orta Təhsil Sertifikatı) və Advanced Level (General Certificate of Education Advanced Level) (İrəli Səviyyə) imtahanlarında yazı bacarığı dil biliklərinin əsas göstəricilərindən sayılır.

Beynəlxalq mütəxəssislər hesab edirlər ki, yazı tapşırığı xarici dil biliyinin daha obyektiv qiymətləndirilməsinə imkan yaradır. Bu baxımdan Azərbaycanda tətbiq olunacaq yeni model dünya təcrübəsinə uyğun addım kimi qiymətləndirilə bilər.

**Bu barədə təhsil məsələləri üzrə mütəxəssis Elçin Əfəndi qeyd etdi ki, abituriyentlər ali təhsil müəssisələrinə qəbul olduqdan sonra, xüsusilə I kursda əksər hallarda ingilis dili fənnini yenidən öyrənirlər və bu mərhələdə onlardan imtahanlarda esse yazmaq tələb olunur:**



– Bu baxımdan şagirdlərin xarici dildə esse yazmaq vərdişlərinə hələ orta məktəb dövründən yiyələnməsi daha məqsədəuyğundur. Çünki bu bacarıqlar onların gələcək akademik və peşəkar həyatında mühüm rol oynayacaq. Tələbələr ali təhsillərini davam etdirmək, magistratura və digər yüksək təhsil pillələrinə keçmək istədikdə də onlardan xarici dildə yazı bacarıqları, o cümlədən esse tələb edilir. Bu baxımdan yazı vərdişlərinin əvvəlcədən formalaşdırılması gələcəkdə onların həm imtahan prosesində, həm də akademik fəaliyyətlərində işini asanlaşdıracaq.

Eyni zamanda, tələbələrin yeni elmi və tədris vəsaitlərinə çıxış əldə etməsi baxımından da xarici dil bacarıqları xüsusi əhəmiyyət daşıyır. Məlumdur ki, ana dilimizdə bütün sahələr üzrə kifayət qədər geniş və müasir vəsait bazası mövcud deyil. Buna görə də təhsil prosesində daha çox ingilis, rus, alman, fransız və digər xarici dillərdə olan mənbələrə üstünlük verilir. Bu isə tələbələrin həmin mənbələrdən səmərəli istifadə edə bilməsi üçün güclü dil bacarıqlarına sahib olmasını zəruri edir. Məhz buna görə də abituriyentlərin xarici dil biliklərinin danışıq, yazı, dinləmə bacarıqları əsasında qiymətləndirilməsi vacib hesab olunur. Bu yanaşma dil biliklərinin daha real və hərtərəfli ölçülməsinə imkan yaradır.

Ən vacib məqamlardan biri isə düzgün, obyektiv və şəffaf qiymətləndirmə mexanizminin qurulmasıdır. Xüsusilə yazı tapşırıqları kimi subyektiv yanaşma ehtimalı olan bölmələrdə qiymətləndirmə meyarlarının aydın və dəqiq olması böyük əhəmiyyət kəsb edir. Qeyd edək ki, vaxtilə magistratura imtahanlarına essenin əlavə edilməsi buraxılış imtahanlarına təsirsiz ötüşmədi. Son illərin statistikası göstərir ki, xüsusilə maksimum bal toplayan namizədlərin sayında müəyyən azalma müşahidə olunur. Bu baxımdan, əlavə dəyişiklik olaraq magistratura da imtahan modelinə speaking (danışıq) komponentinin əlavə edilməsi nəticələrə müəyyən təsir göstərəcək. Bu dəyişiklik növbəti illərdə magistratura istiqamətində ixtisaslar üzrə formalaşan keçid ballarında da öz əksini tapa bilər. Yəni keçid ballarında minimum 1–2, bəzi hallarda isə 4–5 bala qədər dəyişiklik baş verməsi mümkündür.

Bununla belə, esse, eləcə də dinləmə və danışıq bacarıqlarının qiymətləndirilməsi olduqca vacibdir. Çünki təhsilin növbəti pilləsi olan magistratura elmi-tədqiqat yönümlü bir mərhələdir və burada tələbələrin yazı, analiz və kommunikasiya bacarıqları da mühüm rol oynayır. Xüsusilə magistratura pilləsində təhsil alan şəxslərin seçdikləri ixtisas üzrə tədqiqat işləri aparması, elmi mənbələrlə işləməsi və xarici dildə olan ədəbiyyatlardan səmərəli istifadə etməsi vacib şərtlərdəndir. Bu imkanların geniş olması isə birbaşa xarici dil biliklərinin səviyyəsindən asılıdır. Ona görə də yazı, dinləmə və danışıq bacarıqlarının imtahanlarda yoxlanılması gələcək elmi fəaliyyət üçün mühüm əhəmiyyət daşıyır.

İmtahan sistemlərində aparılan dəyişikliklər daha geniş şəkildə dəyərləndirilməlidir. Çünki mövzu artıq əsas sual “şagird nəyi bilir?” deyil, “bildiyini necə istifadə edə bilir?” formasına keçməkdədir. Bu baxımdan xarici dil imtahanlarında yazı bacarığı kimi komponentlərin önə çıxması, əslində, şagirdi daha çox informasiya qəbul edən tərəfdən, düşünən və yaradan bir subyektə çevirmək məqsədi daşıyır. Burada diqqətçəkən başqa bir məqam da var. Bu dəyişikliklərin dəyəri yalnız onların necə tətbiq edildiyi ilə yox, həmin dəyişikliklərə verilən hazırlıqla ölçülməlidir. Yəni yeni qayda nə qədər müasir və səmərəli olsa da, onu qarşılayan təhsil mühiti də bütün proseslərə uyğunlaşdırılmalıdır. Çünki əsl dönüş sinif otağından başlayır.

***Ləman TƏHMƏZ***
***XQ***

# Leyla Əliyeva “Azərbaycan təbiətinin izi ilə” sərgisinin açılış mərasimində





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva “Explore Azerbaijan with IDEA” layihəsi çərçivəsində Dənizkənarı Milli Parkda keçirilən “Azərbaycan təbiətinin izi ilə” adlı sərginin açılış mərasimində iştirak edib.**

Sərgidə layihənin fotoqraf və videoqrafı Saleh Baxşiyev tərəfindən Azərbaycanın müxtəlif milli parklarında lentə alınan 30 fauna növünə aid fotoşəkillər nümayiş olunur. Təqdim edilən fauna növlərinin böyük hissəsi Azərbaycanın “Qırmızı Kitabı”na daxil edilib.

Leyla Əliyevanın təşəbbüsü ilə təşkil olunan sərgi IDEA İctimai Birliyi, Dənizkənarı Bulvar İdarəsi və Bakı Zooloji Parkının tərəfdaşlığı ilə keçirilir. Bir ay davam edəcək sərgi çərçivəsində şəhər sakinləri və paytaxtın qonaqları Azərbaycanın zəngin biomüxtəlifliyini əks etdirən fotoşəkillərlə yaxından tanış olmaq imkanı əldə edəcəklər.

Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü ilə 2025-ci ildə fəaliyyətə başlayan “Explore Azerbaijan with IDEA” layihəsinin əsas məqsədi Azərbaycanın canlı aləminin təkrarolunmaz gözəlliklərini yerli və beynəlxalq auditoriyaya tanıtmaq, həmçinin ölkəmizin təbiətinin özünəməxsus zənginliyini əks etdirən multimedia bazası formalaşdırmaqdır.



“Explore Azerbaijan with IDEA” təkcə maarifləndirici layihə deyil, həm də təbiətin qorunması və gələcək nəsillərə ötürülməsi üçün çağırışdır.

Azərbaycan təbiətinə məxsus eksklüziv foto və videoməzmunları layihənin rəsmi sosial media səhifələrindən izləmək mümkündür.

- *Instagram: https://www.instagram. cm /exþ ɒ ez e*
- *Facebook: https://www.facebook. cm /exþ ɒ ez e*
- *YouTube: https://www.youtube. com/@exploreazerbaijan.withidea*

***XQ***

*5 May Azərbaycanda Xalçaçı Günüdür*

# "İlmələrdən toxunmuş nağıllar"ın dünya şöhrəti





**Əl əməyi ilə qəlb nurunu eyni ilmədə birləşdirən xalçaçılıq sənəti, əslində, dünyanın qayğılarından uzaqlaşıb əbədiyyət sorağına çıxan bəşər ruhunun təzahürüdür. O, sadəcə, məişət ehtiyaclarını ödəyən, otaqlara yaraşıq verən döşənək deyil, insanın gözəllik duyğusunun şəkillənib sənətə çevrilməsidir.**

Hananın qarşısında oturub, gecə-gündüz çalışan toxucu yun-iplik telləri bir-birinə qovuşduranda öz ömründən, nəfəsindən, əməyindən bir parçanı o əsərə həkk edir. Bu sənətdə təbiətin bütün rəngləri – torpağın qəhvəyisi, göyün mavisi, günəşin sarısı bir araya gələrək vəhdət təşkil edir. İnsan bu naxışlı dünyaya nəzər salanda kainatın həndəsi nizamını görür.

5 may xalqın mənəviyyatını ipəyə və yuna həkk edən xalçaçıların günüdür. Bu münasibətlə yolumuzu paytaxtın sahilində, sanki, yarıaçılmış xalça bükümünü xatırladan Azərbaycan Milli Xalça Muzeyindən saldıq. Qapıdan içəri qədəm qoyan kimi sanki, zamanın gərdişi geri dönür və adam özünü hanaların qurulduğu uzaq kənd evlərində, o qədim ocaqlarda hiss edir. Qulaqlarda kirkitin ağır, ritmik zərbələrinin əks-sədası, havanın ahəngində isə xam yunun və boyaqxanaların doğma rayihəsi canlanır.

**Azərbaycan Milli Xalça Muzeyinin elmi katibi, Əməkdar mədəniyyət işçisi Xədicə Əsədova bildirdi ki, Azərbaycan ərazisində xalça sənətinin təşəkkülü miladdan öncəki dövrlərə təsadüf edir:**



– Mingəçevir və digər qədim yaşayış məskənlərində aparılan qazıntılar zamanı aşkar edilmiş sümükdən, daşdan hazırlanmış iynələr, qıyıqlar və əyircəklər bu torpaqlarda yaşayan ulu əcdadlarımızın hələ tunc dövründən etibarən yundan iplik əyirməyi və primitiv toxuculuq alətlərindən istifadəni yüksək səviyyədə mənimsədiklərini sübuta yetirir. İbtidai dövrlərdə xalçalar daha çox məişətdə soyuqdan qorunmaq və yaşayış yerlərini isitmək kimi utilitar məqsədlərə xidmət etsələr də, zaman keçdikcə, bu məmulatlar insanların inanclarını, mənəvi dünyasını ilmələrin dili ilə nəql edən qiymətli sənət əsərlərinə çevrilmişlər.

Tarixi faktlar və Herodot, Ksenofont kimi antik dövrün salnaməçilərinin əlyazmalarında verilən məlumatlar Azərbaycan xalçalarının hələ qədim zamanlardan dünyada tanınan nüfuzundan xəbər verir. Orta əsrlərdə ölkəmizə səyahət etmiş ərəb və avropalı səyyahların əlyazmalarında bu ərazidə yaşayan insanların bitki mənşəli təbii boyaq maddələrindən istifadə etdikləri və onların hazırladıqları naxışların əsrlərlə öz təravətini qoruduğu xüsusi vurğulanır.

Azərbaycan xalçaları bədii-texnoloji xüsusiyyətlərinə görə şərti olaraq 2 əsas növə – xovlu və xovsuz xalçalara, coğrafi bölgüsünə və naxış kompozisiyasına görə 7 qrupa bölünür. Xovsuz xalçalar texnoloji xüsusiyyəti və bədii rəngarəngliyi ilə seçilir. Toxunma texnikasına və bədii quruluşuna görə xovsuz xalçaların palaz, cecim, kilim, zili, vərni, şəddə, sumax və ladı kimi növləri mövcuddur ki, bunların hər biri xalqımızın minilliklərdən süzülüb gələn estetik dünyagörüşünü ehtiva edir.

Qadınların həyatında cəhrənin müstəsna yeri var idi. Deyilənlərə görə, bir qadın ömrü boyu iki dəfə cəhrə ilə xüsusi şəkildə bağlayırdı öz həyatını. Birinci dəfə körpə ikən, anasının və nənəsinin işini izləyərək sənəti öyrəndiyi zaman ona balaca cəhrə verilirdi. O, incə barmaqları ilə bu kiçik alətdə yunu əyirməyi məşq edirdi. İkinci dəfə isə artıq ailə qurub gəlin köçəndə ona cehiz olaraq cəhrə verirdilər ki, bu da gənc qızın ömrünün sonuna qədər sadiq yoldaşına çevrilirdi.

Əgər bir insan xalçanın dilini, naxışların, ilmələrin mənasını bilsə, xalça onunla danışmağa başlayar. Bu sənəti dərindən tanımaq üçün Quba, Şirvan, Bakı, Gəncə, Qazax, Qarabağ və Təbriz olmaqla 7 əsas xalçaçılıq qrupu haqqında məlumatlı olmaq lazımdır. Hər bölgə təbiəti, bitki örtüyü, qoyunların yununun keyfiyyəti və bədii quruluşu ilə fərqlənir. Məsələn, Abşeronun parlaq və zərif "Qala" cinsi qoyun yunları ilə Qazaxın daha qaba, lakin parlaq yunları xalçanın xovunun hündürlüyünə və ilmə sıxlığına birbaşa təsir edir. Qarabağ xalçalarının isə tamamilə fərqli bir toxunuş keyfiyyəti var.

Xalça sənəti həm də müxtəlif elm sahələrinin kəsişmə nöqtəsidir. Bioloqlar bitkilərin tərkibini, kimyaçılar boyaq maddələrini, texnoloqlar ilmələrin strukturunu, rəssamlar naxışların kompozisiyasını, həkimlər xalçanın müalicəvi əhəmiyyətini (art terapiya), ədəbiyyatçılar isə bu sənətin folklordakı əksini öyrənirlər. Xalçaların üzərində əfsanəvi əjdahalar, mifoloji quşlar, qrifonlar və s. təsvir edilsə də, burada heç vaxt bəd qüvvələrə xidmət edən elementlərə rast gəlinmir. Xalça sənətində ən çox rast gəlinən və tədqiqatçıların diqqət mərkəzində olan elementlərdən biri "S"vari motivlərdir. Bir sıra sənətşünaslar bu elementin stilizə olunmuş əjdaha təsviri olması fikrini irəli sürürlər. Qədim türk mifologiyasında əjdaha surəti evi və ailəni xarici bəlalardan, mənfi enerjilərdən qoruyan simvolik bir keşikçi rolunu oynamışdır.

Xüsusilə "əjdaha" elementi olan xalçalarda rast gəlinən bu təsvirlər, suyun və bərəkətin keşikçisi kimi qəbul olunurdu. Digər tədqiqatçıların araşdırmalarında isə bu cür elementlərin qədim damğa və ya tayfa işarəsi olması fikri müdafiə edilirdi. XVII əsrin yaddaşını öz ilmələrində hifz edən, Azərbaycanın Qarabağ qrupuna məxsus nadir "Əjdahalı" xalçası sənət dünyası üçün müstəsna əhəmiyyət kəsb edən tarixçəyə malikdir.

Texniki göstəricilərinə görə əriş, arğacı yun və pambıqdan, xovu isə yundan toxunmuş bu sənət incisinin vətəninə geri dönməsi isə uzaq Amerikada yaşayan bir sənətsevərlə bağlıdır. Belə ki, xalça ABŞ-ın Şərq xalçası və toxuculuğu üzrə Çikaqo cəmiyyətinin üzvü, mərhum Qrover Şiltsin şəxsi kolleksiyasında mühafizə olunmuşdur. Cənab Şiltsin vəsiyyətinə əsasən, bu tarixi əsər məhz öz doğma yurduna qaytarılmalı idi. Onun bu arzusu həyat yoldaşı xanım Beverli Şiltsin səyləri ilə yerinə yetirilmiş və xalça Azərbaycan Milli Xalça Muzeyinə təmənnasız olaraq hədiyyə edilmişdir.

Bu silsilədə Azərbaycan xalçaçılığının vizit kartı hesab olunan buta motivi xüsusi məqama malikdir. Buta qədim dövrlərin od inancı ilə sıx bağlı olub, alov dilimini və sönməz odu simvolizə edir. Bu element, eyni zamanda, həyatın davamlılığını, mənəvi oyanışı və əbədiyyəti təmsil edən mühüm ideoqramdır. "Malıbəyli" kompozisiyalı xalçalarda əsas göllərin içərisində həm günəşi, suyu, hava və torpağı təmsil edən svastika, həm də həndisiləşdirilmiş "bulud" təsvirləri yerləşdirilir.

Azərbaycan xalçası tarix boyu dünyaya ixrac olunmuş, gələn qonaqlara, elçilərə ən qiymətli hədiyyə kimi təqdim edilmişdir. Onların arasında ən məşhuru 1539-cu ildə Ərdəbildəki "Şeyx Səfi" türbəsi üçün toxunmuş məşhur "Şeyx Səfi" xalçasıdır. Sufilərin müqəddəs mərkəzi sayılan bu türbənin tavanındakı naxışlarla eyniyyət təşkil edən xalça 10,5 metr uzunluğunda və 5,5 metr enindədir. Fəlsəfi yanaşmaya görə, bu xalçanın mərkəzi bütöv kainatdır və oradakı "islimi" naxışı sonsuzluğa doğru gedən mənəvi yoldur.

Xalçanın mərkəzində yerləşən günəşi xatırladan böyük medalyon mütləq varlığı və nizamı təmsil edir. Bu mərkəzdən ətrafa yayılan hər bir naxış və ornament isə kainatdakı digər varlıqların və hadisələrin həmin mərkəz ətrafında dövr etməsini simvolizə edir. Hazırda Londonun Viktoriya və Albert Muzeyində saxlanılan bu nadir nüsxə vaxtilə türbənin təmiri üçün xalqın rəyi ilə satılmışdır. Mərkəzində günəşi xatırladan medalyon olan bu ipək və yun qarışıqlı xalçanın üzərində toxucu Maqsud Kaşaninin adı və Sədinin Tanrıya sığınmaq haqqında hikmətli beyti həkk olunmuşdur. Onun bir qədər kiçik variantı isə özəl kolleksiyaya məxsus olub, Los-Ancelesdə "LACMA" İncəsənət Muzeyində mühafizə olunur.

Təəssüf ki, tarixin müxtəlif dövrlərində Azərbaycan xalçaları başqa xalqların adı ilə təqdim olunmuş, çeşnilərimiz əsrlər boyu mənimsənilmişdir. Lakin XX əsrin əvvəllərində Rusiyadan Qafqaza göndərilən tədqiqatçıların hesabatlarında belə qeyd olunurdu ki, bu bölgədə toxunan xalçaların 90 faizi azərbaycanlılara məxsusdur. Hətta işğal olunmuş ərazilərimizdən qarət edilərək xaricdə satılan xalçalarımıza baxanda onun hansı bölgəyə məxsus olduğunu bilmək çətin deyil. Çünki peşəkar kolleksiyaçı xalçanın ilməsinə, bədii quruluşuna, materialına baxdıqda onun Azərbaycan ruhu ilə toxunduğunu dərhal anlayır.

1967-ci ildə yaradılan və dünyada xalçaya həsr olunmuş ilk muzey olan Azərbaycan Milli Xalça Muzeyi bu gün 10 mindən çox eksponatı ilə bu irsi qoruyub saxlayır. Muzeydə təkcə xalçalar deyil, zərgərlik, geyim və parça nümunələri də nümayiş olunur. Qədim xalçaların bərpası və konservasiyası ilə məşğul olan peşəkar bərpaçılarımız bu sənəti gələcək nəsillərə ötürürlər. Macarıstandan Rusiyaya, Gürcüstandan Monteneqroya qədər bir çox ölkədə təşkil olunan sərgilər Azərbaycan xalçasının şöhrətini dünyaya yayır.

***Fidan ƏLİYEVA***
***XQ***

# Milli xalça kolleksiyası Ukraynada

**Ukraynanın Vinnitsa şəhərinin Regional Diyarşünaslıq Muzeyində soydaşımız Seymur Abuşovun şəxsi kolleksiyasında saxlanılan xalçalardan ibarət sərgi açılıb.**

"Azərbaycan xalçasının sehrliliyi" adlı ekspozisiyasının açılışında Seymur Abuşov bildirib ki, sərgidə XIX əsrin sonu XX əsrin əvvəllərinə aid 30 antik xalça nümayiş olunur. Bu nümunələr Azərbaycan xalçaçılığının aparıcı məktəblərini təmsil edir. Ukraynada nadirliyi ilə seçilən qədim Azərbaycan xalçaları kolleksiyasında bəzi xalıların 100 ildən çox yaşı var.

Muzeyin direktoru Ruslan Palamarovski qeyd edib ki, bu sərgi sənətsevərlərdə Azərbaycan xalçaçılıq sənəti barədə təəssürat yaradır və böyük maraqla qarşılanır.

Mayın sonuna kimi davam edəcək sərgi Ukraynanın digər şəhərlərində də nümayiş etdiriləcək.

***XQ***



# bp-nin qədim irsimizə töhfəsi

**bp şirkəti Azərbaycan xalçaçılıq sənətinə dair 3 kitabdan ibarət nəşrlər toplusunu ictimaiyyətə təqdim edib. Layihə şirkətin ölkəmizin zəngin mədəni irsinin qorunmasına uzunmüddətli dəstəyinin bir hissəsidir.**



Azərbaycan Milli Xalça Muzeyində təqdimatı keçirilən yeni nəşrlərdə tanınmış sənətşünas, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə elmlər doktoru, professor Kübra Əliyevanın Azərbaycan xalçaçılıq sənətinin çoxəsrlik inkişaf yollarının, nadir xüsusiyyətlərinin və üslublarının əsaslı elmi təhlili və tədqiqatlarından bəhs olunur.

Layihə çərçivəsində nəşr olunmuş birinci kitab "Təbriz xalıları (Orta əsrlər)" adlanır. Təbriz xalçaçılıq məktəbinin yaranma və formalaşma mərhələləri təhlil olunduğu bu nəşrdə sözügedən məktəbin özünəməxsus "çiçək üslubu" və kompozisiya xüsusiyyətləri, eləcə də onun bir neçə əsr boyunca Yaxın və Orta Şərq xalça məktəblərinin formalaşmasına göstərdiyi təsir araşdırılır.

"Azərbaycanın xovsuz xalçaları" kitabı xalqımızın ən qədim xalq sənəti növlərindən biri olan xovsuz xalça sənətinin yaranması və inkişafına həsr olunub. Nəşrdə xovsuz xalça sənətinin əsas istiqamətləri, texnikaları və bölgələr üzrə xarakterik xüsusiyyətləri təqdim olunur. Bu ənənələrin əsrlər boyu köçəri xalqlar və kənd xalça ustaları tərəfindən geniş istifadə olunduğu vurğulanır.

"Qarabağ xalçaları" kitabında isə Qarabağ xalçaçılıq məktəbinin formalaşması və onun dörd əsas bədii istiqaməti araşdırılır. Nəşrdə ayrı-ayrı kompozisiyaların yaranma tarixi, eləcə də Ağdam, Bərdə, Laçın və Şuşanın əsas xalçaçılıq mərkəzlərində şəhər və saray xalçaları kimi iki fərqli istiqamətin yaranma şəraiti tədqiq olunur. Bununla yanaşı, kitabda dünyanın aparıcı muzeylərində qorunan nadir xalça nümunələri təqdim və təhlil edilir.

Nəşrdə, həmçinin Qarabağa məxsus süjetli xalça sənətinə dair ilk elmi tədqiqat da yer alıb.

Tədbirdə çıxış edən bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: "Xalçaçılıq sənəti Azərbaycanın milli mədəniyyətini və milli mənsubiyyətini ifadə edən ən güclü sənət növlərindən biridir. Əsrlər boyu xalçalar Azərbaycanın tarixini, ənənələrini, milli dəyərlərini və mənəvi irsini özündə əks etdirib. Azərbaycanın uzunmüddətli və etibarlı tərəfdaşı kimi bp həmişə ölkənin mədəni irsinin qorunmasına və təbliğinə yönəlmiş təşəbbüsləri dəstəkləyib. İnanırıq ki, bu fundamental tədqiqat əsərləri Azərbaycanın unikal mədəni irsinin gələcək nəsillərə çatdırılmasına mühüm töhfə verəcək".



Qeyd edək ki, yeni nəşrlər həm sənətşünaslar, həm də Azərbaycan xalça sənətinin yaranması və çoxəsrlik inkişaf tarixi ilə maraqlanan geniş oxucu auditoriyası üçün nəzərdə tutulub.

bp-nin dəstəyi ilə həyata keçirilmiş geniş mədəni irs proqramının yekun hissəsi olan layihə yeni xalçaçılıq nəşrləri ilə yanaşı, Mirzə Qədim İrəvaninin yaradıcılığı haqqında bir kitab və tanınmış kino tədqiqatçısı Aydın Kazımzadənin müəllifi olduğu Azərbaycanın milli kinematoqrafiyasının tarixi və inkişafına həsr edilmiş 4 cildlik elmi araşdırma nəşrləri daxildir.

8 kitabın hazırlanması və nəşri də daxil olmaqla ümumi dəyəri 308 min 498 manat (təxminən 181 min 470 ABŞ dolları) təşkil edən layihə Təşəbbüslər və Layihələr Mərkəzi tərəfindən həyata keçirilib.

***XQ***

*Kino tariximiz*

# Qəhrəmanlığın ekran təcəssümü

**1941-də çəkilmiş "Səbuhi" filmindən sonra müharibə məhdudiyyətləri səbəbindən Azərbaycan kinematoqrafiyasında müəyyən durğunluq müşahidə edilib. Bununla belə, Bakı kinostudiyasının heç də "əliboş" qalmadığı qeyd olunmalıdır.**






Əslində, o zaman, təbii olaraq, hamının başı davaya qarışmışdı, onun necə bitəcəyi hələ məlum deyildi. Bir də ki, hər hansı müharibənin ədəbiyyatda, incəsənətdə layiqincə əks etdirilməsi üçün yaradıcılıq prosesi müəyyən vaxt tələb edir. Azərbaycanda da bu mövzuda dəyərli ekran əsərləri sonrakı onilliklərdə ərsəyə gəlib. Müharibə dövründə isə çoxlu sənədli-xronikal kinolentlər çəkilib.

Davanın "isti-isti" ekranlaşdırılmasına gəlincə, müharibə dövründə igid döyüşçülər Kamal Qasımova və Bəxtiyar Kərimova həsr olunmuş "Vətən oğlu" və "Bəxtiyar" (1941, 1942, rejissor A.Quliyev) savaş kinonovellaları çəkildi. Arxa cəbhə barədə isə qısametrajli "Sovqat" (1942, rejissorlar H.Seyidzadə və Niyazi Bədəlov), vahid süjet xətti ilə bağlı 3 novelladan ibarət "Bir ailə" (1943, rejissorlar Q.V.Aleksandrov, R.Təhmasib, M.Mikayılov) filmləri ərsəyə gəldi. "Sualtı qayıq T-9" (1943, rejissor A.İvanov) bədii filmi isə müharibə zamanı dənizçilərin göstərdikləri igidliklərə həsr olunmuşdu.

Bioqrafik xarakterli "Vətən oğlu" qısametrajli bədii filminin bu il 85 yaşı tamam olur. Müharibə qəhrəmanı Kamal Qasımovun cəbhədə göstərdiyi hünərdən bəhs edən 23 dəqiqəlik bu kinolentin arxivdə yarıdan da az hissəsi – cəmi 9 dəqiqəlik fraqmentləri qalıb. Filmin baş qəhrəmanı Kamal Qasımov İsmayıllı rayonunun Basqal kəndinin yetirməsi idi. O, müddətli hərbi xidmətini yenicə başa vursa da, müharibə başlanan kimi cəbhəyə yollanıb və qanı, canı ilə qəhrəmanlıq dastanı yazıb.

Əməkdar incəsənət xadimi Ağarza Quliyevin quruluş verdiyi "Vətən oğlu" filminin ssenari müəllifi Əbdürrəhman Minski, quruluşçu operatoru müharibə zamanı dəfələrlə kinokamerası ilə cəbhəyə gedərək nadir kadrlar çəkmiş Muxtar Dadaşovdur. Baş rollarda İsmayıl Əfəndiyev, Əli Qurbanov, Əzizə Məmmədova, Əlisəttar Məlikov və Aleksandr Popov oynayıblar.

Filmin ilk kadrları cəbhədə olan oğlundan məktub gözləyən və əsgərlər üçün paltar bağlaması hazırlayan ananın həyəcanları ilə başlayır. Fraqmentlərdə arxa cəbhədəki insanların qəhrəmanın ailəsinə göstərdiyi maddi və mənəvi dayaq da əks olunub. Film müharibə illərinin faciəli, çətin günlərini, gözü yolda qalan anaların intizarını, bir ailənin timsalında evlərdə yaşanan nigarançılığı qabarıq göstərir.

Sonrakı kadrlarda həsrət çəkən ananın oğlu ön cəbhədə kəşfiyyat dəstəsinin siyasi rəhbəri vəzifəsində hünər göstərir. Aktyor İsmayıl Əfəndiyevin obrazını canlandırdığı Kamal Qasımov bir neçə döyüşçü ilə birgə cəbhə xəttində – Moldova ərazisində, Prut çayının üzərindəki strateji əhəmiyyətli 2 körpünü partladır və düşmənin sahilə çıxmasını xeyli ləngidir. Ona almanların tank diviziyasının qarşısını almaq üçün 3-cü körpünü də sıradan çıxarmaq barədə növbəti əmr verilir.

Qasımov öz dəstəsi ilə düşmənin arxasına keçir və körpünün "sayıq" keşikçilərini bir-bir zərərsizləşdirir. Amma duyuq düşən alman komandanlığı ora əlavə qüvvə yeridərək avtomat və pulemyotları işə salır. Ardınca əlbəyaxa döyüşdə qorxmaz zabit soydaşımız qəhrəmancasına həlak olsa da, körpünü partlatması ilə Rumıniya ərazisindən düşmənin bu üzə keçməsinə əsl maneə yarada bilir. Moldova şairi Yemillian Bukov ona şeir həsr edib.

Onu da qeyd edək ki, "Vətən oğlu" keçmiş İttifaq miqyasında müharibənin ilk aylarında döyüşçünün şəxsi igidliyinin ekranlaşdırıldığı ilk filmdir. Bakı kinostudiyasında eyni zamanda, "Azərbaycan coğrafiyası" (rejissorlar Mikayıl Mikayılov və İvan Tartakovski), "Beş dəqiqəlik konsert" (rejissor Vladimir Yeremeyev), "Bir May Bakısı" (rejissor Əbdül Həsənov) və "Şeirimiz də, nəğməmiz də bir bombadır, bir bayraqdır" adlı qısametrajlı sənədli filmlər də istehsal edilib.

***Ə.DOSTƏLİ***
***XQ***

*Təqvim yada salır*

# Söz sərrafı, məna xiridarı

## *Həyatdan vaxtsız getmiş istedadlı jurnalist Adil Qaçayoğlunun xatirəsinə*

**Bayaqdan yazıb-pozuram. Nə cümlələr bir-birinə uyuşur, nə də ürəyimdə olan isti, həlim fikirlər telefonun klaviaturasına olduğu kimi axır. Yazdıqlarım elə quru, soyuq, ruhsuz alınır ki, özüm özümdən utanıram. Deməli, ürəyimlə barmaqlarım arasındakı məsafə mənim bilib-gördüyümdən çox uzaqdı və o sözlər sanki içimdən gəlməyib.**



Ürəkdən gəlməyən söz isə ürəkləri incidir. Buna görə Məşədi İbad qəzetçi Rzaya deyirdi ki, elə yaz ki, xəlq oxuyub zad eləsin. Bax, çətini elə xalqın, oxucunun istədiyi kimi yazmaqdı. Bunu da hər kəs bacarmır (çünki yaxşı yazmaq sonu görünməyən qarlı bir çölü keçib getmək qədər ağır, üzücüdü. Yaxşı yazmaq böyük meşədə ağac və kolları saymaq qədər çətindi. Bu, təkcə bilikli olmaqla bağlı iş deyil, lazım gələndə buna saatlar sərf etməlisən, yuxusuz qalmalısan, istirahətdən vaz keçməlisən...). Adil bacarırdı. Buna görə də onun yazdıqlarına pozu yox idi. Özü də elə yazırdı ki, bir cümləsini belə redaktə etmək, söylədiyi hər hansı fikirlə razılaşmamaq olmurdu. O, hər sahədən, hər bir mövzudan oxunaqlı, yaddaqalan yazırdı. Adil Qaçayoğlu (Atakişiyev) imzasının populyar olmasına səbəb bu idi. O, oxucuların, xüsusilə futbolsevərlərin sevimli yazarı, şərhçisi idi.

Adil çağdaş jurnalistikamızın seçilən və sevilən simalarından sayılırdı. Çünki yaxşı yazmaqla yanaşı, yaxşı qəzetçi, təcrübəli redaktor idi. O, yanaşı çalışdığı gənc jurnalistlərə heç vaxt "elə yazın, belə yazın" deməzdi. Sadəcə, özü elə yazırdı ki, o, məqalə, araşdırma yazısı həm aktuallığına, həm dilinə, hətta sərlövhəsinə görə oxuyanın ürəyindən, təbiri-caizsə, "tikan" çıxarırdı. Və həmin gün qəzetçi dostlarımız Adilin gündəm olan yazısından danışırdı...

Orta boyu, gülümsər çöhrəsi vardı. Hamı ilə mehriban idi. Ağdamda anadan olmuşdu, orta məktəbi yarıya qədər orada oxumuşdu. Amma atası iş yerini dəyişdiyi üçün sonralar Balakənə köçmüşdülər. Adilin həssas ürəyi vardı. Məncə, artıq indi açıqlamaq olar ki, o, qızlarımızdan birini sevirdi. Qız da gözəl idi, haa! (Əslində, qızlarımızın hamısı biri-birindən gözəl idi). Tələbə yoldaşlarımızdan neçəsi, gizli də olsa, o qızı sevirdi. Lakin heç kəs Adilə görə bu istəyi dilə gətirmirdi. Oğlanlı-qızlı çoxumuz istəyirdik ki, bu məhəbbət qarşılıqlı olsun, bu sevgi yetim qalmasın. Amma o, şəhərli qız inadından dönmədi. Bu, məncə, Adilin həyatda aldığı ilk zərbə idi. Əlavə edim ki, o vaxtlar şair Əli Kərimin bu misraları dilimizin əzbər idi: "...Sən mənim qədrimi biləsən deyə, bu cavan yaşımda ölümmü indi?" Sevgidən çox danışmasa da, hiss edirdik ki, ürəyindəki məhəbbət ocağı hələ də onu qovurur. Xoş halına sevgidən yarıyanların, məhəbbəti çiçəkləyənlərin!

Universiteti bitirəndən sonra Adil öz istəyi ilə Balakənə getdi. Bir neçə il "Şən həyat" rayon qəzetində şöbə müdiri işlədi. Sonra Bakıya döndü və o dövrün ən çox oxunan "Azərbaycan gəncləri" qəzetində çalışdı, gözəl yazıları ilə özünü çağdaş mediamızın istedadlı nümayəndələrindən biri olduğunu sübutladı. Sonralar o, "Ülfət" və "525-ci qəzet"də, "Yeni Musavat"da işlədi. O, futbola dair silsilə yazıları ilə ən yaxşı idman jurnalisti adını da təsdiqlədi. Xüsusilə dünya futbol çempionatı oyunlarına aid yazıları mətbuatımızda ən gözəl, məntiqli şərhlər kimi qəbul edildi.

Adillə eyni mikrorayonda yaşayırdıq. Tez-tez görüşür, uşaqlarımızı gəzməyə çıxarır, qayğılarımızı bölüşürdük. Bir axşamçağı zəng elədi. Dedi ki, çıx görüşək. Sən demə, dünən öz istəyimlə işdən ayrıldığımı eşidibmiş. Dedi, neynəmək fikrindəsən? Bildirdim ki, mətbuatdan uzaqlaşmaq (bizim nəsildən olan jurnalistlərin çoxu beləydi, elə ki, redaksiyanın atmosferi xoşlarına gəlmirdi, yaxud əməkhaqqı qane etmirdi oradan uzaqlaşırdılar) istəyirəm, sənədlərimi də Əmlak Komitəsinə vermişəm...

Amma o, istəyim baş tutmadı və mən bir müddət işsiz qaldım. Bir gün yenə o, zəng elədi və dedi ki, Araz səninlə görüşmək istəyir. Onda Araz Zeynalov bir neçə ay idi ki, "Ekskluziv" xəbər agentliyindən "Panorama"ya baş redaktor getmişdi. Adil də orada redaktor idi. Getdim. Gördüm Arazla Adil oturub söhbət edirlər (indi onlar haqq dünyadadırlar. Allah hər iki dostumuza rəhmət eləsin, məkanları nurla dolsun...). Araz dedi ki, "Eksklüziv"ə redaktor lazımdı, biz sənin namizədliyini vermişik. Dedim, sağ olun, ancaq mən rus dilini pis bilirəm, ingilis dilində də "may fəmli"dən başqa heç nə bilmirəm. Hər ikisi güldü və boynuma qoydular ki, bilirik sən bacaracaqsan. Orada yaxşı tərcüməçilər də var...

İşləməli oldum. Arabir Araz deyirdi ki, bəs deyirdin bacarmaram...

Bir neçə il sonra Adil işdən çıxmışdı. Mən də artıq başqa media qurumunda işləyirdim. Bizim "Çempion" adlı idman qəzetimiz vardı. Baş redaktor Ürfan bəyə dedim ki, Adil işləmir. O, sevinən kimi oldu və bildirdi ki, de, sabahdan gəlib redaktor müavini kimi işə başlasın. Mən də sevindim və Adilə zəng vurdum. Dedi, ki, sağ ol, fikirləşərəm. Üç gün sonra ona təkrar zəng vurdum. Nə desə yaxşıdı? Dedi ki, Səməd, bilirəm sizdə möhkəm intizam var. Mən isə işə tez-tez gecikirəm. İstəmirəm mənə görə sənə söz gəlsin. Nə illah elədim, "yox" dedi...

O, belə insan idi.

Ağdamın işğalı Adilə çox pis təsir etmişdi. Bu barədə xeyli yazısı var. Elə ki, söhbət Qarabağdan düşürdü Adilin halı dəyişirdi. Elə yana-yana danışırdı ki, biz də göynəyirdik. Onun bu mövzuda yazılarından biri "Bir səs məni Ağdama aparmışdı..." adlanır. Mən o yazını "Bizim alın yazımız" kitabına verəndə dönə-dönə oxuyub, körəldim. Adilin həmin kitabdakı "Bizi bağışla, Rəşid, bağışla!" sərlövhəli yazısı da çox təsirlidi.

O, belə yazar idi!

Xatırladım ki, Adil Qarabağ mövzusunda silsilə yazılarına görə 2008-ci ildə "Media açarı" xüsusu mükafatına layiq görülüb. Təəssüf ki, o, həmin il, mayın 4-də aramızdan getmişdi. Vəfatından sonra qələm dostlarının köməyilə "Ağdam yuxuma girir" kitabı işıq üzü gördü.

Biz tələbə dostları Adili heç vaxt unutmadıq. Dost, yoldaş var sən axtarmasan, soraqlamasan səsi gəlməz, heç sən də onun üçün o qədər darıxmazsan. Eləsi də var aldığımız nəfəs kimidi – səsini eşitməyəndə, tez-tez yanaşı addımlamayanda, dərdləşməyəndə darıxırsan, gözün yolunda qalır. Adil belələrindən idi. O, sözü-söhbəti, yoldaşlığı və xatirələrilə hər zaman bizimlədir!

Ruhun şad olsun, Adil.

***Səməd MƏLİKZADƏ***


## "Bakqazmaş" ASC səhmdarlarının nəzərinə!

30 iyul 2026-cı il saat 11.00-da "Bakqazmaş" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** 2025-ci ilin maliyyə fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**2.** Digər məsələlər.

Bütün səhmdarların iştirakı vacibdir.

**Ünvan:** Bakı şəhəri, Albalılıq qəsəbəsi.

***İdarə heyəti***



**bp Xəzər dənizinin Azərbaycan sektorunda "Qarabağ" yatağının işlənməsi üzrə risk xidmət sazişinin əsasında fəaliyyət göstərən əməliyyat şirkəti kimi elan edir ki, iş proqramı çərçivəsində boru dəstlərinin istehsalı obyektinin tikintisinə aid Ətraf Mühitə və Sosial-İqtisadi Sahəyə Təsirin Qiymətləndirilməsi (ƏMSSTQ) sənədinin layihə variantı podratçı tərəflərin adından hazırlanıb və nəşr edilib.**

Sənəddə təklif edilən tikinti fəaliyyətlərinin xülasəsi verilir, bu fəaliyyətlərin ətraf mühitə və sosial iqtisadi sahəyə potensial təsirləri araşdırılır və tövsiyə edilən təsirazaltma və monitorinq tədbirləri təsvir edilir. ƏMSSTQ prosesi təklif edilən işlərin nəticəsində yarana biləcək hər hansı mənfi ekoloji və sosial-iqtisadi təsirlərin müəyyənləşdirilməsini, minimuma endirilməsini və mümkün olan hallarda aradan qaldırılmasını təmin etmək məqsədi daşıyır.

Boru dəstləri istehsalı obyekti "Qarabağ" layihəsi, həmçinin, gələcəkdə Xəzər dənizində digər neft və qaz işlənmə layihələri üçün sualtı boru kəməri dəstlərinin ölkədə istehsalı və sınaqdan keçirilmə işlənmə mərhələsi ilə bağlı təsirin qiymətləndirilməsi ayrı bir müvafiq sənəddə əhatə olunacaq.

Maraqlı tərəflərlə məsləhətləşmələrin aparılması ƏMSSTQ prosesinin mühüm hissəsidir. Maraqlı tərəflərin dinlənməsi və fikirlərinin sənədləşdirilməsi, əsas maraqlı tərəflərin birgə fikirlərinin layihələndirmə işlərində və ƏMSSTQ sənədində əksini tapmasını təmin edir.

ƏMSSTQ sənədinin və qeyri-texniki xülasənin layihə variantları bütöv olaraq Azərbaycan və ingilis dillərində hazırlanmış və sənədlə aşağıdakı keçid və QR kodu vasitəsilə bp-nin veb-səhifəsində tanış ola bilərsiniz:

Azərbaycan dilində:
https://www.bp.com/az_az/azerbaijan/home/news/hesabatlar/Etraf-muhit-ve-sosial-tesirlerin-qiymetlendirilmesi-hesabatlari/Qarabag-layihesi.html

İngilis dilində:
https://www.bp.com/en_az/azerbaijan/home/news/reports/environmental-and-social-documentation/Karabakh-project.html

si məqsədilə Bakı şəhərindən təxminən 85 km cənub-qərbdə, Bəndovan burnunun yaxınlığında inşa ediləcək. Layihə istehsal zonasının, boru dəstləri üçün rels əsaslı hərəkət zolağının, yedəkləmə əməliyyatları üçün dənizə buraxma yolunun, boru anbarlarının, köməkçi avadanlıqların, əməliyyatlar mərhələsi üçün yaşayış düşərgəsinin, ofislərin və çınqıl döşənmiş giriş yolunun tikintisini əhatə edir. Tikinti fəaliyyətlərinin 2026-cı ilin üçüncü rübündə başlanması və 2028-ci ilin birinci rübündə tamamlanması gözlənilir. Obyektin istismarı və layihənin dənizdə

2026-cı il mayın 1-dən etibarən bu sənədlərin nüsxələri ictimaiyyətin tanış olması üçün aşağıdakı ünvanlarda da yerləşdirilib:

- *bp-nin Xəzər Mərkəzi Ofisinin qəbul şöbəsi, Bakı, Neftçilər prospekti 153.*
- *M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Xaqani küçəsi 29.*
- *Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin Elmi Kitabxanası, Bakı, Hüseyn Cavid küçəsi 31.*
- *Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin kitabxanası, Bakı, Azadlıq prospekti 20.*
- *Orxus İctimai Ekoloji İnformasiya Mərkəzi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Bakı, Bəhram Ağayev küçəsi 100a.*
- *Bakı Ali Neft Məktəbinin Kitabxanası, Kampus, Bakı,yeni Salyan şosesinin 3-cü kilometri.*
- *Şirvan Milli Parkı, Salyan rayonu, Yenikənd kəndi.*

ƏMSSTQ sənədinin layihə variantı barədə fikir və rəyləriniz bizim üçün əhəmiyyətlidir. Qeydlərinizi və rəylərinizi:

*– doldurulmuş rəy formaları ilə birlikdə elektron məktubla esiafeedback@bp.com ünvanına və ya*

*– doldurulmuş rəy formaları ilə birlikdə poçtla AZ1010, Bakı,Neftçilər prospekti 153, Port Baku, bp Xəzər Mərkəzinə göndərə və yaxud*

*– doldurulmuş rəy formalarını yuxarıda sadalanan ictimai yerlərdən birinə təqdim edə bilərsiniz.*

**ƏMSSTQ sənədinin açıqlanma müddəti 2026-cı il mayın 31-nədəkdir.**

**ƏMSSTQ sənədinin layihə variantı barədə fikir və rəylərinizi gözləyirik.**


*Biz deməsək...*

# Azad Qarabağ qoy abad olsun!

## *Lakin bəzi ziyarətçilər cənnət məkanları zibilxanaya çevirirlər*

**Keçmiş məcburi köçkünlərin mərhələli şəkildə ata-baba ocaqlarına qayıdışı nəticəsində işğaldan azad olunmuş ərazilərdə həyat yenidən canlanır. Sürətlə dirçəldilən Qarabağa indi vaxtilə burada yaşamış sakinlərlə yanaşı, ölkəmizin dörd bir yanından işləmək, təhsil almaq, Tanrının bu yerlərə bəxş etdiyi təbiət gözəllikləri görmək üçün gələnlərin ardı-arası kəsilmir.**



İnsanların şəhid qanı ilə suvarılmış torpaqlarımıza sonsuz sevgisi qürurvericidir. Ancaq təəssüf ki, həmin torpaqları ziyarət edənlər içərisində məsuliyyətsizlikdən təbiətə zərər verənlər, meşələri, yaşıllıqları, su hövzələrinin ətrafını zibilləyənlər də yox deyil. Bugünlərdə Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyi və Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkilati dəstəyi ilə Xocalı rayonunun Dağdağan kəndindəki gölün ətrafında ekoloji vəziyyətin yaxşılaşdırılması məqsədilə keçirilən iməcilik "Xalq qəzeti"nin bu məsələ ilə bağlı bir müddət əvvəl gündəmə gətirdiyi mövzunun aktuallığını bir daha göstərdi.

Qeyd edək ki, Dövlət Turizm Agentliyinin (DTA) Qarabağ Regional Nümayəndəliyinin təşəbbüsü ilə keçirilən ekoloji aksiyada Qarabağ Universitetinin tələbələri və Xankəndi şəhərində fəaliyyət göstərən otellərin əməkdaşları, o cümlədən könüllülər fəal iştirak ediblər. İməcilik zamanı gölün ətrafı tullantılardan təmizlənib, təbiətin füsunkar görüntüsünə xələl gətirən görüntülər aradan qaldırılıb.

Aksiyanın əsas məqsədi təbiət qoynunda istirahət zamanı ətraf mühitin çirkləndirilməsinin, canlı təbiətə zərər vurulmasının və meşə yanğınlarının qarşısının alınması üçün maarifləndirmə və ekoloji məsuliyyət hissinin təşviq edilməsi olub. Belə ekoloji təşəbbüslər həm də regionda ətraf mühitin mühafizəsinə diqqətin artırılmasına, ekoloji mədəniyyətin formalaşdırılmasına və gənclərin təbiətin qorunması istiqamətində daha fəal iştiraklarına mühüm töhfə verir.

DTA-nın regional nümayəndəliyinin bu təşəbbüsü, sözsüz, təqdirəlayiqdir. Sevindiricidir ki, aidiyyəti dövlət qurumları tərəfindən vaxtında zəruri addımlar atılmaqla yanaşı, işğaldan azad edilmiş əraziləri təmiz saxlamağı vətəndaşlıq nümunəsinə çevirən, başqalarının tökdüklərini yığan həssas və vicdanlı insanlarımız kifayət qədər çoxdur. Ancaq hər birimiz Vətən sevgimizi torpaqlarımızı işğaldan azad etmək məqamında birliyimizlə göstərdiyimiz kimi, bu gün onu qorumaqla da göstərməliyik. Axı Tanrının Azərbaycana bəxş etdiyi bu əsrarəngiz təbiət gözəlliklərini qoruyaraq gələcək nəsillərə çatdırmaq babalarımızın bizə əmanətidir. Əmanətə sahib çıxaq, zibilləməyək ki, təmizləməyə ehtiyac olmasın!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 77 (31046) 5 may 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### "Dünya çövkəni"nə hazırlıq



**Çövkən üzrə Azərbaycan yığma komandası Dünya Çempionatına hazırlıq məqsədilə təlim-məşq toplanışına başlayır. Azərbaycan Respublikası Atçılıq Federasiyasından verilən məlumata görə, toplanışın birinci mərhələsi 5-20 may tarixlərini əhatə edəcək.**

Bu mərhələdə bərabərlik prinsipinə uyğun olaraq Peşəkar Çövkən Liqasında iştirak edən komandaların hərəsi ən güclü 2 idmançısını yığmanın baş məşqçisi Əli Tatlıyevin ixtiyarına göndərib. Bu isə yığmanın qapılarının bütün komanda və idmançıların üzünə açıq olması, onlar üçün şans deməkdir. Toplanışın gedişi zamanı özünü doğrultmayan idmançılar başqaları ilə əvəzlənəcək. May ayının 20-də təlim-məşq toplanışının birinci mərhələsi yekunlaşacaq. Baş məşqçi 20 nəfərlik heyətdən ən güclü 10 nəfəri təsdiqləyib onlarla Dünya Çempionatına hazırlaşacaq.

### 1 əsrlik stolüstü tennis



**Bu il 100 illiyi qeyd olunan Beynəlxalq Stolüstü Tennis Federasiyasının yubiley sammiti keçirilib. Londonda təşkil olunan tədbirdə Azərbaycan Stolüstü Tennis Federasiyasının vitse-prezidenti Elmar İslamla baş katibi Könül Mikayılova da iştirak edib.**

Quruma üzv ölkələrin rəsmilərinin qatıldığı toplantıda son bir ildə görülən işlərlə bağlı hesabat dinlənilib, stolüstü tennisin mövcud durumu və gələcək fəaliyyət planı müzakirə olunub, müvafiq tapşırıq və tövsiyələr verilib. Həmçinin BSTF-nin yeni konstitusiyası qəbul olunub. Sonda təşkilatın rəhbərliyi tərəfindən məqsədyönlü fəaliyyət göstərən federasiyalara təşəkkür bildirilib, sözügedən idman növünün inkişafı istiqamətində uğurlar arzulanıb.

### Şahmat Federasiyasında valideynlərlə görüş




**Azərbaycan Şahmat Federasiyasının rəhbərliyi yeniyetmə və gənclərdən ibarət yığma komandada çıxış edən şahmatçıların valideynləri ilə görüş keçirib.**

Görüşdə Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov federasiya tərəfindən təqdim olunan şahmatçılara dəstək proqramı barədə məlumat verib. AŞF rəhbəri istedadlı uşaqların erkən yaşlardan aşkarlanması və inkişafdan geri qalmamasının diqqətdə saxlanıldığını qeyd edib.

Federasiyadan verilən məlumata görə, yeniyetmə və gənc şahmatçılardan ibarət yığma komandanın baş məşqçisi Nicat Məmmədov dəstək layihəsinə seçim, hazırlıq proqramından danışıb. İclasda iştirak edən məşqçi Fərid Abbasov və Azərbaycan Şahmat Federasiyasının baş katibi İlahə Qədimova şahmatçıların hazırlığında valideynlərin xüsusi rolu olduğunu vurğulayıb.

Mərasimdə uşaqların düzgün qidalanması və hazırlıq vaxtının səmərəli istifadəsinin vacibliyi barədə danışılıb.

Görüşün sonunda AŞF rəhbərliyi və məşqçilər valideynlər tərəfindən səsləndirilən sualları cavablandırıb.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Yaxın Şərq böhranı qlobal turizmi də əngəlləyir



## *Azərbaycan isə dünyanın hər yerindən gələn səyahətçilər üçün açıqdır*

**Bu gün dünya turistlərinin diqqətini cəlb etmək üçün ölkəmizdə müxtəlif istiqamətlərdə fəal işlər görülür. İqtisadiyyat, idman, mədəniyyət, incəsənət və digər sahələrdə əldə olunan yüksək nailiyyətlər xarici iş adamları ilə yanaşı, turistlərin də ölkəmizə marağını artırır. Son illər beynəlxalq yarış və tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizi, onun tarixini, mədəniyyətini, qonaqpərvərliyini, mətbəxini və bir sıra digər özünəməxsus xüsusiyyətlərini dünya ictimaiyyətinin diqqətinə çatdıraraq, dünyaya fərqli bir kontekstdə təqdim etməyə imkan yaratmış, tanınması prosesində mühüm rol oynamışdır.**

Dünyada bəzi dövlətlər arasında gərginləşən münasibətlər, Yaxın Şərq regionunda müharibə ehtimalının daha da artması digər sahələr kimi, turizmə də mənfi təsirlər göstərib. Xüsusilə təhlükəsizlik narahatlıqları səbəbilə bir çox ölkə vətəndaşlarına müəyyən bölgələrə səyahət etməməyi tövsiyə edir. Bu isə turizm axınının azalmasına, otellərdə və turizm xidmətlərində geriləməyə səbəb olur. Qlobal turizm son dövrlərdə yalnız iqtisadi deyil, həm də təhlükəsizlik faktorlarının təsiri ilə də zəifləyir. Xüsusilə Yaxın Şərqdə artan hərbi gərginliklər və genişlənən münaqişə ocaqları beynəlxalq səyahət axınlarını ciddi şəkildə azaldır.

Bu gün də davam edən hərbi toqquşmalar və hava hücumları nəticəsində hava məkanının bağlanması və ya məhdudlaşdırılması, həm yerli, həm də xarici turistlərin bölgəni tərk etməsini olduqca çətinləşdirib. Bu baxımdan turistlər planlaşdırdıqları səfərləri ya təxirə salır, ya da ləğv edir. Müharibə təhlükəsi insanların səyahət etmək istəyini azaldır və bu, turizmi iqtisadi tənəzzülə gətirib çıxarır.

Ölkəmizə gələn xarici turistlər adətən çox müsbət təəssüratla ayrılmaqla Azərbaycanın həm təbiətini, həm də mədəniyyətini maraqlı və unikal hesab edirlər. Turistlər xüsusilə Bakının müasir binalarını, təmiz küçələri və dənizkənarı bulvarını, tarixi yerlərini bəyənir və bu, onlarda dərin təəssürat yaradır. Şəhərin köhnə və yeni hissəsinin bir yerdə olması onlarda böyük maraq yaratmaqla yanaşı, qədim tarixin və mədəniyyətin qorunmasını yüksək qiymətləndirirlər. Həmçinin təbiət və bölgələr, dağlar və kəndlər turistlərə sakitlik, gözəllik bəxş edir. Xüsusilə Azərbaycanın müxtəlif iqlimi və mənzərələri onları heyran qoyur.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2026-cı ilin yanvar-mart aylarında Azərbaycan Respublikasına dünyanın 172 ölkəsindən 484,4 min əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlmişdir. Gələnlərin 25,9 faizi Rusiya Federasiyası, 21,7 faizi Türkiyə, 8,9 faizi İran, 5,3 faizi Gürcüstan, 4,1 faizi Qazaxıstan, 3,6 faizi Hindistan, hər birindən 3,0 faiz olmaqla Pakistan və Özbəkistan, 2,5 faizi Səudiyyə Ərəbistanı, 2,1 faizi Çin, 1,9 faizi İsrail, 1,6 faizi Ukrayna, 1,5 faizi Türkmənistan, 1,2 faizi Böyük Britaniya, hər birindən 1,0 faiz olmaqla Küveyt və Birləşmiş Ərəb Əmirlikləri, 11,7 faizi digər ölkələrin vətəndaşları və vətəndaşlığı olmayan şəxslər olmuşdur. 2025-ci ilin yanvar-mart ayları ilə müqayisədə 2026-cı ilin yanvar-mart aylarında Avropa İttifaqına üzv ölkələrdən gələnlərin sayı 27,4 faiz artaraq 21,8 min nəfər, MDB ölkələrindən gələnlərin sayı 3,8 faiz artaraq 177,1 min nəfər, körfəz ölkələrindən gələnlərin sayı 16,7 faiz azalaraq 69,1 min nəfər, digər ölkələrdən gələnlərin sayı 8,9 faiz azalaraq 216,4 min nəfər təşkil etmişdir.

Bir neçə aydır davam edən regiondakı məlum müharibə turizm sektoruna çox ciddi və çoxşaxəli təsir göstərir. Odur ki, müharibə və təhlükəsizlik riski turist axınının azalmasında ən həssas faktordur. Azərbaycanla yanaşı, Yaxın Şərq ölkələrinə səyahət edənlərin və oradan gələn turistlərin də sayında kəskin azalma müşahidə olunur. Bəzi ölkələr isə turistlər üçün, ümumiyyətlə, "riskli zona" kimi qəbul edilir. Münaqişə regionda artıq "təhlükəsiz turizm məkanı" imicini itirib və bu, uzunmüddətli təsir yaradır. Uçuşların ləğv edilməsi və hava məkanının bağlanması turizm xərclərini artırmaqla səfərləri daha da çətinləşdirir. Beləliklə, hotellər, restoranlar, turlar və aviaşirkətlər böyük itkilər yaşayır. Müharibə nəticəsində neftin qiymətinin kəskin artması da aviabilet qiymətlərini və tur paketlərinin bahalaşmasına səbəb olub. Münaqişə təkcə regiona yox, bütün dünyaya təsir edir, hava marşrutları uzanır, sığorta və təhlükəsizlik xərcləri artır.

**Turizm üzrə ekspert Rəhman Quliyev mövzu ilə bağlı XQ-yə bildirib ki,** dünyada baş verən siyasi



gərginlik, Yaxın Şərqdə baş verən silahlı müharibə, artilleriya döyüşləri, eyni zamanda, Şərqi Avropadakı müharibə də ümumi olaraq qlobal turizmə çox ciddi təsir göstərir. Bu gün hesab edirəm ki, Azərbaycanın da bu zərərlərdən payı var. Çünki Dünya Səyahət və Turizm Şurasının açıqlamalarına görə, gün ərzində müharibə dövründə 600 milyon dollardan çox beynəlxalq turizmə zərər dəyir. Əlbəttə ki, biz nəzərə alsaq ki, müharibə dövründən qabaq Körfəz ölkələrindən kütləvi surətdə Azərbaycana turist gəlirdi. Bu gün həmin ölkələrin hava limanları öz fəaliyyətini dayandırıb. Düzdür, indi qismən bərpa etsə də, amma insanların sosial durumu, hələ ki, turist potensialını dəstəkləmir. Çünki dünya təcrübəsi də onu göstərir ki, müharibəyə cəlb olunan ölkələrin iqtisadiyyatı çökür, zəifləyir və burada insanların sosial rifahı da aşağı düşür. Təbii ki, ikinci bir problem də Asiya ölkələrindən Azərbaycana gələn aviareyslərin bir çoxunun Körfəz ölkələrinin hava məkanından istifadə etməsidir. Bu isə həmin Körfəz ölkələrinin hava məkanları bağlı olduğuna görə, aviareyslər ya ləğv olunur, yaxud da ki, istiqamətini dəyişir. Bu da çox ciddi, yəni turist itkisinə səbəb olur. Həm qiymət bahalaşır, eyni zamanda, təhlükəsizlik baxımından da turistlər səfərlərdən yayınırlar.

Beynəlxalq Valyuta Fondu hesab edir ki, hava nəqliyyatındakı gərginlik qlobal turizmi də zəiflədir. İnsanlar müharibə bölgəsinə yaxın yerlərə getməkdən çəkinir, "Qorxu effekti" hətta uzaq ölkələrə də təsir edir. Nəticədə turistlər alternativ istiqamətlər seçir. Xüsusilə Avropa ölkələri bu səbəbdən turist qazanır. Bu müharibələr üzündən regionda turizm demək olar dayanır, xərclər artır, avia və logistika sistemi pozulur.

Sözsüz, zəngin tarixə, nadir mədəniyyətə və unikal təbii sərvətlərə malik Azərbaycanın dünyanın hər yerindən gələn turistlər üçün cəlbedici məkandır. Odur ki, turizm Azərbaycana həm iqtisadi fayda gətirir, həm də ölkəmizin dünyada tanınmasında mühüm rol oynayır. Eyni zamanda, iqtisadiyyatı və mədəni əlaqələri güclənməklə yanaşı, ölkəmizin inkişafına müsbət təsir göstərir.

*Müşfiq MİRZƏ*
*XQ*

## HAVA

### Paytaxtda yağmursuz, rayonlarda yağış, dolu və qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecəyə doğru bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Mülayim şimal-şərq küləyi əsəcək.**



Havanın temperaturu gecə 10-13, gündüz 15-19 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 760 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı keçəcəyi gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 10-14, gündüz 18-23, dağlarda gecə 3-8, gündüz 12-17 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rəhbərliyi və kollektivi Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevə anası

**GÖYƏRÇİN PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Məhkəmə-Hüquq Şurası bütün hakim korpusu adından Sumqayıt Apellyasiya Məhkəməsinin sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Tofiq Paşayevə anası

**GÖYƏRÇİN PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov "Azərgold" QSC sədrinin müşaviri Elçin Qasımova atası

**LÜTVƏLİ QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertizası Mərkəzinin kollektivi iş yoldaşları Qamət Yaqubova həyat yoldaşı

**AYBƏNİZ YAQUBOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Bakı Apellyasiya Məhkəməsinin kollektivi Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevə anası

**GÖYƏRÇİN PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Aslan Muradov, Rəfail Mehdiyev, Fuad Cavadov, Mehdi Nəcəfov, Adil Əliyev, İlqar Məmmədov, Akşin Ziyadov, Malik Ələkbərov, Hüseyn Əlixanov, Mehman Soltanov, Rahim Rəhimov, Ağakərim Səmədzadə, Sübhi Kazımov, Çingiz Məmmədov və Cümşüd Cəfərov Elçin Qasımova atası

**LÜTVƏLİ QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Tahir Aydınoğlu, İlqar Həsənov və Namiq Əhmədov jurnalist həmkarları İbrahim Mehdiyevə həyat yoldaşı, Adil İrşadoğluya bacısı

**ELMİRA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aslan Muradov, Rəfail Mehdiyev, Fuad Cavadov, Mehdi Nəcəfov, Elçin Qasımov, Adil Əliyev, İlqar Məmmədov, Akşin Ziyadov, Malik Ələkbərov, Hüseyn Əlixanov, Mehman Soltanov, Rahim Rəhimov, Ağakərim Səmədzadə, Sübhi Kazımov, Çingiz Məmmədov və Cümşüd Cəfərov Sumqayıt Apellyasiya Məhkəməsinin sədri Tofiq Paşayevə anası

**GÖYƏRÇİN PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Auditorlar Palatasının rəhbərliyi, kollektivi və üzvləri Palatanın üzvü, "Azel - Audit" MMC-nin direktoru Elzadə Süleymanovaya bacısı

**NƏZAKƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3160
SİFARİŞ 569
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00